Xalqın qəzeti!

# Xalq qəzeti

№ 111 (30227) 27 may 2023-cü il, şənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az


## Günün sözü

**Prezident İlham Əliyev:**

**Azərbaycan iqtisadiyyatı müstəqilliyin, demək olar ki, bütün dövrü ərzində dayanıqlılıq və artım nümayiş etdirir. Biz tam iqtisadi müstəqilliyə nail olmuşuq. Bu da bizim uğurla həyata keçirdiyimiz müstəqil xarici siyasət kursunu aparmaq imkanının mühüm amilidir.**

# “Biz tam iqtisadi müstəqilliyə nail olmuşuq”



**Avrasiya İqtisadi Birliyi Rusiya və Belarus arasında Gömrük İttifaqı Sazişinin imzalanması ilə 1995-ci il yanvarın 6-da yaradılıb. Üzv dövlətlərin iqtisadi inteqrasiyasını reallaşdırmaq qarşıya mühüm məqsəd kimi qoyulub. Onu da qeyd edək ki, təşkilat sonrakı dövrdə regional bir quruma çevrilib və 2000-ci il oktyabrın 10-da Belarus, Qazaxıstan, Qırğızıstan, Rusiya və Tacikistan tərəfindən imzalanan müqavilə ilə daha da gücləndirilib. Moldova və Ukrayna 2002-ci ildə, Ermənistan isə 2003-cü ildə təşkilata müşahidəçi qismində qoşulub. Özbəkistan 2006-cı il yanvarın 25-də Avrasiya İqtisadi Birliyinə üzv qəbul edilib. Təşkilat, eyni zamanda, Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasında da müşahidəçi statusu ilə fəaliyyətə başlayıb.**

Moskvada Ali Avrasiya İqtisadi Şurasının mayın 25-də geniş tərkibdə keçirilən iclasına dəvət olunan Azərbaycan Prezidenti İlham Əliyev tədbirdə çıxış edib. Dövlətimizin başçısı nitqində ölkəmizin həyatı ilə bağlı bir sıra məsələlərlə yanaşı, respublikamızın iqtisadi sistemində əldə edilən yüksək inkişaf göstəricilərindən də ətraflı danışıb.

Dövlətimizin başçısı hazırda Azərbaycanın qarşısında duran başlıca məsələlərdən biri ixracın şaxələndirilməsi olduğunu və bu istiqamətdə mühüm göstəricilər əldə edildiyini diqqətə çatdırıb: “İqtisadiyyatın şaxələndirilməsinə gəlincə, bu məsələ uğurla həll olunur. Azərbaycan iqtisadiyyatının böyük hissəsi artıq qeyri-xammal sektorunda formalaşır. İxracata gəlincə, qeyri-xammal sektorunun ixracını artırmaqdan ötrü biz hələ fəal işləməliyik”.

*(ardı 7-ci səhifədə)*

## Moskva görüşü – Kremlin canfəşanlığı, Bakının qətiyyəti, İrəvanın təxribatı

Səhifə ⇨ 6



## Müsəlman Şərqinin ilk Cümhuriyyəti

Səhifə ⇨ 12



**Müsəlman Şərqinin ilk demokratik respublikası olan Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasından 105 il keçir. Xalqımız müstəqillik gününü qalib olaraq qeyd edir. Uzun illər təcavüzkar Ermənistanın işğalı altında qalan torpaqlar müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında azad edilib. Qürur mənbəyi olan üçrəngli müqəddəs dövlət bayrağımız Şuşada və işğaldan azad edilmiş digər ərazilərdə dalğalanır. Zülmətdən işıqlığa çıxmış torpaqlara Azərbaycan mədəniyyəti qayıdır.**

*(ardı 12-ci səhifədə)*



## Azərbaycan – Gürcüstan: müstəqilliyin əkiz qardaşları

**Zaman sübut edir ki, biz Heydər Əliyev siyasi kursunu davam etdirməklə həm ölkəmizin, həm də regionun hərtərəfli inkişafına özünəməxsus töhfələr veririk. Bu baxımdan, ulu öndərin yaxın qonşularımızla əməkdaşlıq və tərəfdaşlıq münasibətlərini qoruyub saxlamaq və inkişaf etdirmək barədə tövsiyələrinin həyata keçirilməsi də xüsusi önəm kəsb edir. Rəsmi Bakının bu istiqamətdə daha səmərəli tərəfdaşlıq etdiyi ölkələrdən biri də Gürcüstandır.**

Səhifə ⇨ 10

## Uğurlar sosial-iqtisadi inkişafı daha da sürətləndirir



Səhifə ⇨ 9

## Minatəmizləmə təcrübəmiz digər ölkələr üçün nümunədir




**Ağdamda mayın 25-də başlanan “Mina təhlükəsi ilə mübarizə–dayanıqlı inkişafa gedən yol” mövzusunda 2-ci beynəlxalq humanitar minatəmizləmə konfransı Bakıda başa çatıb.**

Tədbirdə əvvəlcə Azərbaycanın Dövlət Himni səsləndirilib, ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə əlaqədar “Azərbaycana həsr edilmiş bir ömür” adlı film nümayiş etdirilib.

*(ardı 5-ci səhifədə)*

## Moskva görüşünün əks-sədası

**Mayın 25-də Moskvada Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya Prezidenti Vladimir Putin və Ermənistan baş naziri Nikol Paşinyanın üçtərəfli Zirvə görüşünə Hayastandan müxtəlif reaksiyalar verilib. Haylar bu görüşün onlar üçün uğursuz keçdiyini bildiriblər.**

Görüşə ilk münasibət bildirənlərdən biri Demokratik Alternativ Partiyasının sədri Suren Surenyants olub. O, “Facebook” sosial şəbəkəsindəki hesabında yazıb: “Təəssüratım kədərlidir. İlham Əliyev Nikol Paşinyandan “Qarabağ Azərbaycandır” ifadəsini deməyi tələb edib. Paşinyan isə Azərbaycanın 86,6 min kvadratkilometrlik ərazi bütövlüyünün tanınmasından danışmaq üçün Moskvaya tələsib. Azərbaycan lideri iki ölkənin sərhədinin şərti olduğunu deyir. Paşinyan “kadastr şəhadətnaməsi” tipli axmaq bəyanatla onun sözlərini tamamlayır. Paşinyan bu bəyanatı ilə faktiki olaraq Ermənistan ərazilərinin Azərbaycan tərəfindən tutulmasını qanuniləşdirir. Və nəhayət, əgər Paşinyan deyirsə ki, Ermənistanın “kadastr şəhadətnaməsi” yoxdur, o zaman KTMT-dən Ermənistan ərazisinə təcavüzü (?) pisləməyi necə tələb edir?”.

**(ardı 7-ci səhifədə)**

## Küllənmiş ocağı körükləyənlər



Səhifə ⇨ 6

## Taksi xidmətində narahatlıqlar

Səhifə ⇨ 14



# Gürcüstanın Prezidenti Zati-aliləri xanım Salome Zurabişviliyə

**– Hörmətli xanım Prezident!**

26 May – Müstəqillik Günü münasibətilə Sizi və dost Gürcüstan xalqını öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir, ən xoş arzularımı yetirirəm.

Əsrlər boyu dostluq, mehriban qonşuluq və harmoniya şəraitində yaşayan xalqlarımızın iradəsindən qaynaqlanan Azərbaycan və Gürcüstan arasındakı münasibətlərin bugünkü səviyyəsi məmnunluq doğurur. Qarşılıqlı dəstək və etimad, sıx əməkdaşlıq, birgə həyata keçirdiyimiz irimiqyaslı regional layihələr strateji tərəfdaşlığımızı və müttəfiqliyimizi şərtləndirən başlıca amillərdəndir.

Bu gün ölkələrimizin rifahına və regionumuzun çiçəklənməsinə xidmət edəcək qarşılıqlı faydalı əməkdaşlığımızın inkişafı və yeni məzmunla zənginləşməsi, tərəfdaşlığımızın daha yüksək səviyyəyə qaldırılması üçün yaxşı imkanlar vardır.

Əminəm ki, xalqlarımızın mənafelərinə uyğun olaraq birgə səylərimizlə Azərbaycan-Gürcüstan ənənəvi dostluq münasibətlərinin möhkəmlənməsinə, həm ikitərəfli, həm də çoxtərəfli əsasda səmərəli qarşılıqlı fəaliyyətimizin bundan sonra da genişlənməsinə nail olacağıq.

Belə bir əlamətdar bayramda Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Gürcüstan xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 23 may 2023-cü il**

# Gürcüstanın Baş naziri Zati-aliləri cənab İrakli Qaribaşviliyə

**Hörmətli cənab Baş nazir!**

Gürcüstanın milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

105 il bundan əvvəl təxminən eyni vaxtda müstəqilliklərini elan etmiş Azərbaycan ilə Gürcüstan arasında əlaqələr tarixən dostluq və mehriban qonşuluq şəraitində yaşamış xalqlarımızın iradəsindən güc alır. Belə möhkəm təməllər üzərində qurulmuş dövlətlərarası münasibətlərimizin bu gün dinamik və hərtərəfli inkişaf edərək hazırkı yüksək səviyyəyə çatması bizi sevindirir.

Gürcüstan bizim üçün vacib tərəfdaş, müttəfiq və dost ölkədir. Biz qarşılıqlı etimad və dəstəyə əsaslanan münasibətlərimizin bütün sahələrdə möhkəmlənməsinə və daha da dərinləşməsinə xüsusi əhəmiyyət veririk.

Əminəm ki, müvəffəqiyyətlə həyata keçirdiyimiz irimiqyaslı enerji, nəqliyyat layihələri, gündən-günə yeni məzmunla zənginləşən əməkdaşlığımız bundan sonra da xalqlarımızın rifahına, ölkələrimizin çiçəklənməsinə, regionumuzun təhlükəsizliyinə və tərəqqisinə mühüm töhfə verəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Gürcüstan xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 23 may 2023-cü il**

# "Mina təhlükəsi ilə mübarizə – dayanıqlı inkişafa gedən yol" mövzusunda beynəlxalq konfransın iştirakçılarına

**Hörmətli konfrans iştirakçıları!**

Sizi "Mina təhlükəsi ilə mübarizə – dayanıqlı inkişafa gedən yol" mövzusunda keçirilən beynəlxalq konfransın açılışı münasibətilə səmimi-qəlbdən salamlayıram.

Bugünkü konfransın mövzusu Azərbaycan üçün və ümumiyyətlə bütün bəşəriyyət üçün xüsusi aktuallıq kəsb edir. Ermənistanın məqsədyönlü siyasəti nəticəsində Azərbaycan dünyada minalar və partlamamış hərbi sursatlar ilə ən çox çirklənmiş ölkələr sırasında yer almışdır.

2020-ci ildə Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalına son qoymuşdur. 44 günlük Vətən müharibəsində ölkəmiz tarixi Zəfər qazanmışdır. Ermənistanın otuzillik təcavüzü və işğalı nəticəsində 1 milyondan çox azərbaycanlı öz doğma torpaqlarından qovulmuş, etnik təmizləməyə məruz qalmış, kəndlərimiz, şəhərlərimiz yerlə-yeksan edilmiş, xalqımızın tarixi-mədəni, dini irsi məqsədyönlü şəkildə məhv edilmişdir.

Ermənistan bununla kifayətlənməyib işğal dövründə torpaqlarımıza ilkin qiymətləndirmələrə görə 1,5 milyondan artıq mina basdırmışdır. İkinci Qarabağ müharibəsi başa çatandan bu günə qədər 302 nəfər vətəndaşımız mina qurbanı olmuş, onlardan 57-si həlak olmuş, 245-i isə ağır yaralanmışdır. Ümumilikdə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün başladığı dövrdən indiyədək 3400-ə yaxın vətəndaşımız minalardan zərər çəkmiş, onlardan 587-si həyatını itirmişdir. Mina qurbanlarının 358-ni uşaq, 38-ni isə qadınlar təşkil edir. Həmçinin Ermənistan keçmiş təmas xəttinin arxasında yerləşən yollara, qəbiristanlıqlara, mülki təyinatlı digər obyektlərə tələ xarakterli minalar yerləşdirmişdir ki, bu da mina qurbanlarının gündən-günə artmasına səbəb olur. Azərbaycanın üzləşdiyi mina təhlükəsi kütləvi qırğın silahlarının doğurduğu dəhşət ilə müqayisə oluna bilər.

Öz yurd-yuvalarından didərgin düşmüş soydaşlarımızın tezliklə könüllü, təhlükəsiz və ləyaqətli şəkildə doğma torpaqlarına qayıtması üçün işğaldan azad olunmuş ərazilərimizdə dərhal genişmiqyaslı quruculuq işlərinə start verilmişdir. Hazırda işğal dövründə dağıdılmış bütün infrastruktur yenidən bərpa olunur, "yaşıl enerji" zonası elan edilmiş Qarabağ və Şərqi Zəngəzurda yeni şəhərlər və kəndlər inşa edilir. Gördüyümüz bəzi işlərin nəticələri artıq göz qabağındadır və siz Azərbaycanda səfərdə olarkən bunların şahidi olmusunuz.

Əfsuslar olsun ki, münaqişə bitdikdən sonra belə Ermənistan Laçın yolundan istifadə edərək Azərbaycan ərazilərinə minalar döşəməyə davam etmişdir. Ərazilərimizdə 2021-ci il Ermənistan istehsalı olan 2700-dən çox piyada əleyhinə mina aşkar edilmişdir.

Torpaqlarımızın kütləvi şəkildə minalarla çirklənməsi hazırda burada apardığımız bərpa və yenidənqurma işlərini ləngitməklə yanaşı, insanların həyat və sağlamlığına ciddi təhdid yaradır, uzun illər doğma torpaqlarına dönmək arzusu ilə yaşayan yüz minlərlə məcburi köçkünün hüquqlarının reallaşdırılmasına əngəl törədir.

Humanitar minatəmizləmə Azərbaycan dövlət siyasətinin əsas prioritetlərindən biridir. Bu siyasətin əsası 100 illik yubileyini qeyd etdiyimiz Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü ilə qoyulmuşdur. Ulu Öndərin strateji baxışı, uzaqgörənliyi və müdrik siyasəti nəticəsində 25 il əvvəl Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik – ANAMA yaradılmışdır. ANAMA hazırda ölkəmizdə humanitar minatəmizləmə fəaliyyətini həyata keçirən əsas qurumdur.

Üzləşdiyimiz mina probleminin nə qədər böyük və mürəkkəb, qarşımızdakı yolun isə hələ uzun olmasına baxmayaraq, ölkəmiz mümkün ən qısa müddətdə bunun öhdəsindən gəlmək üçün bütün gücünü səfərbər etmişdir. Bu gün Azərbaycanda minatəmizləmə fəaliyyəti dünyada mövcud olan ən müasir və qabaqcıl texnologiyalardan istifadə etməklə həyata keçirilir. Milli minatəmizləmə potensialımızın gücləndirilməsi istiqamətində davamlı olaraq iş aparılır və son iki il ərzində bu sahədəki imkanlarımız ciddi şəkildə artmışdır.

Qeyd etmək istərdim ki, minatəmizləmə fəaliyyətimizin 90 faizindən çoxu ölkəmizin daxili resursları hesabına aparılır. Biz, eyni zamanda, bir sıra xarici tərəfdaşlarımızla bu sahədə səmərəli əməkdaşlıq edir və bizə dəstək göstərən ölkələrə və beynəlxalq təşkilatlara buna görə minnətdarıq. Təəssüflər olsun ki, ümumi mənzərəyə baxanda xaricdən gələn dəstəyin həcmi hələ ki, çox məhduddur.

Minalardan təmizlənmiş torpaqların gələcəkdə xalqımızın rifahına və tərəqqisinə mühüm töhfə verəcəyini və bunun geniş perspektivdə ölkəmizin ümumi inkişafı baxımından əhəmiyyətini nəzərə alaraq Azərbaycan minatəmizləmə fəaliyyətini dayanıqlı və davamlı inkişaf ilə birbaşa əlaqə kontekstində görür. Məhz buna görə Azərbaycanda humanitar minatəmizləmə 18-ci Milli Dayanıqlı İnkişaf Məqsədi olaraq rəsmən elan edilir.

Azərbaycan özünün minatəmizləmə probleminin həlli ilə yanaşı, qlobal səviyyədə də humanitar minatəmizləmə prosesinə töhfə verir. Dünyada münaqişələrin və mina fəsadlarının artmasını nəzərə alaraq biz humanitar minatəmizləmənin BMT-nin qlobal 18-ci DİM-i kimi təsis edilməsi təşəbbüsü ilə çıxış etmişik. Hazırda sədrlik etdiyimiz Qoşulmama Hərəkatında da Minaların Təsirinə Məruz Qalmış Ölkələrin Həmfikirlər Qrupunun yaradılması ideyası üzərində iş gedir.

Bugünkü konfrans mina problemi ilə bağlı qlobal gündəlikdə dayanan çağırışlar və imkanların müzakirəsi, bu sahədə qabaqcıl təcrübə mübadiləsi üçün əlverişli fürsətdir. İnanıram ki, konfrans çərçivəsində aparılacaq müzakirələr minatəmizləmə sahəsində birgə səylərin səfərbər olunmasına, bəşəriyyətin rifahı və gələcək nəsillərə "minalardan təmizlənmiş dünya" miras qoymaq məqsədilə yeni ideya və təşəbbüslərin irəli sürülməsinə töhfə verəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, konfransın işinə uğurlar diləyirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 26 may 2023-cü il**

# "Şərqi Zəngəzur İqtisadi Rayonunda 2 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** "Şərqi Zəngəzur İqtisadi Rayonunda 2 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxs yaradılsın.

**2.** "Şərqi Zəngəzur İqtisadi Rayonunda 2 saylı Bərpa, Tikinti və İdarəetmə Xidmətinin Nizamnaməsi" təsdiq edilsin (əlavə olunur).

**3.** Müəyyən edilsin ki:

3.1. Şərqi Zəngəzur İqtisadi Rayonunda 2 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti (bundan sonra – Xidmət) Laçın və Kəlbəcər rayonlarına əhalinin qayıdışı ilə əlaqədar çoxmənzilli binaların və fərdi yaşayış evlərinin tikintisinin təşkili, bu qaydada tikilmiş çoxmənzilli binaların idarə edilməsi, habelə müvafiq ərazidə abadlaşdırma, yaşıllaşdırma və mənzil-kommunal təsərrüfatı sahələrində fəaliyyət göstərən publik hüquqi şəxsdir;

3.2. Xidmətin fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirmək üçün sədr də daxil olmaqla 5 (beş) üzvdən ibarət Müşahidə Şurası yaradılır;

3.3. Xidmətin fəaliyyətinə cari rəhbərliyi Xidmətin Müşahidə Şurasının vəzifəyə təyin və vəzifədən azad etdiyi İcraçı direktor həyata keçirir;

3.4. Xidmətin nizamnamə fondu 500 000 (beş yüz min) manatdır və dövlət büdcəsinin vəsaiti hesabına formalaşır;

3.5. Xidmətin saxlanılma xərcləri və fəaliyyəti dövlət büdcəsi və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşir.

**4.** Xidmətin təsisçisinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

4.1. Azərbaycan Respublikasının Prezidentinə:

4.1.1. nizamnamənin təsdiqi və nizamnamə fondunun miqdarının müəyyən edilməsi, onların dəyişdirilməsi;

4.1.2. idarəetmə orqanlarının yaradılması;

4.1.3. Müşahidə Şurası sədrinin və digər üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi;

4.1.4. Xidmətin yenidən təşkili və ləğvi;

4.1.5. "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 3.3-cü maddəsində nəzərdə tutulmuş qərarın qəbul edilməsi;

4.2. Xidmətə:

4.2.1. Xidmətin strukturunun, əməyin ödənişi fondunun, işçilərinin say həddinin və onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğinin Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiqi;

4.2.2. bu Fərmanın 4.1-ci bəndində qeyd edilənlər istisna olunmaqla, "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

**5.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

5.1. Xidmət "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alındığı gündən bir ay müddətində Xidmətin nəqliyyat vasitələri ilə təmin olunması və maddi-texniki təminatı məsələlərinin həlli üçün zəruri tədbirlər görüb Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

5.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**6.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

6.1. bu Fərmanın 3.4-cü bəndində nəzərdə tutulan maliyyələşməni təmin etsin;

6.2. Xidmətin saxlanılması və fəaliyyəti üçün tələb olunan vəsaiti hər il dövlət büdcəsinin layihəsində nəzərdə tutsun.

**7.** Xidmət:

7.1. Xidmətin dövlət qeydiyyatına alınması üçün bu Fərman qüvvəyə mindiyi tarixdən 3 (üç) gün müddətində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə müraciət etsin;

7.2. Xidmət dövlət qeydiyyatına alındıqdan sonra Xidmətin strukturunu, əməyin ödənişi fondunu, işçilərinin say həddini və onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla bir ay müddətində təsdiq etsin;

7.3. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 26 may 2023-cü il**

# "Şərqi Zəngəzur İqtisadi Rayonunda 2 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Şərqi Zəngəzur İqtisadi Rayonunda 2 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin Müşahidə Şurasının aşağıdakı tərkibi təsdiq edilsin:

**Müşahidə Şurasının sədri**

Məsim Məmmədov – Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi

**Müşahidə Şurasının üzvləri**

Elnur Əliyev – Azərbaycan Respublikası iqtisadiyyat nazirinin birinci müavini

Sarvan Cəfərov – Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini

Namiq Hümmətov – Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin birinci müavini

Azadə Hüseynova – Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi sədrinin müavini.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 26 may 2023-cü il**

# "Azərbaycan Respublikası Dövlət Mülki Aviasiya Administrasiyasının tabeliyində "Mülki Aviasiyada Uçuşların Təhlükəsizliyi üzrə Dövlət Müfəttişliyi" publik hüquqi şəxsin yaradılması ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 2 fevral tarixli 1223 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikası Dövlət Mülki Aviasiya Administrasiyasının tabeliyində "Mülki Aviasiyada Uçuşların Təhlükəsizliyi üzrə Dövlət Müfəttişliyi" publik hüquqi şəxsin yaradılması ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 2 fevral tarixli 1223 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 167) aşağıdakı dəyişikliklər edilsin:

**1.** Adında "Dövlət Mülki Aviasiya Administrasiyasının" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyinin" sözləri ilə əvəz edilsin.

**2.** 2.1-ci bənddə "Dövlət Mülki Aviasiya Administrasiyası" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyi" sözləri ilə əvəz edilsin.

**3.** 5-ci hissədə "Dövlət Mülki Aviasiya Administrasiyası" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 26 may 2023-cü il**

# Zəngilan rayonunda Horadiz–Zəngilan avtomobil yolunun əsaslı təmiri ilə bağlı tədbirlər haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunun ərazisində 61 km uzunluğunda mövcud Horadiz–Zəngilan avtomobil yolunun əsaslı təmiri işlərinin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə 31,4 milyon (otuz bir milyon dörd yüz min) manat ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 26 may 2023-cü il**

# Beynəlxalq Astronavtika Konqresinə xarici ölkələrdən 5000-dən çox iştirakçı qatılacaq



**Bu il oktyabrın 2-dən 6-na kimi ölkəmiz Beynəlxalq Astronavtika Konqresinə ev sahibliyi edəcək. Bu da təkcə qlobal kosmik komitə üçün deyil, həm də Milli Konqreslə bağlı məsələləri müzakirə etmək üçün əhəmiyyətlidir.**

AZƏRTAC xəbər verir ki, bunu 74-cü Beynəlxalq Astronavtika Konqresinə dair məlumatlandırma tədbirində çıxış zamanı Azərbaycan Respublikası xarici işlər nazirinin müavini Elnur Məmmədov deyib.

Azərbaycanın 50 ildən sonra ikinci dəfə bu tədbirə ev sahibliyi etmək üçün seçildiyini vurğulayan Elnur Məmmədov bildirib ki, bu il tədbirə xarici ölkələrdən 5000-dən çox iştirakçının qatılacağı gözlənilir.

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Hörmətli cənab Prezident!**

Sizə və Sizin simanızda dost Azərbaycan xalqına ölkənizin Müstəqillik Günü münasibətilə səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan şərəf duyuram.

Ötən ilin sentyabrında Səmərqənd şəhərində bizim görüşümüz əsnasında əldə olunmuş razılaşmaların səmərəli həyata keçirilməsini və ölkələrimiz arasında bütün sahələrdə dinamik inkişaf tempinin müşahidə olunmasını görmək məni sevindirir.

Cənab Prezident, Siz Çin-Azərbaycan münasibətlərinin strateji dəyərini dəfələrlə vurğulamısınız, ölkələrimiz arasında qarşılıqlı faydalı əməkdaşlığın möhkəmlənməsinə dair niyyətinizi fəal şəkildə ifadə etmisiniz. Mən bunu yüksək qiymətləndirirəm. İkitərəfli dostluq münasibətlərinin və əməkdaşlığın inkişafının sağlam və sabit məcraya istiqamətləndirilməsi üçün Sizinlə birgə səylər göstərməyə hazıram.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Azərbaycana tərəqqi, güc, qüdrət, onun xalqına isə xoşbəxtlik və firavanlıq arzulayıram.

**Hörmətlə,**

***Si CİNPİN,***
***Çin Xalq Respublikasının Sədri***

***

**Cənab Prezident!**

Milli bayramınız – Müstəqillik Günü münasibətilə Sizə və dost Azərbaycan xalqına İtaliya Respublikasının adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi çatdırmaq istərdim.

Rusiya-Ukrayna müharibəsi ilə xarakterizə olunan həssas bir dövrdə çoxsaylı görüşlərimiz zamanı da təsdiq etdiyimiz kimi, Bakı və Romanı birləşdirən möhkəm əlaqələrin davamlı olaraq güclənməsini qeyd etmək mənim üçün xüsusi məmnunluq mənbəyidir.

Xalqlarımızı birləşdirən həqiqi dostluğa əsaslanaraq, əminliklə bildirirəm ki, biz qarşılıqlı maraq doğuran bütün sahələrdə çoxölçülü strateji tərəfdaşlığımızı dərinləşdirmək üçün bundan sonra da bütün imkanlardan istifadə edə biləcəyik.

Bu kontekstdə İtaliya Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin daha da inkişafına güclü dəstəyini davam etdirəcəkdir.

Cənab Prezident, Sizə səmimi dostluq ruhunda şəxsi rifah, dost Azərbaycan xalqına firavan gələcək arzularımı çatdırıram.

**Hörmətlə,**

***Sercio MATTARELLA,***
***İtaliya Respublikasının Prezidenti***

***

**Zati-aliləri!**

Azərbaycanın Müstəqillik Günü münasibətilə Sizə böyük məmnunluqla ən xoş arzularımı çatdırıram.

Son otuz ildə ölkələrimiz arasında qardaşlıq əlaqələri xüsusilə iqtisadiyyat və ticarət, mədəniyyət, təhsil, eləcə də müdafiə sahələrində dərinləşən çoxsahəli əməkdaşlığımız əsasında möhkəmlənmişdir. Pakistan sınaqlar zamanı qürurla Azərbaycanın yanında olmuşdur. Pakistan Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə öz dəstəyini göstərməkdə davam edəcəkdir.

Mən, həmçinin uzaqgörənliyi və müdrik rəhbərliyi ilə Azərbaycanı uğur və tərəqqi yoluna çıxarmış Ümummilli Liderin xatirəsinə dərin ehtiram bəsləyən, "Heydər Əliyev İli"ndə onun 100 illik yubileyini qeyd edən Azərbaycan xalqını təbrik edirəm.

Əminəm ki, xalqlarımızın rifahı naminə ikitərəfli əməkdaşlığımızı daha da genişləndirmək üçün Sizinlə işləməkdə davam edəcəyik.

Sizə möhkəm cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan xalqına davamlı tərəqqi və firavanlıq arzulayıram.

Zati-aliləri, xahiş edirəm, dərin ehtiramımı və xoş arzularımı qəbul edin.

**Hörmətlə,**

***Arif ALVİ,***
***Pakistan İslam Respublikasının Prezidenti***

***

**Zati-aliləri!**

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə İordaniya Haşimilər Krallığının hökuməti və xalqı adından Sizə və böyük Azərbaycan xalqına səmimi təbriklərimizi çatdırıram.

Bu fürsətdən istifadə edərək, Zati-alinizə cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan xalqına isə davamlı inkişaf və rifah arzulayıram.

**Hörmətlə,**

***II Abdullah ibn Al HÜSEYN,***
***İordaniyanın Kralı***

***

**Hörmətli cənab Prezident!**

İcazə verin, ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və Azərbaycan vətəndaşlarını təbrik edim.

Azərbaycan Respublikası ilə əlaqələr Macarıstan üçün xüsusi əhəmiyyət kəsb edir.

Cənab Prezident, şadam ki, Sizin bu ilin yanvar ayında ölkəmizə səfəriniz zamanı biz əlaqələrimizi genişləndirilmiş strateji tərəfdaşlıq səviyyəsinə yüksəltmişik.

Sizi əmin edə bilərəm ki, Macarıstan ölkələrimiz arasında əməkdaşlığın daha dinamik inkişafına sadiq qalır. Sentyabrda keçiriləcək beşinci Budapeşt Demoqrafik Zirvə toplantısına dəvətimə verdiyiniz cavaba və Azərbaycanın görüşdə yüksək səviyyədə təmsil olunacağını təsdiqlədiyinizə görə Sizə minnətdarlığımı bildirmək istəyirəm.

Cənab Prezident, Sizə möhkəm cansağlığı və məsul vəzifənizdə yeni-yeni müvəffəqiyyətlər arzulayıram.

**Hörmətlə,**

***Katalin NOVAK,***
***Macarıstanın Prezidenti***

***

**Zati-aliləri!**

Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və həmvətənlərinizə İsveçrə Federal Şurası və İsveçrə vətəndaşları adından təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Mən bu fürsətdən istifadə edərək, vətəndaşlarınıza və ölkənizə xoşbəxtlik və əmin-amanlıq dolu gələcək arzulayıram.

Əminəm ki, biz gələcək illərdə ikitərəfli əlaqələrimizi daha da genişləndirə biləcəyik.

Zati-aliləri, xahiş edirəm, ən yüksək ehtiramımı qəbul edin.

**Hörmətlə,**

***Alen BERSE,***
***İsveçrə Konfederasiyasının Prezidenti***

**Cənab Prezident!**

Azərbaycanın milli bayramı – Müstəqillik Günü münasibətilə Zati-alinizə səmimi təbriklərimi çatdırıram.

Sizə möhkəm cansağlığı, Azərbaycan xalqına isə tərəqqi və firavanlıq arzulayıram.

**Hörmətlə,**

***Marselo Rebelo de SOUZA,***
***Portuqaliya Respublikasının Prezidenti***

***

**Zati-aliləri!**

Ukrayna xalqı adından və şəxsən öz adımdan Azərbaycanın milli bayramı - Müstəqillik Günü münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Ölkələrimiz arasında münasibətlər dərin tarixi köklərə malikdir və qarşılıqlı etimada, hörmətə, səmərəli əməkdaşlığa əsaslanır. Əminəm ki, biz Kiyev və Bakı arasında qarşılıqlı maraq doğuran bütün sahələrdə strateji tərəfdaşlığın mövcud potensialını birgə səylərlə maksimum dərəcədə həyata keçirə bilərik.

Bu il 100 illiyi qeyd olunan Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev demişdir ki, müstəqillik yolu qədər çətin yol yoxdur. Eyni zamanda, bütün çətinliklərə baxmayaraq, ölkələrimiz bu yolda inamla irəliləyir. Dövlətimiz və bütün sivil dünya üçün bu çətin zamanda, Rusiyanın Ukraynaya qarşı davam edən müharibəsi dönəmində Azərbaycanın ölkəmizin beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyü və suverenliyinin dəstəklənməsinə dair ardıcıl mövqeyinə görə minnətdarlığımı bildirmək istərdim. Azərbaycan Respublikasının ərazi bütövlüyünün və suverenliyinin dəstəklənməsi üzrə Ukraynanın dəyişməz mövqeyini də bir daha təsdiq edirəm.

Bu fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı, güclü və firavan Azərbaycanın inkişafı yolunda yeni nailiyyətlər, Azərbaycan xalqına isə sülh, əmin-amanlıq və rifah arzulayıram.

**Hörmətlə,**

***Volodimir ZELENSKİ,***
***Ukraynanın Prezidenti***

***

**Zati-aliləri!**

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə yunan xalqı adından və şəxsən öz adımdan səmimi təbriklərimi çatdırır, Azərbaycan xalqına firavanlıq və tərəqqi arzulayıram.

Fürsətdən istifadə edərək, ölkələrimiz arasında münasibətlərin həm ikitərəfli, həm də beynəlxalq təşkilatlar çərçivəsində daha da möhkəmlənəcəyinə inandığımı bildirirəm. Ümidvaram ki, Yunanıstan ilə Azərbaycan arasında enerji sahəsində uğurlu əməkdaşlıq geniş regionumuzun inkişafına və sabitliyinə töhfə verərək, qarşılıqlı maraq doğuran digər sahələri də əhatə edəcəkdir.

Zati-aliləri, ölkənizin milli bayramı münasibətilə ən xoş arzularımı çatdırır və ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Katerina SAKELLAROPULU,***
***Yunanıstan Respublikasının Prezidenti***

***

**Zati-aliləri!**

Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi Moldova Respublikasının vətəndaşları adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Fürsətdən istifadə edərək, Azərbaycan Respublikasının dövlətçiliyin möhkəmləndirilməsi, ölkənin dinamik inkişafı və fəal xarici siyasət yürüdülməsi yolunda qazandığı mühüm nailiyyətləri qeyd etmək istəyirəm.

Mən Moldova Respublikası ilə Azərbaycan Respublikası arasında dostluğa, anlaşmaya və qarşılıqlı hörmətə əsaslanan yaxşı münasibətləri yüksək qiymətləndirirəm. Eyni zamanda, Moldova-Azərbaycan münasibətlərinin mövcud potensialından ölkələrimizin ümumi mənafeyi naminə tam istifadəsinə töhfə vermək məqsədi daşıyan siyasi dialoqun konstruktiv xarakterini qeyd etmək istərdim.

Qəti əminəm ki, biz qarşılıqlı maraq doğuran müxtəlif sahələrdə ikitərəfli əməkdaşlığı birgə səylərlə intensivləşdirə və şaxələndirə biləcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, Azərbaycan xalqına sülh, firavanlıq və əmin-amanlıq arzulayıram.

Zati-aliləri, "Avropa siyasi birliyi"nin ikinci Zirvə toplantısında iştirak üçün Moldova Respublikasına səfəriniz ərəfəsində ən yüksək ehtiramımı qəbul edin.

**Hörmətlə,**

***Maya SANDU,***
***Moldova Respublikasının Prezidenti***

***

**Zati-aliləri!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə Bosniya və Herseqovinanın Rəyasət Heyəti adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi, ölkənizin daha da inkişafı naminə ən xoş arzularımı çatdırmaq istərdim.

Fürsətdən istifadə edərək, Bosniya və Herseqovina ilə Azərbaycan Respublikası arasında dostluq münasibətlərinin ölkələrimizin rifahı naminə bundan sonra da inkişaf edəcəyinə qəti inamımı bildirirəm.

Zati-aliləri, Sizə dərin ehtiramımı çatdırıram.

**Hörmətlə,**

***Jelka TSVİYANOVİÇ,***
***Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri***

***

**Hörmətli cənab Prezident!**

İcazə verin, Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə səmimi təbriklərimi çatdırım. Macarıstan ilə Azərbaycan Respublikası arasındakı əməkdaşlıq nümunəvi xarakter daşıyır, həmçinin iqtisadi və siyasi əlaqələrimizin fasiləsiz inkişafı ilə dəstəklənir.

Mən şadam ki, bu ilin yanvarında biz ölkələrimiz arasında əlaqələri genişlənmiş strateji tərəfdaşlıq səviyyəsinə qaldırdıq.

Sizi əmin edə bilərəm ki, Macarıstan hökuməti Azərbaycan Respublikası ilə həm ikitərəfli, həm də Türk dövlətlərinin əməkdaşlığı çərçivəsində çoxşaxəli əsasda əlaqələrin daha da inkişafı üçün səy göstərməyə sadiqdir. Əminəm ki, məhsuldar əməkdaşlığımız hər iki ölkənin vətəndaşlarının rifahına xidmət edəcək.

Sizə möhkəm cansağlığı və məsul vəzifənizdə yeni uğurlar arzu edirəm.

**Hörmətlə,**

***Viktor ORBAN,***
***Macarıstanın Baş naziri***

***

**Zati-aliləri!**

Ölkənizin Müstəqillik Günü münasibətilə Sizə və dost Azərbaycan xalqına ən səmimi salamlarımı və təbriklərimi çatdırmaqdan böyük məmnunluq duyuram.

Əminəm ki, ölkələrimiz arasında mövcud dostluq əlaqələri gələcəkdə daha da möhkəmlənəcəkdir.

Bu əlamətdar gün münasibətilə Sizə möhkəm cansağlığı, uzun ömür və xoşbəxtlik, dost Azərbaycan Respublikasının xalqına isə davamlı sülh, tərəqqi və firavanlıq arzulayıram.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Məhəmməd ŞAHABUDDİN,***
***Banqladeş Xalq Respublikasının Prezidenti***

***

**Zati-aliləri!**

Azərbaycanın müstəqilliyinin 105-ci ildönümü münasibətilə Kraliça ilə birlikdə Sizə ən səmimi təbriklərimizi və xoş arzularımızı çatdırırıq.

Səmimi-qəlbdən ümid edirik ki, Malayziya ilə Azərbaycan arasında mövcud olan çoxillik əlaqələr qarşıdakı illərdə dövlətlərimizin rifahı naminə daha da möhkəmlənəcəkdir.

Uca Allahdan Zati-alinizə cansağlığı, Azərbaycan Respublikasına və onun xalqına isə davamlı sülh, tərəqqi və firavanlıq diləyirəm.

**Hörmətlə,**

***Əlahəzrət əl-Sultan Abdullah Riayatuddin əl-Mustafa Billah Şah ibni əl-Mərhum Sultan Hacı Əhməd Şah əl-Mustain BİLLAH,***
***Malayziyanın Kralı***

***

**Zati-aliləri Prezident İlham Əliyev!**

Azərbaycan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Bəhreyn Krallığının xalqı adından və şəxsən öz adımdan Sizə səmimi təbriklərimizi və ən xoş arzularımızı çatdırmaqdan məmnunluq duyuram.

Ulu Tanrıdan Zati-alinizə möhkəm cansağlığı, xoşbəxtlik, Azərbaycan xalqına isə tərəqqi və rifah nəsib etməsini diləyirik.

Zati-alinizə ən yüksək ehtiramımı çatdırıram.

**Hörmətlə,**

***Həməd bin İsa Al XƏLİFƏ,***
***Bəhreynin Kralı***

***

**Zati-aliləri!**

Ölkənizin Müstəqillik Günü münasibətilə Sizə və dost Azərbaycan xalqına San-Marino xalqı adından və şəxsən öz adımızdan səmimi təbriklərimizi çatdırmaq istərdik.

Zati-alilərı, bu əlamətdar bayram münasibətilə Sizin şəxsi uğurlarınız və bütün Azərbaycan xalqının firavan gələcəyi ilə bağlı ən xoş arzularımızı bildirir, yüksək ehtiramımızı qəbul etməyinizi xahiş edirik.

**Dərin hörmətlə,**

***Alessandro Skarano və Adele TONNİNİ,***
***San-Marino Respublikasının Kapitan-Regentləri***

***

**Hörmətli İlham Heydər oğlu!**

Azərbaycan Respublikasının dövlət bayramı – Müstəqillik Günü münasibətilə səmimi təbriklərimi qəbul edin.

Bu gün hamı üçün aydındır ki, Sizin ölkəniz qarşıya yeni inkişaf zirvələrini fəth etmək məqsədini qoyaraq, xalqın rifahının yüksəldilməsində və dövlətin təhlükəsizliyinin möhkəmlənməsində sanballı nəticələr əldə edib.

Bildiyiniz kimi, mən həmişə Sizin dost xalqlarımız arasında müstəsna münasibətlərin gələcək inkişafına böyük töhfənizi yüksək qiymətləndirirəm. Əminəm ki, aramızda yaranmış dostluq və hörmət gələcəkdə də davam edəcəkdir.

Hörmətli İlham Heydər oğlu, fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı, məsuliyyətli işinizdə uğurlar, qardaş Azərbaycan xalqına isə sülh və rifah diləyirəm.

**Səmimi arzularla,**

***Nursultan NAZARBAYEV,***
***Qazaxıstan Respublikasının birinci Prezidenti***

***

**Hörmətli İlham Heydər oğlu!**

Sizi və qardaş Azərbaycan xalqını qarşıdan gələn milli bayram – Müstəqillik Günü münasibətilə təbrik edirəm.

Ölkəniz ildən-ilə dövlətçiliyin möhkəmlənməsi və cəmiyyətdə sabitliyin təmin olunması yolunda inamla irəliləyir, iqtisadi potensialını gücləndirir, əsrlər boyu xalqlarımızı birləşdirən həqiqi dostluq, yaxın və mehriban qonşuluq, həmçinin qarşılıqlı etimad üzrə çoxəsrlik ənənələri artırır.

Sizin müdrik rəhbərliyinizlə həyata keçirilən ardıcıl dəyişikliklər və struktur islahatları respublikanın sakinlərinin rifahının təmin olunmasında yüksək nailiyyətlərin əldə edilməsinin etibarlı bünövrəsidir.

Dağıstanlılar adından və şəxsən öz adımdan Dağıstanın Xalq şairi, bütün dünyada insanların qardaşlığını tərənnüm edən Rəsul Həmzətovun 100 illiyinə həsr olunmuş bir sıra əhəmiyyətli tədbirlərin respublikanızda keçirilməsinə görə təşəkkürlərimi qəbul edin. Ümidvaram ki, Rusiya və Azərbaycan xalqlarının rifahı naminə bizim çoxşaxəli qarşılıqlı fəaliyyətimiz gələcəkdə də inkişaf edəcək.

Hörmətli İlham Heydər oğlu, icazə verin, Sizə möhkəm cansağlığı və işlərinizdə böyük uğurlar, Azərbaycana isə tərəqqi və rifah arzularımı bildirim.

**Hörmətlə,**

***Sergey MƏLİKOV,***
***Rusiya Federasiyasının Dağıstan Respublikasının rəhbəri***

***

**Zati-aliləri!**

Azərbaycan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Suverenlik illərində böyük uğurlar qazanan Azərbaycan bu gün dünya arenasında müstəqil, sülhsevər xarici siyasət yürüdən, Yer kürəsinin müxtəlif guşələrində tərəfdaşları ilə əməkdaşlığı fəal inkişaf etdirən və beynəlxalq təhlükəsizliyin, sabitliyin möhkəmlənməsinə mühüm töhfə verən nüfuzlu dövlət kimi tanınır.

İcazə verin, Təşkilatımız çərçivəsində məhsuldar əməkdaşlığa və onun fəaliyyətinə göstərdiyiniz diqqətə görə Sizə minnətdarlığımı bildirim. Azərbaycan artıq yeddi ildən çoxdur ki, Şanxay Əməkdaşlıq Təşkilatı çərçivəsində dialoq üzrə tərəfdaşdır, onun tədbirlərində fəal iştirak edir və Təşkilatın inkişafına öz layiqli töhfəsini verir.

Zati-aliləri, fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı, tükənməz enerji, nəzərdə tutulan planlarınızın reallaşmasını, Azərbaycan xalqına isə sülh və firavanlıq arzulayıram.

**Dərin hörmətlə,**

***Can MİN,***
***Şanxay Əməkdaşlıq Təşkilatının Baş katibi***

***

**Möhtərəm cənab Prezident!**

Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Türk Dövlətləri Təşkilatı adından və şəxsən öz adımdan Zati-alinizi və Azərbaycan xalqını səmimi-qəlbdən təbrik edir, ən xoş arzularımı çatdırıram.

Azərbaycan Xalq Cümhuriyyətinin 1918-ci il mayın 28-də müstəqilliyini elan etməsi ilə Türk və İslam dünyasında ilk demokratik respublikanın qurulması mühüm tarixi hadisə kimi digər xalqlara örnək olmuşdur.

Müstəqilliyinin bərpasından keçən dövr ərzində siyasi, iqtisadi və sosial sahələrdə böyük irəliləyişlərə nail olan Azərbaycan Respublikası Zati-alinizin müdrik siyasəti sayəsində daha da inkişaf etmiş, regional və beynəlxalq məsələlərdə fəal iştirakı, xüsusilə də sülhün, sabitliyin və əməkdaşlığın təşviqində göstərdiyiniz səylərlə regionun lider ölkəsinə çevrilmişdir.

Türk Dövlətləri Təşkilatına daim göstərdiyiniz hərtərəfli dəstəyə və təşəbbüslərinizə görə bir daha dərin minnətdarlığımı bildirirəm. Əminliklə qeyd etmək istəyirəm ki, türk dövlətləri arasındakı əməkdaşlıq və qardaşlıq ruhu daha da dərinləşəcək və Təşkilatımız yeni-yeni uğurlara imza atacaqdır.

Bu əlamətdar bayram münasibətilə yaranmış fürsətdən istifadə edərək, Zati-alinizə davamlı uğurlar arzulayır, bütün Azərbaycan xalqına rifah, firavanlıq və xoşbəxtlik diləyirəm.

**Dərin hörmətlə,**

***Kubanıçbek ÖMÜRALIYEV,***
***Türk Dövlətləri Təşkilatının Baş katibi***

***

**Hörmətli cənab Prezident!**

Sizi və Azərbaycan xalqını ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Ümumdünya Gömrük Təşkilatının adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Siz bu əlamətdar bayramı Azərbaycanın ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyinin qeyd edildiyi bir vaxtda qarşılayırsınız.

O, yüksək səviyyəli gömrük xidmətinin əsasının qoyulmasını Azərbaycanın müstəqilliyinin qorunub saxlanılmasının və daha da inkişaf etdirilməsinin ən vacib amillərindən biri hesab edirdi.

Bu fürsətdən istifadə edərək, Ümumdünya Gömrük Təşkilatının Azərbaycanla tərəfdaşlığının gücləndirilməsinə Zati-alinizin töhfələrinə görə səmimi minnətdarlığımı bildirmək istəyirəm. Bu gün Sizin rəhbərliyinizlə və Ümumdünya Gömrük Təşkilatının dəstəyi ilə Azərbaycan Dövlət Gömrük Komitəsi öz fəaliyyətini müasirləşdirməkdə davam edir.

Azərbaycan ilə əməkdaşlığı daha da genişləndirmək üçün yaxın gələcəkdə Zati-alinizlə qarşılıqlı maraq doğuran məsələləri müzakirə etmək üçün görüşmək fürsətini səbirsizliklə gözləyirəm.

Cənab Prezident, xahiş edirəm, ən xoş arzularımı və ən yüksək ehtiramımı qəbul edin.

**Hörmətlə,**

***Kunio MİKURİYA,***
***Ümumdünya Gömrük Təşkilatının Baş katibi***

***

**Hörmətli cənab Prezident!**

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və Azərbaycan xalqına ən səmimi təbriklərimi, xoş arzularımı çatdırıram.

BP şirkəti Azərbaycanın uzunmüddətli strateji tərəfdaşı kimi müasir ölkənizin müxtəlif sahələrdə tərəqqisinin şahidi olmaqdan, eləcə də neft və qaz sənayesinin inkişafına töhfə verməkdən qürur duyur.

Biz bu səmərəli tərəfdaşlığın uzun illər davam edəcəyinə və Azərbaycan xalqının rifahının daha da yüksəlməsinə xidmət göstərəcəyinə inanırıq.

Zati-aliləri, Sizi bu əlamətdar bayram münasibətilə bir daha təbrik edir, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, Azərbaycan xalqına sülh, rifah və tərəqqi arzulayıram.

**Hörmətlə,**

***Qəri COUNZ,***
***BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti***

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Möhtərəm cənab Prezident!**

Müstəqillik Günü münasibətilə Zati-alinizə ən səmimi təbriklərimizi çatdırmaqdan, Sizə möhkəm cansağlığı arzulamaqdan böyük məmnunluq duyuruq. Doğma Azərbaycanın hökumətinə və xalqına Allah-Taaladan daha çox tərəqqi və rifah diləyirik.

Misir-Azərbaycan Dostluq Cəmiyyəti Misir və Azərbaycan xalqları arasında müxtəlif sahələrdə əlaqələrin möhkəmləndirilməsi və əməkdaşlığın inkişaf etdirilməsi üçün maksimum səylərini əsirgəmir.

Zati-alinizin Sərəncamına əsasən, 2023-cü il Azərbaycanda "Heydər Əliyev İli" elan edilmişdir. Bu münasibətlə Cəmiyyətimiz tərəfindən silsilə tədbirlər təşkil olunub və olunacaqdır.

Qoy doğma Azərbaycan Respublikası Sizin müdrik və uzaqgörən rəhbərliyinizlə daim inkişaf etsin və daha da firavanlaşsın!

Xahiş edirik, ən səmimi arzularımızı qəbul edin.

**Dərin hörmətlə,**

**Əli CÜMƏ,**
**Misir Ərəb Respublikası parlamentinin Dini işlər və vəqflər komitəsinin sədri, professor,**

**Usamə əl-ƏBD,**
**Misir parlamentinin Dini işlər və vəqflər komitəsi sədrinin müavini, professor,**

**Əl-Seyyid Mahmud əl-ŞƏRİF,**
**Seyyidlər Həmkarlar İttifaqının sədri, Misir parlamenti sədrinin sabiq birinci müavini,**

**Yusif əl-ŞƏRQAVİ,**
**Misir Ərəb Respublikasının Azərbaycan Respublikasındakı sabiq səfiri,**

**Adil DƏRVİŞ,**
**Misir Helvan Universitetinin professoru, Misir Mədəniyyət Mərkəzinin Azərbaycan Respublikasındakı keçmiş direktoru,**

**Bağdadi İMAM,**
**Misir Ərəb Respublikası Ali Təhsil Nazirliyinin Baş direktoru,**

**Tövhid MƏHƏMMƏD,**
**müşavir, vəkil, Misir əl-Xeyir Fondunun hüquqi işlər üzrə direktoru,**

**Midhət CAMAL,**
**general, Misir əl-Xeyir Fondunda "İbn əs-Səbil" layihəsinin rəhbəri,**

**Usamə ƏBDÜRRƏHMAN,**
**Helvan Universitetinin professoru,**

**Mona ZİDAN,**
**Helvan Universitetinin professoru,**

**Əhməd Əbdu TARABEK,**
**Orta Asiya və Qafqaz məsələləri üzrə tədqiqatçı və jurnalist,**

**Mustafa HİCAZİ,**
**"Orange" şirkətinin Baş direktoru,**

**Seymur NƏSİROV,**
**Misir-Azərbaycan Dostluq Cəmiyyətinin İdarə Heyətinin və Misirdəki Azərbaycan diasporunun sədri**

# Bakıda Gürcüstanın Müstəqillik Günü



**Mayın 26-da Bakıda Gürcüstanın Müstəqillik Günü münasibətilə rəsmi qəbul təşkil olunub.**

Gürcüstanın ölkəmizdəki səfirliyinin təşkilatçılığı ilə keçirilən tədbirdə dövlət və hökumət nümayəndələri, icra və qanunvericilik orqanlarının rəhbərləri, Gürcüstandan dəvət olunmuş yüksəkvəzifəli qonaqlar, ölkədə akkreditə olunmuş diplomatik heyətin nümayəndələri və tanınmış ictimaiyyət nümayəndələri iştirak ediblər.

Gürcüstanın Azərbaycandakı səfiri Zurab Pataradze bildirib ki, Gürcüstan və Azərbaycan rəhbərlərinin səyləri nəticəsində ölkələrimiz arasında mehriban dostluq və qonşuluq münasibətləri daha da inkişaf edir, ikitərəfli strateji tərəfdaşlığımız daha da dərinləşir.

Ölkələrimiz arasında strateji tərəfdaşlıq münasibətlərinin əsasının Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulduğunu diqqətə çatdıran diplomat ölkələrimiz arasında münasibətlərin dərinləşməsində, birgə layihələrin həyata keçirilməsində Azərbaycan Prezidenti İlham Əliyevin və Gürcüstanın Baş naziri İrakli Qaribaşvilinin rolunu xüsusi qeyd edib. Beynəlxalq sahədə də ölkələrimizin bir-birini dəstəklədiklərini bildirən Zurab Pataradze Gürcüstan və Azərbaycanın bir çox sahələrdə sıx əməkdaşlıq etdiklərini deyib. O, enerji sektorunu ikitərəfli əməkdaşlığın əsas prioritetlərindən biri kimi qiymətləndirib. Vurğulayıb ki, birgə layihələr həm Azərbaycanın, həm də Gürcüstanın iqtisadi inkişafına böyük töhfə verir.

Azərbaycan xalqını və dövlətini 28 May - Müstəqillik Günü münasibətilə təbrik edən diplomat ölkələrimizin regionda sülh və sabitlik tərəfdarı olduğunu da vurğulayıb.

Tədbirdə çıxış edən Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov bildirib ki, Azərbaycan və Gürcüstan hər zaman dostluq və qardaşlıq şəraitində yaşayıblar. Bunu hər iki ölkənin 105 il bundan əvvəl müstəqillik qazanması da sübut edir.

Gürcüstan xalqını və dövlətini müstəqillik bayramı münasibətilə təbrik edən Baş nazir bildirib ki, ölkələrimiz arasında mehriban dostluq münasibətlərinin əsası ulu öndər Heydər Əliyev və Eduard Şevardnadze tərəfindən qoyulub. Vurğulayıb ki, ümummilli lider hər zaman Gürcüstanla münasibətlərə böyük önəm verirdi. Bu münasibətlər hazırda Prezident İlham Əliyev və Gürcüstanın Baş naziri İrakli Qaribaşvilinin xidmətləri sayəsində daha da inkişaf edərək dərinləşir.

"Ölkələrimiz arasında strateji tərəfdaşlıq və siyasi dialoq yüksək səviyyədədir. Biz bir-birimizi beynəlxalq təşkilatlar çərçivəsində dəstəkləyirik. Birgə həyata keçirilən layihələrimiz regionun inkişafına töhfə verir. Yaşıl enerji ilə bağlı yeni layihələr reallaşdırılır. Bütün sahələrdə əməkdaşlığımız inkişaf edir. İnanırıq ki, qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri daha da dərinləşəcək", - deyə Ə.Əsədov əlavə edib.

Rəsmi hissədən sonra tədbir bədii hissə ilə davam edib.

Tədbir iştirakçıları Abxaziya Dövlət Akademik Mahnı və Rəqs Ansamblı "Abxazeti"nin və Azərbaycanın Əməkdar artisti, gürcü müğənnisi Manana Caparidzenin ifasını dinləyiblər.

Həmçinin gürcü adət-ənənələrinin çoxəsrlik tarixini özündə əks etdirən gürcü milli geyimlərinin sərgisi keçirilib.

***AZƏRTAC***

# Azərbaycan Respublikası Prezidenti Administrasiyasının vətəndaş qəbulu mərkəzində 2023-cü ilin iyun ayında vətəndaşların qəbulu cədvəli

| *Qəbulu aparan şəxs* | *Qəbul günü* |
|---|---|
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri**<br>Əliyev Məhərrəm Abış oğlu | 1 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri**<br>Əmirov Natiq Ərziman oğlu | 2 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri**<br>Ələsgərov Fuad Murtuz oğlu | 5,19 |
| **Azərbaycan Respublikası Prezidentinin mətbuat katibi**<br>Qasımov Azər Məhəmməd oğlu | 6 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri**<br>Məcidov Tələt Tahir oğlu | 6 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri**<br>Əliyeva Fərəh Şirməmməd qızı | 7 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri**<br>Həsənov Kərəm Əvəz oğlu | 8 |
| **Azərbaycan Respublikası Birinci vitse-prezidentinin Katibliyinin rəisi**<br>Həsənov Altay Tofiq oğlu | 9,16,23 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri**<br>Nağdəliyev Zeynal Səfər oğlu | 9 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri**<br>Mövsümov Şahmar Arif oğlu | 12 |
| **Azərbaycan Respublikası Prezidentinin Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) xüsusi nümayəndəsi**<br>Hüseynov Emin Zamin oğlu | 12,20 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri**<br>Məmmədəliyev Yusuf Ülfət oğlu | 13 |
| **Azərbaycan Respublikası Prezidentinin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında xüsusi nümayəndəsi**<br>Hacıyev Vahid Rasim oğlu | 13,23 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri**<br>Hacıyev Hikmət Fərhad oğlu | 14 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri**<br>Vəliyev Ədalət Məqsəd oğlu | 14 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri**<br>İsmayılov Süleyman Abbas oğlu | 16 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektoru** | 20 |
| **Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi**<br>Kərimov Aydın Zöhrab oğlu | 21 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri**<br>Kərimov Gündüz Hacı oğlu | 21 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi** | 22 |
| **Azərbaycan Respublikası Prezidentinin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda xüsusi nümayəndəsi**<br>Məmmədov Məsim Əhməd oğlu | 22 |
| * * * | |
| **Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasının katibi**<br>Usubov Ramil İdris oğlu | 21 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində qəbul olunurlar.**
**Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev,79.**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: Çağrı Mərkəzi – 1111.**

# Zakir Həsənov Gürcüstanda keçirilən hərbi paradda iştirak edib



**Gürcüstanda səfərdə olan Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov bu ölkənin Müstəqillik Günü münasibətilə keçirilən hərbi parad və hərbi qulluqçuların andiçmə mərasimində fəxri qonaq qismində iştirak edib.**

Sonra müdafiə naziri Tbilisidəki Heydər Əliyev parkına gəlib, burada ulu öndərin abidəsini ziyarət edib, önünə əklil qoyaraq xatirəsini hörmət və ehtiramla anıb.

Qeyd edilib ki, Gürcüstanın Müstəqillik Günü münasibətilə keçirilən tədbirdə iştirak edən Milli Müdafiə Universitetinin Heydər Əliyev adına Hərbi İnstitutunun Hərbi Orkestri konsert proqramı ilə çıxış edib.

***"Xalq qəzeti"***

# Tbilisidə Azərbaycanın Müstəqillik Günü

**Azərbaycanın Gürcüstandakı səfirliyinin təşkilatçılığı ilə Tbilisidə Müstəqillik və Silahlı Qüvvələr Günü münasibətilə rəsmi qəbul təşkil olunub.**



Tədbirdə Gürcüstan Parlamentinin sədri Şalva Papuaşvili, daxili işlər naziri Vaxtanq Qomelauri, Gürcüstanın Dövlət Təhlükəsizliyi Xidmətinin rəhbəri Qriqol Liluaşvili, müdafiə nazirinin birinci müavini xanım Lelo Çikovani, Xarici İşlər Nazirliyinin rəsmi şəxsləri, parlamentin deputatları, elm, ictimaiyyət nümayəndələri, din xadimləri, Türkiyənin səfiri Ali Kaan Orbay, eləcə də Gürcüstanda akkreditə olunan diplomatik korpusun əməkdaşları və soydaşlarımız iştirak ediblər.

Səfir Faiq Quliyev deyib ki, cari il Azərbaycan və Gürcüstan dövlətlərinin, eyni zamanda, bölgəmizin tarixi üçün çox əlamətdardır. 105 il əvvəl, 1918-ci ilin mayın 26-da Gürcüstanın dövlət müstəqilliyi bəyan edilib. Ondan iki gün sonra, mayın 28-də isə Azərbaycan öz qədim dövlətçilik ənənələrinə yenidən qovuşmuş, Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması barədə İstiqlal Bəyannaməsi qəbul edilmişdir.

Qeyd olunub ki, AXC-nin mövcud olduğu 23 aylıq qısa müddət ərzində bir çox mühüm nailiyyətlərə imza atılıb.

Diplomat ölkəmizin 1991-ci ildə müstəqilliyini bərpa etdiyini, bununla belə, müstəqilliyin ilk illərində bir çox çətinliklərlə üzləşdiyini qeyd edib. Ümummilli lider Heydər Əliyevin uzaqgörənliyi və müdrik siyasəti sayəsində Azərbaycanın dayanıqlı inkişafının təmin olunduğunu vurğulayıb. Bildirib ki, əsası ümummilli liderimiz tərəfindən qoyulan siyasət bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir, ölkəmizin hərtərəfli inkişafı istiqamətində böyük nailiyyətlər əldə olunub.

Gürcüstan Parlamentinin sədri Şalva Papuaşvili çıxış edərək Müstəqillik Günü münasibətilə Azərbaycan xalqını təbrik edib, ölkələrimiz arasında bütün sahələrdə əlaqələrin uğurla inkişaf etdiyini bildirib. O, əlaqələrin inkişafında parlamentlərarası münasibətlərin rolunu xüsusi vurğulayıb. Sonra Gürcüstan müdafiə nazirinin birinci müavini xanım Lelo Çikovani çıxış edərək Müstəqillik Günü və Silahlı Qüvvələr Günü münasibətilə təbriklərini çatdırıb. O, Azərbaycan ilə Gürcüstan arasında hərbi sahədə əməkdaşlığın inkişafını xüsusi qeyd edib.

***Nizami MƏMMƏDOV,***
***Əməkdar jurnalist***

# Ziyanın aradan qaldırılması istiqamətində işlər davam etdirilir



**Dünən Göygöl rayonunun Topalhəsənli, Şəhriyar, Kərəmli və Zurnabad kəndləri ərazisinə yağan güclü leysan yağışları nəticəsində sel sularının miqdarı artaraq Topalhəsənli kəndi ərazisində qaz, işıq və rabitə xətlərinə ziyan yetirib.**

"Aidiyyəti qurumların nümayəndələri dərhal hadisə yerinə cəlb olunub. İlkin müdaxilə nəticəsində yollarda hərəkət qısa müddətdə təmin edilib. Topalhəsənli, Şəhriyar, Kərəmli və Zurnabad kəndlərinin müəyyən hissələrinə təbii qaz və elektrik enerjisinin verilişi bərpa olunub. İlkin məlumata əsasən, beş nəqliyyat vasitəsinə ziyan dəyib. Hazırda dəymiş ziyanın aradan qaldırılması istiqamətində işlər davam etdirilir," – deyə Rayon Fövqəladə Hallar Komissiyasının sədri Arzu Qocayev bildirib.

Qeyd edək ki, mayın 25-i axşam saatlarında baş verən təbii fəlakət nəticəsində polis əməkdaşlarının köməyi ilə Gəncə şəhər sakinləri V.Həziyev, T.Məmmədova və V.Həziyeva çay axınından xilas edilib, ilkin yardım göstərilib. İtkin düşmüş 1954-cü il təvəllüdlü Muxtar Hüseynov və 2001-ci il təvəllüdlü İbrahim Qurbanovun isə meyitləri tapılaraq müvafiq ekspertizaya təqdim edilib.

# Mina təhlükəsi ilə mübarizə – dayanıqlı inkişafa gedən yol






**“Mina təhlükəsi ilə mübarizə – dayanıqlı inkişafa gedən yol” mövzusunda ikinci beynəlxalq humanitar konfrans işini mayın 26-da Bakıda davam etdirib.**

Tədbirdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin konfrans iştirakçılarına müraciətini oxuyub.

Sonra konfransın ötən gün Ağdamda keçirilmiş açılış mərasimi ilə bağlı videoçarx nümayiş olunub.

BMT-nin Minalardan Təmizləmə Xidmətinin (UNMAS) direktoru İlene Kohn beynəlxalq konfransın iştirakçılarına onlayn müraciət edib. Bildirib ki, BMT ölkələrin minalardan təmizlənməsinə, minaların yayılmasının qarşısının alınmasını təşviq etməyə davam edəcək. “Azərbaycan hökuməti, ANAMA minaların təmizlənməsi istiqamətində əhəmiyyətli işlər görür. ANAMA həm də digər ölkələrlə təcrübəsini bölüşür ki, bu da çox vacibdir”, - deyə İlene Kohn diqqətə çatdırıb.

“Sülhün Kökləri” (Roots of Peace) beynəlxalq humanitar təşkilatının təsisçisi və rəhbəri Heidi Kühn videomüraciətində Azərbaycana səfəri çərçivəsində minalardan əziyyət çəkmiş insanların, qadınların acı hekayələrini eşitdiyini, onları dinlədiyini vurğulayıb: “Biz minalanmış əraziləri bağlara çevirməliyik. Bu gün 60-a yaxın ölkə 100 milyona yaxın mina və partlamamış sursatla çirklənib. Azərbaycan da bu ölkələrdən biridir. Azərbaycanın ərazilərində 1 milyona yaxın mina və partlamamış sursat basdırılıb. Biz minaları təmizləmək və yenilərinin basdırılmasının qarşısını almaq üçün birgə işləməliyik. Biz insanlıq üçün birləşməliyik”.

Konfransın ilk sessiyası “Milli mülkiyyət və beynəlxalq dəstək – bunun üçün ən uyğun tarazlıq axtarışında olmaq” mövzusuna həsr olunub.

Çıxışlarda bildirilib ki, Azərbaycan dünyada minalar və partlamamış hərbi sursatlar ilə ən çox çirklənmiş ölkələr sırasındadır. Mina problemi ölkələrin inkişafı üçün maneə yaradır. Minaların təmizlənməsi insanların elektrik, su təchizatı problemlərinin aradan qaldırılmasına kömək edəcək.

Tədbirdə, həmçinin ANAMA-nın 1998-ci ildən etibarən fəaliyyəti, bu sahədə qazandığı nailiyyətlər və təmizləmə işlərinin aparılması haqqında məlumat verilib. Diqqətə çatdırılıb ki, 147 min hektar ərazi minalarla çirklənib. Minalar arasında ən çox rast gəlinən Ermənistanda istehsal olunan qara plastik minalardır. Azərbaycan hökumətinin, ANAMA-nın əsas məqsədlərindən biri dünya icmaları ilə bir araya gələrək təcrübə mübadiləsi aparmaq, səmərəli minatəmizləmə siyasəti ortaya qoymaq və əməkdaşlığı gücləndirməkdir.

“Minasız dünyaya nail olmaq üçün qlobal tərəfdaşlıq” mövzusunda ikinci sessiyada Azərbaycanın qlobal səviyyədə humanitar minatəmizləmə prosesinə verdiyi töhfələrdən danışılıb. Diqqətə çatdırılıb ki, ərazilərin yenidən bərpası üçün minatəmizləmə prosesi çox vacibdir. Minatəmizləmə yalnız bundan əziyyət çəkən ölkələrin məsuliyyəti olmamalıdır. Eyni zamanda, digər ölkələr, beynəlxalq ictimaiyyət, qarşı tərəf bu məsuliyyəti bölüşməli, minadan əziyyət çəkən ölkəyə yardım etməlidir.

Həmçinin tədbirdə Ottava Konvensiyasının vacibliyi vurğulanıb. Bildirilib ki, bu Konvensiya həm də Dayanıqlı İnkişaf Məqsədlərinə, xüsusilə də minalardan azad dünyaya nail olmaq üçün əsas mexanizmlərdən biridir.

Tədbirin “Minaların və müharibənin partlayıcı qalıqlarının insan təhlükəsizliyinə təsiri” mövzusunda növbəti sessiyasında çıxış edənlər bildiriblər ki, minaların təmizlənməsi böyük məbləğdə vəsait tələb edir. Dünya ölkələri minatəmizləmə ilə bağlı effektiv siyasət ortaya qoymalı və mina qurbanlarına yardım üçün layihələr təşkil etməlidir.

Konfransın sonunda bəyannamə qəbul olunub.

Sonra BMT Baş katibinin qanunun aliliyi və təhlükəsizlik institutları üzrə köməkçisi Aleksandr Zuyev bu bəyannamənin qəbulunun əhəmiyyətini vurğulayıb. O, beynəlxalq konfransın təşkilinə görə ANAMA-ya və BMT-nin Azərbaycandakı nümayəndəliyinə təşəkkür edib və bildirib ki, konfrans çərçivəsində vacib və maraqlı müzakirələr aparılıb.

A.Zuyev mina təhlükəsinin qarşısının alınmasında beynəlxalq həmrəyliyin vacibliyini qeyd edib.

Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının İdarələrarası Mərkəzinin Katibliyinin rəhbərinin müavini Sultan Hacıyev deyib ki, konfrans ötən il 30 mart - 1 aprel tarixlərində “Humanitar Minatəmizləmə və Dayanıqlı İnkişaf Məqsədləri” mövzusunda keçirilmiş beynəlxalq konfransın davamıdır. O, konfransda 51 ölkəni təmsil edən rəsmi şəxslərin iştirakının dostluq şəbəkəsinin yaranmasına kömək etdiyini deyib.

Qeyd edək ki, konfransın birinci günü mayın 25-də Ağdamda keçirilib və qonaqlar panel müzakirələrdə iştirak ediblər. Ağdama səfər çərçivəsində iştirakçılar bərpa-quruculuq planları ilə tanış olub, mina partlayışları nəticəsində zərərçəkmiş amputant futbolçuların oyununu izləyiblər. Onlar, həmçinin ANAMA-nın fəaliyyət göstərdiyi minatəmizləmə sahəsinə səfər edib, minaların partlayış yolu ilə zərərsizləşdirilməsinin şahidi olublar.

# Ceyhun Bayramov: Mina təhlükəsi ilə bağlı beynəlxalq səylər vacibdir



**Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə BMT Baş katibinin qanunun aliliyi və təhlükəsizlik institutları üzrə köməkçisi Aleksandr Zuyev arasında görüş keçirilib.**

Görüş zamanı Azərbaycanın BMT çərçivəsində fəaliyyətindən məmnunluq ifadə edilib, ölkəmizin BMT çərçivəsində bir sıra istiqamətlərdə, xüsusilə də sülh və təhlükəsizliyin dəstəklənməsi sahəsində genişmiqyaslı təşəbbüsləri, o cümlədən sülhməramlılarımızın müxtəlif missiyalarda iştirakı yüksək qiymətləndirilib.

Ölkəmizin BMT və onun ixtisaslaşmış qurumları ilə əməkdaşlığa xüsusi əhəmiyyət verdiyini bildirən nazir Ceyhun Bayramov, bu xüsusda, Azərbaycanın donor ölkə qismində yaxından əməkdaşlıq etdiyini bildirib. Tərəflər, həmçinin post-münaqişə dövründə bölgədə son vəziyyət barədə fikir mübadiləsi aparıblar.

Azərbaycanın ərazilərinin 30 ilə yaxın müddətdə Ermənistanın işğalı altında olmasına, bir milyona yaxın azərbaycanlının öz doğma torpaqlarından didərgin düşməsinə, işğalın Azərbaycanın sosial-iqtisadi rifahına dağıdıcı təsirlərinə baxmayaraq, ölkəmizin çətinliklərin öhdəsindən gəldiyi, yardım alan ölkədən donor ölkəsinə çevrildiyi qeyd olunub. COVID-19 pandemiyası dövründə ölkəmizin donorluq fəaliyyəti, Qlobal Pandemiya ilə mübarizə sahəsinə töhfələri barədə ətraflı məlumat verilib. Azərbaycan Respublikası tərəfindən bir çox ölkələrə səhiyyə, təhsil, texniki və humanitar sahələrdə göstərilən yardımlar diqqətə çatdırılıb.

Nazir daha sonra qarşı tərəfə Azərbaycanın işğaldan azad edilmiş ərazilərində minalardan təmizləmə prosesi, Azərbaycan vətəndaşlarının Ermənistan tərəfindən kütləvi şəkildə basdırılmış minaların qurbanına çevrilməsi və minaların təmizlənməsi sahəsində Ermənistanın Azərbaycanla əməkdaşlıq etməməsi məsələsini diqqətə çatdırıb. Həmçinin işğaldan azad olunmuş ərazilərdə bərpa və yenidənqurma işləri, məcburi köçkünlərin bölgəyə geri qayıdışı barədə qarşı tərəfi məlumatlandıran nazir, ərazilərimizdə mina təhlükəsinin aradan qaldırılması istiqamətində beynəlxalq səylərin artırılmasının vacibliyini vurğulayıb.

Ətraflı məlumata görə təşəkkür edən Aleksandr Zuyev qısa müddətdə ölkəmizdə böyük quruculuq işlərinin getdiyinin, iqtisadiyyatın davamlı inkişaf etdiyinin şahidi olduğunu, Azərbaycanda təhlükəsizlik məsələlərinin uğurla həll olunduğunu, hüquq-mühafizə, o cümlədən polis orqanlarının bu istiqamətdə üzərlərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəldiyini qeyd edib. BMT nümayəndəsi ölkəmizi “Mina təhlükəsi ilə mübarizə - dayanıqlı inkişafa gedən yol” mövzusunda mühüm beynəlxalq humanitar konfransın keçirilməsinə görə təbriklərini çatdırıb.

# 18-ci Milli Dayanıqlı İnkişaf Məqsədi ictimaiyyətə təqdim edilib

**“Mina təhlükəsi ilə mübarizə - dayanıqlı inkişafa gedən yol” mövzusunda minalardan təmizləmə üzrə ikinci beynəlxalq humanitar konfrans çərçivəsində 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəliyin prinsipləri əsasında hazırlanan 18-ci milli Dayanıqlı İnkişaf Məqsədi beynəlxalq və yerli ictimaiyyətə təqdim edilib.**

Ağdamda və Bakıda keçirilən “Mina təhlükəsi ilə mübarizə - dayanıqlı inkişafa gedən yol” mövzusunda minalardan təmizləmə üzrə ikinci beynəlxalq humanitar konfransda Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəliyin prinsipləri əsasında hazırlanan 18-ci milli Dayanıqlı İnkişaf Məqsədi İqtisadiyyat Nazirliyinin şöbə müdiri, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının katibi Hüseyn Hüseynov tərəfindən beynəlxalq və yerli ictimaiyyətə təqdim edilib.

Qeyd edək ki, 18-ci Dayanıqlı İnkişaf Məqsədi təşəbbüsü bu ilin martın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Bakıda keçirilən Zirvə görüşündə irəli sürülüb. Prezidentin təşəbbüsü əsasında “Mina təhlükəsi ilə mübarizəyə dair fəaliyyətlər” adlı 18-ci Dayanıqlı İnkişaf Məqsədi müvafiq dövlət qurumlarının rəy və təklifləri əsasında hazırlanıb və Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasında təsdiq edilib.

18-ci DİM işğaldan azad olunmuş ərazilərimizə təhlükəsiz qayıdış, məskunlaşma, bərpa, rifah və sülh üçün mina təhlükəsi ilə mübarizəyə dair fəaliyyəti özündə ehtiva edir. Bu DİM insanların təmiz ətraf mühitdə, sağlam və yüksək rifahda, o cümlədən sülh və təhlükəsizlik şəraitində yaşamasına yönəlib.

***AZƏRTAC***

# Minatəmizləmə təcrübəmiz digər ölkələr üçün nümunədir

**(əvvəli 1-ci səhifədə)**

Konfrans mina partlayışı nəticəsində zərərçəkmiş şəxsin və minaaxtaranın müraciəti ilə başlayıb. Daha sonra açılış nitqi ilə çıxış edən Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlətimizin başçısının tapşırıqlarına uyğun olaraq azad olunmuş ərazilərin bərpası və yenidən qurulması, dayanıqlı məskunlaşmanın təmin edilməsi istiqamətində aparılan işlər barədə məlumat verib. E.Hüseynov işğalçıdan təmizlənən ərazilərin bərpasında Azərbaycanın üzləşdiyi ən mühüm problemlərdən birinin mina və digər partlayıcı maddələr olduğunu qeyd edib.

Konfransda çıxış edən Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin (ANAMA) İdarə Heyətinin sədri Vüqar Süleymanov keçirilən konfransın mina təhlükəsi ilə mübarizə istiqamətində qlobal həmrəylik nümayiş etdirərək yeni tərəfdaşlıqlar qurmaq və minasız dünyaya yol açacaq konkret fəaliyyət planları hazırlamaq üçün yeni bir imkan yaratdığını diqqətə çatdırıb. V.Süleymanov, eyni zamanda, humanitar minatəmizləmənin Davamlı İnkişaf Məqsədləri üçün böyük əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Tədbirdə çıxış edənlər tərəfindən Azərbaycanın, eləcə də minadan əziyyət çəkən digər ölkələrin ərazilərin minalardan təmizlənməsinin dayanıqlı inkişaf və sülhə nail olmaqda ilkin şərt olduğu bildirilib. Həmçinin 2020-ci ildə başlanan Vətən müharibəsindən sonra Birləşmiş Millətlər Təşkilatının (BMT) Azərbaycan ərazilərinin minalardan təmizlənməsinə yardım məqsədilə 11 milyon dollar ayırdığı qeyd edilib.

Yeri gəlmişkən, Ağdamda keçirilən konfransın ilk sessiyasında münaqişədən zərər çəkən bölgələrdə infrastrukturun təhlükəsiz bərpası, keçmiş məcburi köçkünlərin öz doğma torpaqlarına təhlükəsiz qayıtması, regionda davamlı sülhün bərqərar olması, habelə investisiya proqramlarının həyata keçirilməsi üçün humanitar minatəmizləmə fəaliyyətinin əhəmiyyəti və Dayanıqlı İnkişaf Məqsədləri ilə birbaşa bağlılığı ətrafında müzakirələr aparılıb. Tədbir çərçivəsində, eyni zamanda, ulu öndər Heydər Əliyevin həyat və yaradıcılığını, xidməti fəaliyyətini əks etdirən sərgi təşkil olunub. Bundan başqa, cari il aprelin 28-də Tərtərin Tapqaraqoyunlu istiqamətində ərazilərin dronlar vasitəsilə tədqiqatını həyata keçirən subpodratçı təşkilatın əməkdaşlarının minaya düşərək həyatlarını itirdikləri nəqliyyat vasitəsi də nümayiş etdirilib.




Səfər çərçivəsində konfrans iştirakçıları Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilən ərazilərdə Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyinin Qərargahında bərpa-quruculuq planları ilə tanış olub, eləcə də mina partlayışları nəticəsində zərərçəkmiş amputant futbolçuların oyununu izləyiblər. Qonaqlar, həmçinin ANAMA-nın fəaliyyət göstərdiyi minatəmizləmə sahəsinə səfər ediblər. Burada onlara icra olunan humanitar minatəmizləmə əməliyyatları haqda məlumat verilib, minaların partlayış yolu ilə zərərsizləşdirilməsi nümayiş edilib.

Konfransda 2020-ci ilin noyabr ayından etibarən Azərbaycan tərəfindən aparılan geniş minatəmizləmə əməliyyatları nəticəsində 81 min 386 hektar ərazi minalardan və müharibənin partlayıcı qalıqlarından təmizlənib.

Ümumilikdə 88 min 260 mina və müharibənin digər partlayıcı qalıqları, o cümlədən 28 min 259 piyada əleyhinə mina, 15 min 303 tank əleyhinə mina və 44 min 698 partlamamış hərbi sursat aşkar edilərək zərərsizləşdirilib.

Əldə edilən irəliləyişlərə baxmayaraq, mina təhlükəsi hələ də davam edir. Son 32 ayda 302 Azərbaycan vətəndaşı mina və müharibənin partlayıcı qalıqlarının qurbanı olub. Onlardan 57-si dünyasını dəyişib, 245 nəfəri isə yaralanıb.

Tədbirdə, eyni zamanda, minalarla çirklənmə ilə bağlı mübarizə məsələsinin respublikamızın milli prioritetləri sırasına daxil edilməsinin önəmi vurğulanıb. Ona görə də Azərbaycan hökuməti tərəfindən diqqət işğaldan azad olunan ərazilərin bərpasına yönəldilib, insanların bu ərazilərə qaytarılması üçün torpaqların minalardan təmizlənməsinə xüsusi əhəmiyyət verilib.

Bakıda keçirilən “Minalarla mübarizə – dayanıqlı inkişaf məqsədlərinə gedən yol” mövzusunda beynəlxalq konfransın ikinci günündə çıxış edən ANAMA İdarə Heyətinin sədrinin müavini Samir Poladovun sözlərinə görə, tikinti-quruculuq işləri üçün ilk növbədə bu ərazilər minalardan təmizlənməlidir: “Bu torpaqlarda kasetli sursatlar, piyada və tank əleyhinə minalar, partlamamış sursatlar aşkar olunur. Ən çox rast gəlinən minalar plastik minalardır. Bu, Ermənistanda istehsal olunan minalardır”.

O bildirib ki, Azərbaycana verilən xəritələrin yalnız 25 faizinə inanmaq olar: “Statistika göstərir ki, indiyə qədər mina partlayışlarının 70 faizi əvvəlki təmas xəttində arxada baş verib. ANAMA-nın hədəfi təmizlənən ərazilərin sahəsini illik 50 min hektara çatdırmaqdır”.

Böyük Britaniya Parlamentində İcmalar Palatasının üzvü, Partlayış Təhlükələri üzrə Parlament Qrupunun sədri Metyu Offord isə Vyetnamda, Kambocada olan mina təhlükəsini nümunə gətirərək bildirib ki, bu problem illər ərzində həmin ölkələrin inkişafına ciddi mane olub: “Ona görə də, haqlı olaraq minaların təmizlənməsi dayanıqlı inkişaf məqsədlərindən biridir. Eyni zamanda, bu proses böyük maliyyə vəsaiti tələb edir. Mən təqdir edirəm ki, Azərbaycan hökuməti bu məsələni milli prioritetə çevirib. Ölkənin tərəqqisi üçün minaların təmizlənməsi vacibdir. Azərbaycanın təcrübəsi digər ölkələr üçün nümunə ola bilər. Mən inanıram ki, Ukrayna minaların təmizlənməsi ilə bağlı Azərbaycanın yol xəritəsindən nümunə götürəcək”.

Konfransda “Links Europe” şirkətinin direktoru Dennis Sammutun sözlərinə görə, Cənubi Qafqazda mina təmizlənməsi məsələsinə insani perspektivdən yanaşılmalıdır. Bu gün minalar insanların evlərinə qayıtmasına mane olur. Beynəlxalq ictimaiyyət bu məsələdə Azərbaycana yardım etməlidir, problemin ölçüsünü nəzərə alsaq deyə bilərik ki, bu gün verilən yardım okeanda bir damcı kimidir: “Biz birgə işləməliyik, minatəmizləmənin humanitar sferasına fokuslanmalıyıq. Texniki dəstək verməliyik. Bu, insan hüquqları ilə bağlı məsələdir, bu ərazilərin sakinlərinin öz evlərinə qayıtmaq hüququ var. Biz dünyanı – beynəlxalq ictimaiyyəti Ağdama gətirməklə yanaşı, bu şəhərdə törədilənləri dünyaya çatdırmalıyıq”.

Beləliklə, 51 ölkədən gələn 160-a yaxın rəsmi şəxsin–sabiq dövlət və hökumət başçılarının, bir sıra ölkələrin parlament üzvlərinin, BMT baş ofisinin rəhbər heyətinin, nüfuzlu beynəlxalq təşkilatların, minatəmizləmə sahəsində fəaliyyət göstərən qurumların, eləcə də Azərbaycanda akkreditə olunmuş diplomatik korpus nümayəndələrinin iştirak etdikləri konfrans ANAMA və BMT-nin birgə təşkilatçılığı ilə reallaşıb. Belə bir nüfuzlu tədbirin keçirilməsində əsas məqsəd ölkəmizin üzləşdiyi mina probleminin miqyası və törətdiyi fəsadları beynəlxalq ictimaiyyətin və mina təhlükəsi ilə mübarizədə maraqlı tərəflərin diqqətinə çatdırmaq olub.

Xatırladaq ki, konfrans ötən ilin 30 mart - 1 aprel tarixlərində “Humanitar Minatəmizləmə və Dayanıqlı İnkişaf Məqsədləri” mövzusunda keçirilmiş beynəlxalq konfransın davamıdır.

***V.BİNYATOĞLU, “Xalq qəzeti”***

# Moskva görüşü – Kremlin canfəşanlığı, Bakının qətiyyəti, İrəvanın təxribatı

## Azərbaycan, Rusiya və Ermənistan liderlərinin 25 may təmasındakı xarakterik məqamlar

**Azərbaycan, Rusiya və Ermənistan liderlərinin mayın 25-də Moskvadakı üçtərəfli görüşü Bakı–İrəvan münasibətlərinin normallaşması üzrə Rusiya formatının uğuru kimi yaddaqalan olmasa da, bu təması tamamilə faydasız adlandırmaq doğru sayılmaz. Bu baxımdan Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyanın dövlət başçısı Vladimir Putinlə keçirdiyi ikitərəfli görüşdə səsləndirdiyi fikirlərə diqqət yetirək: "...Fürsətdən istifadə edərək, Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması işində səylərinə görə Rusiya tərəfinə minnətdarlığımızı bildirmək istərdim. Biz bu səyləri çox yüksək dəyərləndiririk. Bu gün keçiriləcək üçtərəfli görüşdə Sizin iştirakınız da Azərbaycan və Ermənistanın, nəhayət, sülh razılaşmasına gəlməsinə Rusiya Federasiyasının necə böyük əhəmiyyət verdiyini göstərir. Fikrimcə, Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıması barədə Ermənistan rəhbərliyinin bu yaxınlardakı bəyanatlarından, eləcə də Azərbaycan Respublikasının sahəsini konkret rəqəmlərlə göstərməklə Azərbaycanın ərazi bütövlüyünün tanınmasından sonra sülh sazişinin digər maddələrinin razılaşdırılması məsələsi daha asan olacaq. Çünki, bu, başlıca amil idi ki, biz razılığa gələ bilmirdik".**



Ölkəmizin rəhbəri çox vacib məqama toxunur. Ortada Ermənistanın Azərbaycanın suverenliyini tanıması faktorunun mövcudluğunu qabardır. Bəli, Rusiya formatı çərçivəsindəki danışıqlarda buna rast gəlmək mümkün olmamışdı. Qərb formatında isə bu reallaşdı. Deməli, Moskva vəziyyəti nəzərə alıb davranmalıdır. Davrandımı? Deməzdik ki, davranmadı, ancaq prinsip etibarilə sülhə nəinki yaxınlaşmadı, hətta, ondan uzaq dayandı.

Təbii ki, Putin Kremlin vaxtilə irəli sürdüyü Qarabağa status məntiqindən də kənar durmağa üstünlük verdi. Ümumən, görüntü baxımından onun şəxsində Kremlin tənzimləməyə önəm verdiyini hiss etdik. Bəs, başqa nə? Suala həm üçtərəfli görüş, həm də dövlətimizin başçısı İlham Əliyevin qonaq qismində qatıldığı Ali Avrasiya İqtisadi Şurasının geniş tərkibdəki iclası müstəvisində cavab müəyyənləşdirmək mümkündür.

***

Onu da hiss etdik ki, Moskva sülh gündəliyi ilə bağlı konkret məqamların müzakirə predmetinə çevrilməsində maraqlıdır. Bu, üçtərəfli görüşə dair Kreml rəhbərinin fikirlərindən aydın görünməkdədir: "Biz növbəti görüşümüzün keçirilməsinə dair təklifə operativ reaksiya verdiyiniz üçün minnətdarıq və ümid edirəm ki, bu, bizim artıq çoxdan danışdığımız bəzi məsələlərin praktik həllində yaxşı müqəddimə olacaq".

Əlbəttə, iki il yarımdan sonra Rusiyanın hələ müqəddimə məntiqinə sığınması bir o qədər ürəkaçan deyil. Digər tərəfdən, bu müqəddimənin də praktik həll baxımından nə dərəcədə faydalı olacağını söyləmək çətindir. Çünki V.Putin Moskva formatında bir çox məsələlərə dair uğur əldə etməyin mümkünlüyünü vurğulasa da, onun uğur formulunun Ermənistanın destruktiv yanaşmasının və zaman-zaman yaratdığı gərginliyin müqabilində kövrək təsir bağışladığı diqqət çəkməkdədir.

Gərginlikdən söz düşmüşkən, liderlərin Moskva görüşü, kifayət qədər, gərgin keçdi və belə təəssürat yarandı ki, Rusiyanın dövlət başçısı üçtərəfli görüşə dair yekun açıqlaması ilə vəziyyəti, bir növ, normal məcraya qaytarmaq yolu tutmaqda, mahiyyət etibarilə, öz missiyasını iflas yolundan döndərməyə çalışmaqdadır. O, normallaşma kontekstindəki problemlərin, hər nə qədər texniki xarakter daşıdığını desə də, Ermənistanın baş naziri Nikol Paşinyanın Ali Avrasiya İqtisadi Şurasının geniş tərkibdəki iclasında söylədikləri heç də hər şeyin texniki mahiyyət daşımadığını deməyə əsas verməkdədir. Nəzərə alaq ki, bütövlükdə, Cənubi Qafqaz regionunun ictimai rəyində başlıca müzakirə predmetinə çevrilən mövzü Putinin söylədikləri yox, sözügedən iclasda Paşinyanın dövlətimizin başçısının çıxışına verdiyi mənasız replika, ümumən, Azərbaycan və Ermənistan liderlərinin bir-birinə qarşı fikirləri oldu.

***

Yeri gəlmişkən, iclas zamanı Nikolun söylədikləri Azərbaycan, Rusiya və Ermənistan lidelərinin çoxdan gözlənilən 25 may görüşünə öncədən kölgə saldı. Sanki, bir neçə gün qabaq İrəvanda keçirdiyi mətbuat konfransında Qarabağın Azərbaycana məxsusluğunu bildirən o deyildi. Nəticəyə gəlmək mümkündür ki, Paşinyan Azərbaycan-Ermənistan nizamlanmasının, belə demək mümkünsə, Qərb sektorunda dayananda bir cür olur, Rusiyaya gələndə başqa cür. Bu qeyri-ciddilik son dərəcə təhlükəli tendensiyadır. Əlbəttə, anlayana...

Ermənistan baş naziri bildirdi ki, Azərbaycan Laçın dəhlizində qeyri-qanuni sərhəd nəzarət-buraxılış məntəqəsi qurub. Dövlətimizin başçısı ona ölkəmizin ərazi bütövlüyünü tanıdığını xatırladanda isə sözünə düzəliş edərək dedi ki, Laçın dəhlizində sərhəd məntəqəsinin qurulması üçtərəfli Bəyanata ziddir.

Bəli, Paşinyan vəziyyəti gərginləşdirən ritorikaya üstünlük verdi. Halbuki buna ehtiyac yox idi. Çünki cənab İlham Əliyev çıxışında ölkəmizin şimaldan cənuba və şərqdən qərbə uzanan nəqliyyat qovşaqlarının mərkəzində yerləşdiyini bildirmiş, mövcud xüsusda Zəngəzur dəhlizinin əhəmiyyətini vurğulamışdı. Paşinyan özünün mənasız məntiqi ilə "Zəngəzur dəhlizi" ifadəsinin Azərbaycanın Ermənistana qarşı ərazi iddiası kimi anladı.

Əslində, Nikolun söylədikləri bəhanədir. Həm də ona görə bəhanədir ki, Ermənistanın baş nazirinin istinad etdiyi 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatda Azərbaycanın digər ərazilərini Naxçıvanla birləşdirən yoldan söhbət açılır. Bu yola dövlətimizin başçısı "Zəngəzur dəhlizi" deyir və onun fikri artıq beynəlxalq terminə çevrilib. Bəs, Paşinyan nəyə qarşı çıxır? Prinsipcə, Azərbaycanın ərazi bütövlüyünü tanıyan dövlətin rəhbəri bu sayaq qəbuledilməz ritorikaya baş vurmamalıdır. O zaman düşünək görək, Paşinyanın fikri nədir?

Hesab edirik ki, suala cavabı Rusiya və Ermənistan liderlərinin ikitərəfli görüşündə V.Putinin özü verdi. Deyəsən, Kreml rəhbəri Paşinyanın davamlı şikayətləri fonunda onun söhbəti nəyə gətirdiyinin fərqində idi. Aydın görünürdü ki, Azərbaycanın 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın müddəalarını pozması ritorikasına köklənmiş Nikol, əslində, ümumən Rusiyanın sülhyaratma missiyasının əhəmiyyətsizliyini vurğulayır. Putinin məsələyə münasibətindən söz açmazdan əvvəl bildirək ki, erməni baş nazirin belə dəst-xətt götürməsi təsadüf sayılmamalıdır.

***

Məlumdur ki, Moskva mayın əvvəllərindən aktivləşən Qərb vasitəçiliyinin nəticələr verdiyini görmüşdü. Tez bir zamanda üçtərəfli görüş keçirmək təşəbbüsü də bundan qaynaqlanmışdı. Rusiyanın Xarici işlər naziri Sergey Lavrovun bir neçə gün əvvəlki açıqlamasından isə bu duyulmuşdu ki, Moskva öz missiyasını, Qərb nizamlamasının, bir növ, davamı kimi görür. Yəni, Rusiya dolayısı ilə bildirir ki, Cənubi Qafqaz liderləri dünyanın harasında nə danışıq aparmalarından asılı olmayaraq, əsas nəticəyə Moskvada nail olmalıdırlar.

Qeyd edək ki, 25 may təmasından əvvəl bir sıra ekspert dairələrinin hədəfində sülh müqaviləsinin dayanacağı, vacib sənədin imzalanacağı vurğulanırdı. Paşinyan isə, görünür, ona Qərbdən gələn direktivlərə adekvat davrandı və faktiki olaraq Rusiyanın sülhyaratma təşəbbüsünü heçə endirmək yolunu tutdu. Bu, həm də onu göstərdi ki, Qərb öz təşəbbüsünə Rusiyanı şərik qoşmaq, beləliklə də, ikincinin siyasi dividend qazanmasına maneçilik törətmək əzmindədir. Paşinyanın Ali Avrasiya İqtisadi Şurasının geniştərkibli iclasındakı təxribatçılığı da bunu rəhbər tutmuşdu.

***

Putinin ona cavabına gəldikdə, Rusiya lideri Paşinyana ilk növbədə ölkəsinin öz prinsiplərinə sadiqliyini bildirdi. Prinsip isə dəyişməzdir – üçtərəfli Bəyanat: "Laçın dəhlizi ilə bağlı üçtərəfli bəyanatımızla bağlı mövqeyimizi bilirsiniz. Biz bu məsələdə mövqeyimizi heç vaxt dəyişməmişik. Və bilirsiniz ki, həm erməni dostlarımızla, həm də Azərbaycanla müzakirələrdə biz həmişə bu mövqedən çıxış etmişik və indi də ona sadiqik. Hər şey bizim bu üçtərəfli bəyanatımızın ruhuna və hədəfinə uyğun olmalıdır. Bizim buradakı mövqeyimiz dəyişməyib".

Maraqlıdır, Paşinyan Qərb nizamlanması xətti üzrə gedən danışıqlarda üçtərəfli Bəyanata söykənmir. Elə ki, Rusiyaya gəlir, həmin sənədi "işə salır". Bu yerdə Putin sözügedən bəyanata sadiqlik bildirməklə hesab edə bilər ki, Nikolun könlünü alacaq. Əslində isə Paşinyanın gözlədiyi də elə budur. Təxminən belə: sən başını üçtərəfli Bəyanatla qat. Deməli, Moskva başını bu bəyanatla qatacaq, Paşinyan sənəd kontektstində mənasız məsələləri gündəmə gətirib etiraz bildirəcək, əslində isə Kremlin Qərbin pozitiv sühyaratma missiyasına şərikliyinə imkan verməyəcək.

Sonda qeyd edək ki, indiki məqamda Putinin Rusiyanın Qarabağda müharibəyə son qoyduğunu bildirməsi və mövcud xüsusda ayrı-ayrı məqamları yekun nəticəyə aparan pozitiv ab-hava göstəricisi kimi təqdim etməsi heç bir önəm daşımır. Çünki Ermənistan üçün prinsipial yanaşma Azərbaycanın üçtərəfli Bəyanata əməl etməməsidir və buna görə günahkar qismində Rusiyanı görür. Üstəlik, Putin də yeni nə isə demir. O, ümumi ifadələrlə məhdudlaşır.

Gəlinən yekun nəticə isə budur ki, Azərbaycan-Ermənistan münasibətlərinin nizamlanmasının Moskva seqmenti İrəvanın manipulyasiyaları üçün vaxt qazandırır. Hərçənd bu seqmentin sırf sözügedən məqsədi güddüyünü də demək mümkünsüzdür. Rusiya vaxtı yalnız özü üçün udmaqda maraqlıdır. Hərçənd vaxtın onun əleyhinə işlədiyi də aşkardır.

*Ə.CAHANGİROĞLU,*
*"Xalq qəzeti"*

---

# Küllənmiş ocağı körükləyənlər

## İrəvanın ikibaşlı sülh oyunu növbəti dəfə aşkar oldu

**SSRİ adlı qırmızı imperiyanın dağılması prosesinə "xeyir-duasını" vermiş Qarabağ münaqişəsinin həllini şərtləndirən sülh müqaviləsinin imzalanmasını uzatmağa meyilli görünən Moskva tarixin arxivinə gömülmüş həmin ittifaq dövlətinə olan nostaljisini nümayiş etdirməkdən çəkinmədi. Rusiyanın vasitəçiliyi ilə baş tutan, faktiki fiaskoya uğradığı kəskinliklə söylənilə biləcək üçtərəfli sülh danışıqlarının 25 may raundu daha çox gündəlikdəki ana mövzuya dəxli olmayan ismarıclar, çağırışlar və jestlərlə yadda qaldı.**

### Qonaqdan "ailə üzvünə" diplomatiya dərsi

Əslində, Kremlin Azərbaycan və Ermənistan arasında sülhyaratma missiyasına uyğun düzənlədiyi danışıqlarla eyni gündə Avrasiya İqtisadi İttifaqına üzv dövlət başçılarının sammitinin təşkil olunması ilk baxışdan təsadüfi sayıla bilər. Amma bu tədbirlərin eyni məkanda və zamanda çulğaşması iki görüş-hadisə arasında müəyyən bağların olduğunu deməyə əsas verir. Elə iqtisadi-ticari mövzuda gedən Aİİ Şurasının "dəyirmi masa" arxasındakı müzakirələrində qurumun üzvü Ermənistanın baş naziri ilə toplantıya qonaq qismində dəvət olunmuş Azərbaycan Prezidenti İlham Əliyev arasında Laçın yolundakı sərhəd nəzarət-buraxılış məntəqəsi ilə bağlı gərgin dialoqun özü bəzi ehtimallara yol açır. Amma gəlin, həmin dialoqda Aİİ ailəsinin üzvünə – Nikol Paşinyana qonağın – İlham Əliyevin verdiyi diplomatiya dərsinə diqqət yetirək: "Dəhliz" sözü kiminsə ərazisinə göz dikmək demək deyil. Bu, beynəlxalq termindir və bu terminologiya ilə tanış olan ona bu gün Ermənistanın baş naziri kimi məna verməzdi. Laçın-Xankəndi yolu açıqdır, sərhəddə bütün beynəlxalq normalara uyğun nəzarət-buraxılış məntəqəsi qoyulub. Bu nəzarət-buraxılış məntəqəsi Rusiya sülhməramlı kontingentinin postundan 20 metr aralıda yerləşir. Bu gün həmin nəzarət-buraxılış məntəqəsindən erməni milliyyətindən olan Azərbaycan vətəndaşları və Xankəndi şəhərindən təcili yardım maşınları keçir".

Aİİ Sammitinin mötəbər qonağının diplomatik eyhamlarından nəticə çıxarmayan Hayastanın baş naziri daha aydın və sərt cavab eşitməli oldu. Dövlət başçımız ona bir daha xatırlatdı ki, Azərbaycanın Ermənistana qarşı ərazi iddiaları yoxdur və bu cür ittihamlar absurddur: "Bunu təsəvvür etmək üçün güclü fantaziyaya malik olmaq lazımdır".

Erməniliyindən heç cür əl çəkə bilməyən, bu səbəbdən verdiyi vədindən, dediyi sözündən qaçan Paşinyanın növbəti cığallığı gözlənilən idi.

### Tokayevdən SSRİ nostaljisinə kəskin reaksiya

"Burada Sovet İttifaqının keçmiş respublikalarıdır. Biz vahid xalqlar ailəsində yaşamışıq və əfsuslar olsun ki, burada bizim xeyli ziddiyyətlərimiz var, silahlı münaqişələrə gedib çıxır. Rusiyada da məlum istiqamətdə eynisi baş verir. Buna görə də bütün bunlar olduqca həssasdır, bütün bunlar insan faciələri ilə bağlıdır. Biz hamımız maraqlıyıq ki, bütün bu problemlər həll olunsun...".

V.Putin problemlərin necə, hansı yolla həllindən danışmasa da, işarəni haralara vurduğu aydın idi. Bu işarənən altında nəyin gizləndiyi Aİİ-nin Zirvə toplantısında iştirak edən keçmiş Sovet İttifaqının subyektlərinin indiki liderlərinin hamısı yaxşı bilirdilər. Amma "çağırışa" reaksiya bir eks-subyektin – Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin dilindən səsləndi.

Çıxışında Avrasiya İqtisadi İttifaqının daxilində Rusiya və Belarusun timsalında müttəfiq dövlətin mövcudluğuna diqqəti çəkən Prezident Tokayev bunu dünya siyasi tarixində özünəməxsus fenomen adlandırdı. Qazaxıstan Prezidentinin Rusiya liderinin problemlərdən danışarkən SSRİ dönəmini xatırlamasına reaksiyası isə maraqlı və kəskin oldu: "Vahid siyasi, hüquqi, hərbi, iqtisadi, valyuta, mədəni, humanitar məkana, İttifaq hökumətinə, ittifaq parlamentinə malik iki ölkə – bir dövlət. Üzr istəyirəm, hətta, nüvə silahı hər ikisinə aiddir. Amma inteqrasiyanın Qazaxıstanın və Qırğızıstanın təklif etdiyi başqa bir səviyyəsi də var və bu reallıqla hamımız hesablaşmalıyıq. Bu şərtlər daxilində necə işləyəcəyik? Bu, konseptual sualıdır".

Bununla kifayətlənməyən Qazaxıstan lideri Aİİ-nin Sammitindən bir gün sonra mətbuat katibi Ruslan Jeldibayın dili ilə Astananın bu məsələyə yanaşmasını konkretləşdirdi: "Qazaxıstan hər hansı İttifaq dövlətini yaratmaq, yaxud ora daxil olmaq niyyətində deyil. Aİİ-nin çərçivəsindən kənara çıxmaq onun məqsəd və prinsiplərinin, təşkilatın nizamnamə sənədlərində göstərilən vəzifələrin pozulması deməkdir". Kifayət qədər aydın və sərrast reaksiyadır.

### Erməni revanşizminin qarşısına sədd çəkilməlidir

Ortada danılmaz bir həqiqət var və onun üzünə dik baxmalıyıq. Bəli, erməni milləti hələ də 44 günlük müharibədəki məğlubiyyəti milli alçalma faktı kimi yaşayır. Bu hiss onlara rahatlıq vermir. Və bu hissin gətirdiyi yorğunluq, qorxu, təsəvvür etdikləri ilə reallıq arasındakı dərin uçurum, yeni nəsil üçün isə zülmət perspektivin əmələ gətirdiyi dəhşətli apatiya onları küçəyə çıxıb "miatsum!" bağırmaq istəyinin qarşısını kəsir. Bunları yazanda erməni cəmiyyətinin böyük kəsiminin bu gün üzləşdiyi və anladığı gerçəkiliyi nəzərdə tuturuq.

Amma üstü küllənmiş kimi görünən erməninin şovinizm, millətçilik, revanşizm ocağının sabah yenidən alovlanmayacağına bu gün heç kəs təminat verə bilməz. Həm də bu səbəbdən sayıqlığı itirməməliyik. Yaxın taktikamız Qarabağımızda qalmış, daha doğrusu, qalmağa qərar vermiş bir ovuc erməninin reinteqrasiyası, gələcəyə strateji planımız isə erməni revanşizminin qarşısına keçilməz sədd çəkməkdir. Çünki erməni ləyaqətli yox, etibarsız düşməndir.

Azərbaycan və Ermənistan arasında sülh danışıqlarında özünü əsas vasitəçi kimi aparan Moskva bu dəfə də Bakının ümidlərini doğrulda bilmədi. Bunu Rusiya liderinin özü də etiraf etməli oldu və bir həftədən sonra iki ölkənin baş nazirlərinin iştirakı ilə yenidən görüşməyi təklif etdi: "Biz bir həftədən sonra görüş barədə razılığa gəldik. Bu gün cümə axşamıdır. Ermənistan, yaxud Azərbaycan nümayəndə heyətlərinin hər hansı təklifi varmı? Çünki həmkarlar bu barədə öz aralarında razılaşmalıdırlar. Bir həftədən sonra normaldır?". Tərəflər onunla razılaşdılar. Qarşıdakı cümə axşamı iyunun 1-nə təsadüf edir. İntəhası, bu halda tarix heç də təsadüfən seçilməyib. Axı, iyunun 1-də Kişinyovda Aİ Şurasının rəhbəri Şarl Mişelin vasitəçiliyi ilə Azərbaycan, Ermənistan, Fransa və Almaniya liderlərinin dördtərəfli görüşü planlaşdırılıb. Bu tarixin seçilməsi görəsən təsadüfidirmi?

*İmran BƏDİRXANLI,*
*"Xalq qəzeti"*



### Ekspert rəyi



**Rasim MUSABƏYOV,**
**Milli Məclisin deputatı, politoloq**

Bundan sonra SSRİ-nin bərpasına inananların siyasətdə yeri yoxdur. Bunun üçün edilən cəhdlər də faydasız və mənasızdır. Rusiya-Belarus ittifaq dövlətindən savayı heç kəs buna yaxın durmur. Həmin iclasda Qazaxıstan Prezidenti Tokayev Putini birmənalı olaraq başa saldı ki, bu məsələdə münasibətləri aydınlaşdırmaq lazımdır. Yəni Avrasiya İqtisadi İttifaqındakı ölkələri vahid formatda daha sıx birləşdirmək kimi ideya heç də Qazaxıstanın, eləcə də digərlərinin maraqlarına uyğun deyil.

Azərbaycana gəldikdə isə, Prezident İlham Əliyev oradakı iclasdan əvvəl də bəyan etmişdi ki, Bakı dövlətüstü idarəetmə strukturuna malik qurumlarda iştirak etmək niyyətində deyil. Çünki biz Qoşulmama Hərəkatının üzvüyük, o cümlədən Avropa İttifaqında, Avrasiya İqtisadi Birliyində iştirakımız planlaşdırılmır. Yəni ölkələrlə ikitərəfli müqavilələr əsasında münasibətləri inkişaf etdirir. Amma, bu, heç də o demək deyil ki, Bakı Aİİ tipli qurumların toplantılarında müşahidəçi qismində iştirakdan boyun qaçıracaq. Bu qurumun daxilində gömrük, ticarət sahələrində müəyyən qaydalar işləyir və Azərbaycanın Ermənistandan başqa, buradakı ölkələrlə qarşılıqlı iqtisadi əməkdaşlığı var. Və Aİİ-də qəbul edilən qərarlar bizim ikitərəfli əlaqələrimizə öz təsirini göstərə bilərsə, təbii ki, bu qurumun işində iştirak etmək, lazım gələndə təkliflər vermək müsbət haldır. Sadəcə, Azərbaycan bu məsələdə nə boynuna öhdəlik götürüb, nə də müstəqil siyasətinə məhdudiyyət qoyacaq.

# "Biz tam iqtisadi müstəqilliyə nail olmuşuq"

(əvvəli 1-ci səhifədə)

Azərbaycan lideri ötən il respublikamızın Avrasiya İqtisadi Birliyi ilə əmtəə dövriyyəsinin 31 faiz artdığını və 4,7 milyard dollar təşkil etdiyini vurğuladıqdan sonra diqqəti cari ilin keçən dörd ayına yönəldib: "Bu ilin yanvar-aprel aylarında qarşılıqlı ticarətin həcmi daha 38 faiz artıb. Ötən il Avrasiya İqtisadi Birliyinə üzv ölkələrin Azərbaycanın xarici ticarət dövriyyəsində payı 9 faizə yaxın olub. Biz əmtəə dövriyyəsinin gələcək artımında böyük potensialın olduğunu görürük. Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat yollarının coğrafi kəsişməsində yerləşir. Ölkəmizin nəqliyyat-logistika infrastrukturu bütün istiqamətlərdə daşımaları həyata keçirməyə imkan verir".



Dövlətimizin başçısı tərəfindən xatırladılan göstəricilərin əldə olunmasını bir sıra amillər şərtləndirib. Xüsusilə respublikamızın tranzit potensialının reallaşdırılması üçün icra olunan layihələr bu məsələdə son dərəcə əhəmiyyətli rol oynayıb. Belə ki, ölkəmizin nəqliyyat infrastrukturunun müasir dünya standartlarına uyğunlaşdırılması, tranzit potensialının daha da artırılması ilə bağlı gerçəkləşdirilən layihələr, habelə qlobal miqyaslı təşəbbüslər Azərbaycanı sosial-iqtisadi inkişafı sürətləndirməklə ölkəmizi mühüm nəqliyyat qovşağına və dəhlizlərin keçdiyi məkana çevirib. Avtomobil yolları və dəmir yolu xətlərinin beynəlxalq standartlar əsasında yenidən qurulması, paytaxtda və regionlarda beynəlxalq aeroportların, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tikintisi, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin inkişafı istiqamətində gerçəkləşdirilən layihələr Azərbaycanın nəqliyyat infrastrukturunun inkişafında əhəmiyyətli rol oynayıb, ölkəmizin tranzit potensialını daha da gücləndirib.

Yuxarıda qeyd edilən yüksək statistik göstəricilərin əldə olunmasında biznes əlaqələrinin təşviqi də mühüm rol oynayıb. Belə ki, son 20 ildə Azərbaycanın iqtisadi potensialının güclənməsi, reallaşdırılan diversifikasiya siyasəti, müasir texnologiyalara əsaslanan və rəqabətqabiliyyətli məhsul istehsal edən yüzlərlə müəssisənin fəaliyyətə başlaması da təbii ki, respublikamızın xarici iqtisadi-ticari əlaqələrinin genişlənməsini şərtləndirib. Bu, ölkə rəhbərinin Ali Avrasiya İqtisadi Şurasının iclasındakı çıxışında öz ifadəsini tapıb. Belə ki, dövlətimizin başçısı Azərbaycan iqtisadiyyatının öz-özünü təmin etdiyini və kənardan dəstəyə ehtiyac olmadığını, son 20 il ərzində ölkəmizin ümumi daxili məhsulunun 3 dəfədən çox artdığını, həmçinin yoxsulluğun səviyyəsinin təxminən 50 faizdən 5 faizə endiyini bildirib.

Azərbaycan lideri respublikamızın iqtisadi uğurlarından bəhs edərkən, xarici dövlət borcunun ümumi daxili məhsulun demək olar ki, 9 faizindən aşağı səviyyəsində olduğunu və bu göstəricinin ildən-ilə azaldığını, həmçinin valyuta ehtiyatlarının xarici borcu 10 dəfə üstələdiyini diqqətə çatdırıb.

Yeri gəlmişkən, xatırladaq ki, daxili dövlət borcalmasının həcminin artırılması, dövlət qiymətli kağızlar bazarının inkişafının dəstəklənməsi, dövlət borcunun orta və uzunmüddətli gəlirlik əyrisinin formalaşdırılması və "Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya"sına uyğun olaraq xarici borcun daxili borcla əvəzlənməsi istiqamətində məqsədyönlü borclanma siyasətinin həyata keçirilməsi nəticəsində 2022-ci ilin sonu ilə müqayisədə birbaşa daxili dövlət borcunun səviyyəsi mütləq ifadədə 180,5 milyon manat məbləğində artmaqla aprelin 1-nə 4 milyard 368,7 milyon manat təşkil edib.

Göründüyü kimi, Azərbaycan dövlət borcu sahəsində davamlı şəkildə müsbət göstəricilər əldə edir. Bu, vurğulandığı kimi, xarici dövlət borcunun daxili dövlət borcu ilə əvəzlənməsinin, dövlət borcunun idarəsi üzrə strategiyanın uğurla gerçəkləşdirilməsinin nəticəsidir.

Respublikamız regional iqtisadiyyatın lokomotivinə çevrilib, beynəlxalq Şərq-Qərb, Şimal-Cənub nəqliyyat qovşağı kimi məsuliyyətli vəzifəni layiqincə yerinə yetirib. Bütün bunların sayəsində təbii olaraq respublikamızın regional və dünya iqtisadiyyatında rolu və əhəmiyyəti xeyli yüksəlib.

Respublikamızda xammal sektorunun inkişafı baxımından da bu nəqliyyat dəhlizlərinin gerçəkləşməsi ölkəmizə böyük fayda verməkdədir. Bu, eyni zamanda, Azərbaycanın həm Şimal, həm də Asiya bazarlarına çıxış imkanlarını da genişləndirir.

Zəngəzur dəhlizinin açılması isə Cənubi Qafqazdan keçən marşrutlar sisteminin fəaliyyətini daha da canlandıracaq. Dəhliz, həmçinin Azərbaycan və İran Culfası arasında dəmiryol xəttinin açılışına və İranın dəmir yollarına çıxış əldə etməyə imkan verəcək. Bununla bərabər, Zəngəzur dəhlizi təkcə dəmir yolları deyil, həm də avtomobil yolları sisteminə malik olacaq. Deməli, bu dəhlizin yaradılması, eyni zamanda, avtomobil əlaqəsinin açılmasına imkan yaradacaq.

Bu fikirlə bağlı dövlətimizin başçısı iclasda deyib: "Azərbaycan Şimal–Cənub Nəqliyyat Dəhlizi layihəsinin fəal iştirakçısıdır. Biz, həmçinin ölkənin əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək, həm də beynəlxalq dəmir yolu marşrutlarının bir hissəsi olacaq Zəngəzur dəhlizinin yaradılması təşəbbüsünü irəli sürmüşük".

Yeri gəlmişkən, Vətən müharibəsində Azərbaycanın tarixi qələbəsi regionumuzda nəqliyyat–kommunikasiya layihələrinin inkişafı üçün yeni imkanlar yaradıb. Zəngəzur dəhlizinin açılması qarşıya önəmli vəzifə kimi qoyulub.

Bu dəhlizin fəaliyyətə başlamasına Ermənistan mane olmaq istəsə də, dünyada söz sahibi olan ölkələr tərəfindən buna böyük maraq göstərilir. Çin, Rusiya və Türkiyə bu dəhlizin açılmasında israrlıdır. Üstəlik, Avropa ölkələri də bu dəhlizin açılmasını dəstəkləyir.

Tarixi İpək yolu üzərində geniş iqtisadi zolağın yaradılmasının fəal dəstəkçisi olan Azərbaycan, həm də digər dəhlizlərlə müqayisədə yüklərin ölkəmizin ərazisindən keçməklə müxtəlif istiqamətlərə tranzit daşımalarının səmərəli təşkilinə etibarlı təminat verir, daha əlverişli şərtlərlə qısa müddətdə, təhlükəsiz və vaxtında çatdırılmasına, tranzit daşımaların həcminin dəfələrlə artmasına imkan yaradır.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***

**Xəbər verdiyimiz kimi, banan idxal edən şirkətlərdən biri Ermənistana çəkisi 1 ton olan narkotik maddə – kokain keçirərkən ifşa olunub. Məlum olay Ermənistan cəmiyyətində, eyni zamanda, bu dövlətin parlamentində müzakirəyə, bəzi hallarda isə ciddi gərginliyə səbəb olub.**

Qeyd edək ki, Ermənistanda narkotik tranziti və ticarətinin geniş yer aldığı bundan öncə də məlum idi. Lakin sözügedən fakt bu dövriyyənin miqyası ilə yanaşı, onun ciddi siyasi qüvvələr tərəfindən himayə edildiyini də ortaya çıxarmış oldu.

Hadisə ilə bağlı məlumat verən Ermənistanın baş naziri Nikol Paşinyan faktı təsdiqləməklə yanaşı, qeyd edib ki, narkotiki ölkəyə keçirən şirkət "Respublika" partiyasından olan sabiq deputat Miqran Poqosyana məxsusdur. Baş nazir qeyd edib ki, artıq Milli Təhlükəsizlik Xidməti məlum cinayətlə bağlı ilk həbsini həyata keçirib və araşdırmalar davam edir.

## Hayastanda narkobiznesə siyasi fiqurlar nəzarət edirmiş



***

1 tonluq kokainin ələ keçirilməsi və bu narkotikin ölkəyə sabiq deputat Miqran Poqosyana məxsus şirkət tərəfindən gətirilməsi Ermənistanda narkotik mafiyasının başında mühüm siyasi fiqurların dayandığını göstərir. Bu fakt sübut edir ki, Ermənistan siyasi elitasında narkotiklərin qanunsuz dövriyyəsi ilə məşğul olan şəxslər var və onların əsas gəlir mənbəyi "ağ ölüm"dəndir.

Bu, Ermənistanda bəzi deputatlar tərəfindən də təsdiqlənməkdədir. Nümunə üçün qeyd edək ki, Ermənistan parlamentinin müxalif deputatı Andranik Tevanyan bir neçə gün öncə mətbuata verdiyi açıqlamada deyib: "Ermənistan hökuməti narkotik mafiyasına çevrilib və bunlarla bağlı əsaslı şübhələrimiz var. Düşünmürəm ki, Ermənistanda bir milyard dollarlıq dövriyyəni təmin edə biləcək kimsə var. Hakimiyyətlə heç bir əlaqəsi olmayan kimsə belə riskli addımı ata bilməz".

Deputat Ermənistanın gömrük sistemini də tənqid edib, baş verənlərə görə onların da məsuliyyət daşıdığnı bildirib.

Xatırladaq ki, mayın 17-də İtaliya mediasında Ermənistanın narkotiklərin qanunsuz tranzitindəki rolu ilə bağlı konkret faktlara söykənən məlumat yer almışdı. Məlumatda bildirilirdi ki, yerli limanların birində 78 tonluq banan yüklərinin arasında gizlədilən və çəkisi 2,7 ton olan kokain aşkar edilib. İşin ən maraqlı tərəfi isə İtaliyada aşkar edilən bu kokainin öncə Ekvadordan Ermənistana gətirildiyi, daha sonra Ermənistan üzərindən Avropaya nəql olunmasıdır.

İtaliya mediasının gündəmə gətirdiyi bu məlumat narkotik maddələrin qanunsuz yollarla Avropaya daşınmasında Ermənistanın mühüm rol oynadığını göstərir.

***

Ermənistanda 1 ton kokainin hüquq-mühafizə orqanları tərəfindən aşkarlanması faktı, eləcə də bu ölkənin narkotranzit əhəmiyyəti ilə bağlı dünya mediasında yer alan informasiyalar ölkənin dünyanı sadəcə yalanları ilə deyil, həm də narkotiklə zəhərlədiyini isbatlayır. Qeyd edək ki, hələ 2011-ci ildə Almaniyanın "Bild" nəşrində narkotik vasitələrin Avropaya daşınmasında Ermənistanın rolundan bəhs edən geniş məqalə yer almış, həmin məqalədə ermənilərin işğaldakı Azərbaycan torpaqlarından da öz məkirli məqsədləri üçün istifadə etdiyi qeyd olunmuşdu. 2000-ci illərin əvvəllərindən bugünə qədər Qərb mediasında bu qəbildən olan yüzlərlə məqalə yayımlanıb ki, bu da Ermənistanın bütün Avropa üçün ciddi təhlükə mənbəyi olduğunu göstərir. Bütün bunlar onu söyləməyə əsas verir ki, ölkədə dövlət səviyyəsində həyata keçirilən narkotik biznesinə qarşı mübarizədə dünya ictimaiyyəti öz səylərini birləşdirməli, İrəvanın "ağ ölüm" siyasətinin qarşısını hamılıqla almalıdır.

***Seymur ƏLİYEV***

# Moskva görüşünün əks-sədası



## *Haylar Rusiyanın vasitəçiliyi ilə keçirilən görüşdən narazıdırlar*

(əvvəli 1-ci səhifədə)

Politoloq Stepan Danielyan bildirib ki, istənilən hökumət iki komponentdən ibarət legitimliyə malik olmalıdır – xarici və daxili. O, qeyd edib ki, hökumət ya öz xalqının etimadını qazanır, ona arxalanaraq xarici dünya ilə münasibət qurur, ya da hakimiyyətini qorumaq üçün xarici aktorlara arxalanır və onların köməyi ilə xalqını sıxışdırır: "Eyni zamanda, ikinci variantda xalqına qarşı xarici qüvvələrdən istifadə etmək üçün milli maraqlarının ziyanına güzəştə getməli olur. Bu gün Ermənistanda ikinci variantdır. İndiki hakimiyyət bizim milli maraqlarımızı güzəştə gedir və xarici aktorların dəstəyini alır. Bunun üçün isə cəmiyyətin parçalanmasını təmin etməlidir. Təsadüfi deyil ki, bu hakimiyyətin təbliğatçılarının bütün tezisləri xarici siyasət üzərində qurulub: biz kimi himayədar seçirik və kimə güzəştə gedirik?".

Politoloq Armen Ayvazyan Moskva görüşü ilə bağlı gəldiyi qənaəti belə ümumiləşdirib: "Nikol Paşinyan İlham Əliyevin də qonaq qismində iştirak etdiyi Ali Avrasiya İqtisadi Şurasının iclasında hamının gözü önündə Ermənistan Respublikası hakimiyyət orqanlarının Qarabağı Azərbaycanın bir hissəsi kimi tanıdığını bir daha rəsmən bəyan etdi. Paşinyan görüşdə Laçın (ermənilər bu gözəl diyarımızın adına "Berdzor" yarlığı yapışdırıblar) yolunun bağlanması (?) ilə bağlı bir-iki qeyri-adekvat söz deyə bildi. Həm də özlüyündə danışan faktları təqdim etmədən. Məsələn, "blokada"dan əvvəl "Artsax"a nə qədər insan və mal daxil olub və indi vəziyyət necədir? Paşinyana sanki qadağa qoyulmuşdu və onun nəinki Bakıda "qanunsuz olaraq saxlanılan erməni əsirlər", hətta Ermənistan ərazisinin Azərbaycan tərəfindən davam edən "işğalı" barədə bir söz deməyə cəsarəti çatmadı. Ermənistanın mərhələli şəkildə bölünməsi siyasəti Vaşinqton, Moskva, Ankara və Bakı arasında razılaşdırılıb və ya razılaşdırılır. Növbəti mərhələdə "Artsax"dan ermənilərin çıxarılması və Ermənistanın cənuba və şimala gedən strateji yollarının kəsilməsi planlaşdırılır. Paşinyan xuntasına "Artsax"ın ermənisizləşdirilməsi problemini həll etmək və Ermənistanın cənubuna və şimalına gedən strateji yolları mümkün qədər rəvan və minimum itki ilə Azərbaycanın nəzarətinə vermək tapşırılıb. Bu fəlakətli proses erməni xalqından gizli saxlanılır. Hakimiyyət xalqın sayıqlığını daim səngidir, eyni zamanda, ardıcıl və məqsədyönlü şəkildə ermənilərin müqavimət ruhunu öldürür. Əgər Ermənistan Respublikasının Müstəqillik Bəyannaməsi ilə qismən təsbit olunmuş xalqımızın mövcudluğu üçün həyati tələbləri bütöv bir xalq kimi təsdiqləməyə, təşkil etməyə və yenidən başlamağa vaxtımız olmasa, onda biz Ermənistan dövlətinin labüd məhvinin, Vətəndən tam məhrumiyyətin və qismən türkləşmənin şahidi olacağıq".



***

Bu arada Hayastanın ilk xarici işlər naziri, "İrs" partiyasının rəhbəri Raffi Ovannisyan dilə gəlib. O, mayın 26-da jurnalistlərə açıqlamasında deyib: "Bunu sülh müqaviləsi adlandırıb-adlandırmamaqdan asılı olmayaraq, bu adam (Nikol Paşinyanı nəzərdə tutur – S.H.) hər şeyi təslim edəcək və müharibə gətirəcək. Bəs müharibə zamanı biz özümüzü qorumaq üçün nə edirik? Bizi bu fəlakətə hazırlamaq üçün dövlət qurumları tərəfindən hansı təşkilati işlər aparılır?

Onun sözlərinə görə, beş il əvvəl "məxməri inqilab" zamanı erməni xalqı layiqli yüksəliş yaşayıb və bu, əvvəlki illərin səhvlərinə, əvvəlki hakimiyyətin davranışlarına cavab idi. Təəssüf hissi ilə qeyd edib ki, xalqın mübarizəsi özəlləşdirilib və bir nəfərin mülkiyyətinə çevrilib. Ovannisyan bildirib ki, bu adam hakimiyyət əldə etmək, ondan həzz almaq və ola bilsin müəyyən proqramlar rellaşdırmaq məqsədi güdürdü: "Biz beş ildən sonra görünməmiş tənəzzül yaşayırıq, dövlətçiliyi öz əlimizlə itirmək təhlükəsi realdır. Əgər biz birlikdə heç nəyi dəyişməsək, o zaman ölkəmizi "soyqırımı" proqramının icrasına təhvil verəcəyik. Nikol Paşinyan Ermənistanın suveren ərazilərini şüurlu şəkildə təhvil verən, insanları qəsdən ölümə sürükləyən və konstitusiyanı pozan cinayətlərini artıq açıq şəkildə etiraf edir".

Ovannisyan əlavə edir ki, Paşinyan artıq legitimliyini itirib: "Onun könüllü getməyə cəsarəti və ləyaqəti çatmır, dövlət orqanları isə tədbir görmür. Baş verənlər dövlətə, millətə, vətəndaşa xəyanətdir. Onlar Ermənistanı "soyqırımı" ilə hədələyən (?) düşmənlərə təslim etmək istəyirlər. Bunu etməklə, bu şəxs özü də "soyqırımı"nın iştirakçısına çevrilir. Xalq mütləq meydanlara çıxmalıdır, bu gün kollektiv məsuliyyətə ehtiyacımız var, bunun sayəsində biz mövcud vəziyyəti dəyişə bilərik".

"İrs" partiyasının rəhbəri qeyd edib ki, yaranmış vəziyyətdə dövlət orqanları tədbirlər görməli, kütləvi iğtişaşların qarşısını almaq üçün hakimiyyətin dinc yolla keçidini təmin etməlidir: "Əgər belə deyilsə, o zaman xalq vətəni öz əlinə almalıdır. Dəyişikliklər ona görə lazımdır ki, biz Ermənistanı itiririk, qarşıda bizi müharibə gözləyir".

***

**Erməni siyasi ekspertlərin və partiya sədrlərinin Moskva görüşünə münasibətini şərh edən Cənubi Qafqaz Araşdırmaları Mərkəzinin rəhbəri, politoloq Fərhad Məmmədov** bildirib ki, onların yanaşması həm nəzəri, həm də regionda yaranmış yeni reallıqlar nöqteyi-nəzərindən əsassızdır: "Azərbaycan və Ermənistan bir-birinin ərazi bütövlüyünü tanımağa hazırlaşsalar da, erməni elitasının bir hissəsi sülh müqaviləsinin bağlanmasının mümkünsüzlüyünü əsaslandırmağa çalışır. Onlar Ermənistan qanunvericiliyinin, guya, Paşinyana Azərbaycanın ərazi bütövlüyünü tanımasını qadağan etməsi ilə bağlı düzgün olmayan iddialar irəli sürürlər.

1990-cı il avqustun 23-də Ermənistan Müstəqillik Bəyannaməsini qəbul edib. Bəyannamədə Ermənistan SSR Ali Sovetinin 1 dekabr 1989-cu il tarixli aktında Qarabağın Ermənistanın tərkibində hesab edilməsinə istinad var. Öz növbəsində, 1995-ci il Ermənistan Konstitusiyasının preambulasında Müstəqillik Bəyannaməsinə istinad olunub. Konstitusiyanın preambulasında dolayısı ilə 1989-cu il aktına istinad edildiyinə görə, Ermənistan isteblişmentinin bir hissəsi Qarabağın Azərbaycanın tərkib hissəsi kimi tanınması ilə bağlı sülh sazişinin Konstitusiyaya zidd olduğunu iddia edir. Paşinyan vaxt udmaq üçün Konstitusiyaya düzəlişlər edilməsi məsələsini qaldıra bilər, amma reallıqda buna ehtiyac yoxdur".

Fərhad Məmmədovun sözlərinə görə, məsələ ondadır ki, Ermənistanın digər aktorlarla imzaladığı bütün fundamental sazişlər ərazi bütövlüyünün tanınmasını nəzərdə tutur: "Beynəlxalq qanunlara görə, Ermənistanın ərazisi 29,8 min kvadratkilometrdir. Ermənistanın Rusiya ilə ikitərəfli müdafiə sazişlərində, 1992-ci il Kollektiv Təhlükəsizlik Müqaviləsində, eləcə də digər dövlətlərlə imzalanmış bütün müqavilələrdə Ermənistanın ərazisi 29,8 min kvadratkilometr nəzərdə tutulur. Əgər bütün bu sazişlər Konstitusiya Məhkəməsi tərəfindən Ermənistan Konstitusiyasına uyğun olaraq təsdiq edilibsə, o zaman Qarabağın Azərbaycanın tərkib hissəsi kimi tanınması ilə bağlı sülh sazişi də Ermənistan Konstitusiyasına zidd ola bilməz. Əks halda, istisnasız olaraq, bütün mühüm beynəlxalq müqavilələr də Konstitusiyaya zidd elan edilməlidir. Bu mənada, Paşinyana Azərbaycanın ərazi bütövlüyünü tanımağa heç nə mane olmur".

***Səxavət HƏMİD,***
***"Xalq qəzeti"***

**Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 26 may tarixli Fərmanı ilə təsdiq edilmişdir**

# Şərqi Zəngəzur İqtisadi Rayonunda 2 saylı Bərpa, Tikinti və İdarəetmə Xidmətinin nizamnaməsi

**1. Ümumi müddəalar**

1.1. Şərqi Zəngəzur İqtisadi Rayonunda 2 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti (bundan sonra – Xidmət) Laçın və Kəlbəcər rayonlarına (bundan sonra – müvafiq ərazi) əhalinin qayıdışı ilə əlaqədar çoxmənzilli binaların və fərdi yaşayış evlərinin tikintisinin təşkili, bu qaydada tikilmiş çoxmənzilli binaların idarə edilməsi, habelə müvafiq ərazidə abadlaşdırma, yaşıllaşdırma və mənzil-kommunal təsərrüfatı sahələrində (bundan sonra – müvafiq sahə) fəaliyyət göstərən publik hüquqi şəxsdir.

1.2. Xidmət öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, bu Nizamnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, digər normativ hüquqi aktları rəhbər tutur.

1.3. Xidmət öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət və yerli özünüidarəetmə orqanları ilə, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Xidmət ümumdövlət və ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olur. Xidmət bu Nizamnamədə qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilər.

1.5. Xidmətin müstəqil balansı, əmlakı, xəzinə və bank hesabları, üzərində öz adı həkk olunmuş möhürü, müvafiq ştampları və blankları vardır.

1.6. Qanuna uyğun olaraq, Xidmətin əqdlər bağlamaq, öz adından əmlak və qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək hüququ, həmçinin vəzifələri vardır. Xidmət məhkəmədə iddiaçı və ya cavabdeh qismində çıxış edə bilər.

1.7. Xidmət Laçın şəhərində yerləşir.

**2. Xidmətin fəaliyyət istiqamətləri**

2.1. Xidmətin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. müvafiq əraziyə əhalinin qayıdışı ilə əlaqədar çoxmənzilli binaların və fərdi yaşayış evlərinin tikintisini təşkil etmək;

2.1.2. müvafiq ərazidə tikintisini təşkil etdiyi çoxmənzilli binaları, həmin binalardakı mənzillər sakinlərə tam təhvil verilənədək, müvəqqəti idarə etmək;

2.1.3. müvafiq ərazidə mənzil-kommunal təsərrüfatı sahəsində dövlət siyasətinin həyata keçirilməsində iştirak etmək, kommunal təsərrüfatı idarə etmək;

2.1.4. müvafiq ərazidə abadlaşdırma və yaşıllaşdırma işlərini təşkil etmək;

2.1.5. müvafiq ərazidə yerləşən, ümumi istifadədə və balansında olan şəhər avtomobil yollarının idarə olunmasını, təmirini, saxlanılmasını, qorunmasını təşkil etmək və onların vəziyyətinə nəzarət etmək.

**3. Xidmətin vəzifələri və hüquqları**

3.1. Bu Nizamnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq Xidmətin vəzifələri aşağıdakılardır:

3.1.1. müvafiq əraziyə əhalinin qayıdışı ilə əlaqədar çoxmənzilli binaların və fərdi yaşayış evlərinin tikintisini təşkil etmək, o cümlədən bu tikinti işləri üzrə sifarişçi funksiyalarını həyata keçirmək;

3.1.2. müvafiq ərazidə tikintisini təşkil etdiyi çoxmənzilli binaların qorunmasını və saxlanılmasını təmin etmək, həmin binalardakı mənzillər sakinlərə tam təhvil verilənədək müvəqqəti olaraq bu binaları idarə etmək;

3.1.3. idarə etdiyi çoxmənzilli binaları isti su və istiliklə təchiz etmək, həmin binaların istilik enerjisinə olan tələbatının ödənilməsini təmin etmək;

3.1.4. idarə etdiyi çoxmənzilli binalarda quraşdırılmış liftlərin işlək vəziyyətdə saxlanılmasını, cari və əsaslı təmirini həyata keçirmək, onların istismarına nəzarət etmək;

3.1.5. tikintisini təşkil etdiyi çoxmənzilli binaların idarə edilməsi, ümumi əmlakının (o cümlədən liftlərin) saxlanılması, cari və əsaslı təmiri üzrə xidmət və işlərə görə ödənilən haqqın daxil olduğu yaşayış sahəsinin saxlanılmasına və təmirinə görə haqq almaq;

3.1.6. müvafiq ərazidə tikintisini təşkil etdiyi çoxmənzilli binalara və fərdi yaşayış evlərinə sakinlərin köçməsindən irəli gələn təşkilati və digər tədbirlər görmək;

3.1.7. müvafiq ərazidə mənzil-kommunal təsərrüfatı sahəsində dövlət siyasətinin həyata keçirilməsində iştirak etmək, kommunal təsərrüfatın və mənzil-istismar sahələrinin yaradılmasını və idarə olunmasını təşkil etmək, mühəndis-kommunikasiya təminatı sistemlərinin saxlanılmasına, cari və əsaslı təmirinə, eləcə də istismarına nəzarət etmək, mənzil-kommunal infrastrukturunun inkişafını təmin etmək;

3.1.8. müvafiq ərazidə əhaliyə göstərilən kommunal xidmətlərin keyfiyyətinə və həcminə nəzarəti həyata keçirmək;

3.1.9. müvafiq ərazidə içməli su, kanalizasiya, elektrik və qaz şəbəkələri və qurğularının fasiləsiz işinin təmin olunmasına nəzarət etmək, bu sahədə təsərrüfat xidmətlərinin fəaliyyətini əlaqələndirmək;

3.1.10. idarə etdiyi çoxmənzilli binaların və tikintisini təşkil etdiyi digər obyektlərin, habelə müvafiq ərazidə sosial-mədəni obyektlərin qış mövsümünə istismara hazırlıq işlərinin həyata keçirilməsi üçün müvafiq tədbirlər görmək;

3.1.11. müvafiq ərazidə müqavilə əsasında isti su və istilik təchizatı xidmətlərini göstərmək və bu xidmətlərə (o cümlədən bu Nizamnamənin 3.1.3-cü yarımbəndində göstərilən hallarda) görə haqq almaq;

3.1.12. müvafiq ərazidə yaşayış məntəqələri ərazilərinin abadlaşdırılması və yaşıllaşdırılması işini və yaşıllıqların mühafizəsini təşkil etmək;

3.1.13. müvafiq ərazidə yerləşən, ümumi istifadədə və balansında olan şəhər avtomobil yollarının idarə olunmasını, təmirini, saxlanılmasını, qorunmasını təşkil etmək və onların vəziyyətinə nəzarət etmək;

3.1.14. müvafiq ərazidə məhəllələrin, küçələrin, meydanların, parkların və yaşıllıq zonalarının işıqlandırılması sisteminin istismara yararlı vəziyyətdə olması işini təşkil etmək;

3.1.15. Xidmətə ayrılan məqsədli vəsaitlər hesabına Azərbaycan Respublikası Prezidentinin tapşırığı əsasında müvafiq ərazidə sosial təyinatlı və digər obyektlərin tikintisinin təşkilini, onların tikintisi üzrə sifarişçi funksiyalarının yerinə yetirilməsini, habelə bu qaydada tikilmiş obyektlərin qorunmasını, saxlanılmasını və təyinatı üzrə istifadəsini təmin etmək;

3.1.16. müvafiq ərazidə bayramlara və digər əlamətdar hadisələrə, habelə anım günlərinə həsr olunmuş ictimai tədbirlər keçirmək, tərtibat işləri aparmaq və digər zəruri tədbirlər görmək;

3.1.17. müvafiq əraziyə əhalinin qayıdışı ilə əlaqədar digər dövlət orqanlarının (qurumlarının) sifarişi ilə aparılan tikinti işlərinə zəruri təşkilati dəstək göstərmək;

3.1.18. müvafiq ərazidə dövlət və bələdiyyə mülkiyyətində olan tarix və mədəniyyət abidələrinin konservasiyası, təmiri, bərpası, rekonstruksiyası və regenerasiyası işlərinə zəruri təşkilati dəstək göstərmək;

3.1.19. müvafiq sahədə normativ hüquqi aktların, inkişaf konsepsiyalarının və məqsədli proqramların hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

3.1.20. dövlət orqanlarının (qurumlarının), yerli özünüidarəetmə orqanlarının, hüquqi və fiziki şəxslərin müvafiq sahə üzrə fəaliyyətini əlaqələndirmək;

3.1.21. müvafiq sahədə elektron xidmətləri "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanına uyğun olaraq təşkil etmək;

3.1.22. Xidmətin fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.23. kargüzarlığı və vətəndaşların qəbulunu müvafiq normativ hüquqi aktların tələblərinə uyğun təşkil etmək, Xidmətin əməkdaşlarının əlavə təhsili və peşəkarlığının yüksəldilməsi üçün tədbirlər görmək;

3.1.24. Xidmətin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi üçün tədbirlər görmək;

3.1.25. Xidmətə ayrılan büdcə vəsaitindən (o cümlədən işğaldan azad edilmiş ərazilərdə bərpa və yenidənqurma işlərinin həyata keçirilməsi üçün), kredit, qrant və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.1.26. Azərbaycan Respublikasının beynəlxalq müqavilələri ilə tənzimlənən və Xidmətin səlahiyyətinə aid olan məsələlər üzrə Azərbaycan Respublikasının götürdüyü öhdəliklərin yerinə yetirilməsini təmin etmək;

3.1.27. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

3.1.28. dövlət və kommersiya sirrinin, habelə məxfilik rejiminin qorunması üçün tədbirlər görmək;

3.1.29. Xidmətin informasiya təminatını təşkil etmək və onun təhlükəsizliyini təmin etmək;

3.1.30. bu Nizamnamə ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

3.2. Öz vəzifələrini yerinə yetirmək üçün Xidmətin aşağıdakı hüquqları vardır:

3.2.1. müvafiq sahədə normativ hüquqi aktın layihəsinin qəbul olunması, aktda dəyişikliklər edilməsi, aktın şərh edilməsi, qüvvəsinin dayandırılması və ya ləğv edilməsi haqqında aidiyyəti üzrə təklif vermək;

3.2.2. müvafiq sahədə beynəlxalq müqavilələrə Azərbaycan Respublikasının tərəfdar çıxması barədə təkliflər vermək;

3.2.3. beynəlxalq təcrübənin tətbiqi imkanlarının araşdırılması məqsədilə beynəlxalq təşkilatlarla, xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək, xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək;

3.2.4. dövlət orqanlarına (qurumlarına), yerli özünüidarəetmə orqanlarına, hüquqi və fiziki şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

3.2.5. fəaliyyət istiqamətləri üzrə rəy və təkliflər vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq;

3.2.6. müstəqil ekspertləri və mütəxəssisləri öz fəaliyyətinə cəlb etmək;

3.2.7. Xidmətin əməkdaşlarını dövlət təltiflərinə və digər mükafatlara təqdim etmək, onların həvəsləndirilməsi üçün tədbirlər görmək;

3.2.8. sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq, təsərrüfat cəmiyyətləri yaratmaq və ya onlarda iştirak etmək;

3.2.9. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı araşdırmalar aparmaq, işçi qruplar və komissiyalar yaratmaq;

3.2.10. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı konfranslar, müşavirələr, seminarlar keçirmək və digər tədbirlər təşkil etmək;

3.2.11. bu Nizamnamə ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**4. Xidmətin idarə olunması**

4.1. Xidmət öz fəaliyyətində və idarəetmədə mütərəqqi korporativ idarəetmə standartlarını tətbiq edir.

4.2. Xidmətin idarəetmə orqanları Müşahidə Şurası və İcraçı direktordur.

4.3. Müşahidə Şurası (bundan sonra – Şura) Xidmətin fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirir.

4.4. Şura Azərbaycan Respublikası Prezidentinin vəzifəyə təyin və vəzifədən azad etdiyi 5 (beş) üzvdən – Şuranın sədrindən və digər 4 (dörd) üzvdən ibarətdir.

4.5. Şura ictimai (ödənişsiz) əsaslarla fəaliyyət göstərir.

4.6. Şura qərar qəbul etməkdə müstəqildir.

4.7. Şuranın vəzifələri aşağıdakılardır:

4.7.1. təsisçi səlahiyyətlərinin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının Prezidentinə təkliflər vermək və müvafiq sənədlər (o cümlədən Xidmətin maliyyə hesabatını və fəaliyyətinə dair illik hesabatı) təqdim etmək;

4.7.2. Xidmətin inkişaf istiqamətlərini, strateji məqsədlərini və planlarını müəyyən etmək;

4.7.3. Xidmətin fəaliyyətinə nəzarət etmək;

4.7.4. Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla Xidmətin strukturunu, əməyin ödənişi fondunu, işçilərin say həddini və onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğini təsdiq etmək, o cümlədən Xidmətin əldə etdiyi vəsait (dövlət büdcəsindən və dövlətə məxsus digər fondlardan ayrılan vəsait istisna olmaqla) hesabına işçilərə əlavə ödənilən həvəsləndirmə sistemini müəyyənləşdirmək;

4.7.5. Xidmətin təsərrüfat cəmiyyətlərinin yaradılması və onlarda iştirak barədə, həmçinin Xidmətin idarə, filial və nümayəndəliklərinin yaradılması barədə qərar qəbul etmək;

4.7.6. Xidmətin maliyyə planlaşdırmasını və büdcəsini təsdiq etmək;

4.7.7. Xidmətin fəaliyyətinə dair daxili qaydaları (o cümlədən maraqlar münaqişəsinin istisna olunması qaydasını), habelə Xidmətin idarə, filial və nümayəndəliklərinin əsasnamələrini, təsərrüfat cəmiyyətlərinin nizamnamələrini təsdiq etmək;

4.7.8. İcraçı direktorun fəaliyyətinə nəzarət etmək və onun fəaliyyətini yoxlamaq;

4.7.9. Şura üzvlərinin və İcraçı direktorun müraciətlərinə baxmaq və qərar qəbul etmək;

4.7.10. Xidmətin fəaliyyətinə dair illik hesabatı dinləmək;

4.7.11. Xidmətin kənar auditorunu təyin etmək və audit hesabatını qəbul etmək;

4.7.12. kənar auditorun yoxlamalarının, habelə digər yoxlamaların nəticələrinə dair tədbirlər görmək;

4.7.13. Xidmətdə daxili audit bölməsinin fəaliyyətinə nəzarət etmək və fəaliyyətinə dair hesabatlar almaq, habelə onun üzvlərini vəzifəyə təyin və vəzifədən azad etmək;

4.7.14. Xidmətin xalis aktivlərinin dəyərinin 25 faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin) və aidiyyəti şəxslə dəyəri Xidmətin aktivlərinin 5 faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul etmək;

4.7.15. bu Nizamnamə ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

4.8. Şuranın sədri rübdə azı bir dəfə Şuranın iclaslarını çağırır və iclaslara sədrlik edir. Şuranın iclaslarının keçirilməsi təşəbbüsü ilə Şuranın üzvü və ya İcraçı direktor çıxış edir. Şuranın iclasları Şura üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Şuranın iclasında, hər üzvün bir səsi olmaqla, qərarlar açıq səsvermə yolu ilə sadə səs çoxluğu ilə qəbul edilir. Səsvermə zamanı üzvlərin bitərəf qalmasına icazə verilmir. Səslər bərabər olduqda, iclasa sədrlik edənin səsi həlledicidir.

4.9. Şuranın üzvlərinə, İcraçı direktora və Şuranın iclaslarına dəvət olunan şəxslərə Şuranın iclaslarının keçiriləcəyi yer və vaxt, habelə gündəliyə daxil edilmiş məsələlər barədə iclasa azı 3 (üç) iş günü qalmış, zəruri sənədlər əlavə edilməklə yazılı məlumat verilir.

4.10. Şuranın iclasında İcraçı direktor da iştirak edə bilər.

4.11. İclasın gündəliyinə Şuranın hər hansı üzvünün maraqlarına toxunan məsələ çıxarıldıqda, həmin üzv bununla bağlı maraqları haqqında ətraflı məlumat verməli, bu məsələnin müzakirəsində və həmin məsələyə dair səsvermədə iştirak etməməlidir.

4.12. Gündəliyə daxil edilməmiş və ya tələb olunan aidiyyəti sənədləri iclasdan qabaq təqdim edilməmiş məsələlər barədə, bütün iştirakçı üzvlərin razılıq verdiyi hallar istisna olmaqla, qərar qəbul edilə bilməz.

4.13. Şuranın iclaslarının nəticəsi Şura üzvlərinin və Şuranın katibinin imzaladıqları iclas protokolunda əks olunmaqla rəsmiləşdirilir. Şuranın katibi Şuranın iclasında iştirak edə bilmədikdə, Şuranın sədri onu əvəz edəcək şəxsi təyin edir. Protokol Şura tərəfindən təsdiq edilərək İcraçı direktora göndərilir.

4.14. Şuranın katibini Şuranın sədri Şura üzvü olmayan əməkdaşlar sırasından təyin edir və katib Şuranın sədrinə hesabat verir.

4.15. Şuranın katibi:

4.15.1. Şuranın iclaslarını təşkil edir;

4.15.2. bu Nizamnamənin 4.9-cu bəndində nəzərdə tutulan vəzifəni icra edir;

4.15.3. Şuranın iclaslarının protokolunu tərtib edir və imzalanmaq üçün Şuranın üzvlərinə təqdim edir;

4.15.4. Şuranın qərarlarının layihələrini hazırlayır, baxılmaq və imzalanmaq üçün Şuranın sədrinə təqdim edir;

4.15.5. Şuranın qəbul etdiyi qərarların aidiyyəti üzrə göndərilməsini təmin edir.

4.16. Şuranın sədri:

4.16.1. Şuranın işini təşkil edir və onun fəaliyyətinə rəhbərlik edir, habelə özünün və İcraçı direktorun qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

4.16.2. Şuranın iclaslarının gündəliyini müəyyənləşdirir, iclaslar çağırır və iclaslara sədrlik edir;

4.16.3. öz təşəbbüsü ilə, habelə Şuranın hər hansı digər üzvünün və ya İcraçı direktorun xahişi əsasında digər şəxsləri Şuranın iclasında iştirak etməyə dəvət edir;

4.16.4. Şuranın fəaliyyətinin təşkili ilə bağlı digər tədbirlər görür.

4.17. Şura sədri müvəqqəti olmadıqda onun səlahiyyətlərini müvafiq əmrlə Şuranın üzvləri arasından sədrin müəyyən etdiyi şəxs icra edir.

4.18. Şuranın üzvləri:

4.18.1. Şuranın səlahiyyətlərinə aid olan məsələlərin həllində iştirak edirlər;

4.18.2. Şuranın iclasının gündəliyi ilə və baxılması nəzərdə tutulmuş materiallarla əvvəlcədən tanış olurlar;

4.18.3. Şurada qəbul ediləcək qərarlara dair fikir bildirirlər;

4.18.4. Şuranın səlahiyyətlərinə aid məsələlərə Şuranın iclaslarında baxılmaq barədə təkliflər verirlər;

4.18.5. Şuranın qərarları ilə, iclas protokolları ilə və digər sənədlərlə tanış olurlar.

4.19. Şura üzvləri Şuranın iclaslarında baxılan məsələlərə qərəzsiz yanaşmalı, Şura üzvünün adına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməlidirlər, həmçinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-cu maddəsində müəyyən edilmiş digər tələbləri yerinə yetirməlidirlər.

4.20. Xidmətin cari fəaliyyətinə rəhbərliyi İcraçı direktor həyata keçirir. İcraçı direktor Şura tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir.İcraçı direktorun onun təqdimatı əsasında Şura tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən bir müavini vardır.

4.21. İcraçı direktor müvəqqəti olmadıqda, onun səlahiyyətlərini müvafiq əmrlə onun müavini icra edir.

4.22. İcraçı direktor və onun müavini adlarına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməlidirlər, həmçinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-cu maddəsində müəyyən edilmiş digər tələbləri yerinə yetirməlidirlər.

4.23. İcraçı direktorun vəzifələri aşağıdakılardır:

4.23.1. Xidmətin fəaliyyətini təşkil etmək;

4.23.2. bu Nizamnamə ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsi üçün Şuraya təkliflər vermək və sənədlər təqdim etmək;

4.23.3. Şuranın qərarlarını icra etmək;

4.23.4. aidiyyəti şəxslə dəyəri Xidmətin aktivlərinin 5 faizədək hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul etmək;

4.23.5. Xidmətin strateji məqsədlərinin və planlarının, habelə büdcəsinin icrasına nəzarət etmək;

4.23.6. bu Nizamnamənin 3.1.25-ci yarımbəndində nəzərdə tutulan vəsaitdən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

4.23.7. cari və operativ məsələlər barədə Şuranı məlumatlandırmaq;

4.23.8. bu Nizamnamənin 3.1.19-cu və 3.2.1-ci yarımbəndlərində nəzərdə tutulmuş məsələlərin həlli üçün tədbirlər görmək;

4.23.9. Xidmətin cari fəaliyyətinə rəhbərlik və onu təmsil etmək;

4.23.10. Xidmətin fəaliyyətinin təşkili ilə əlaqədar icrası məcburi olan daxili sərəncam və əmrlər vermək;

4.23.11. Xidmətin fəaliyyət istiqamətlərinə dair qəbul olunmuş aktların icrasını təşkil etmək, yoxlamaq və buna nəzarəti həyata keçirmək;

4.23.12. özünün və Xidmətin struktur bölmələrinin qanunvericiliyə zidd olan qərarlarını ləğv etmək;

4.23.13. müəyyən edilmiş struktur, əməyin ödənişi fondu və işçilərin say həddi daxilində Xidmətin Aparatının və digər struktur bölmələrinin strukturunu, ştat cədvəlini və xərclər smetasını təsdiq etmək;

4.23.14. Xidmətin işçilərinin vəzifə maaşlarının, vəzifə maaşlarına əlavələrin, mükafatların və digər ödənişlərin verilməsini əməyin ödənişi fondu çərçivəsində təşkil etmək;

4.23.15. bu Nizamnamədə müəyyən edilmiş hallar istisna olmaqla, Xidmətin, o cümlədən onun idarə, filial və nümayəndəliklərinin, habelə tabeliyindəki digər qurumların işçilərinin (təsərrüfat cəmiyyətlərində isə yalnız rəhbərlərin) vəzifəyə təyin və vəzifədən azad edilməsi, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsi barədə qərarlar qəbul etmək;

4.23.16. Xidmətin əmlakından bu Nizamnamədə nəzərdə tutulmuş məqsədlərə uyğun istifadə olunmasına nəzarət etmək;

4.23.17. bu Nizamnamə ilə müəyyən edilmiş səlahiyyətlər çərçivəsində Xidmətin adından əməliyyatlar aparmaq, müqavilələr bağlamaq və onların yerinə yetirilməsini təmin etmək;

4.23.18. Xidmətin fəaliyyət istiqamətləri ilə bağlı məşvərətçi komitələr və işçi qruplar yaratmaq;

4.23.19. Xidmətin fəaliyyət istiqamətləri üzrə dövlət sirrinin və məxfilik rejiminin, habelə qanunla qorunan digər məlumatların mühafizəsi üçün zəruri tədbirlər görmək;

4.23.20. Xidmətdə kargüzarlıq və arxiv işinin aparılmasını təmin etmək;

4.23.21. Xidmətdə müraciətlərə baxılmanı və vətəndaşların qəbulunu təmin etmək;

4.23.22. Şuranın səlahiyyətlərinə aid edilməyən bütün digər məsələlər barədə qərar vermək.

**5. Xidmətin nizamnamə fondu, əmlakı və maliyyə fəaliyyətinin əsasları**

5.1. Xidmətin nizamnamə fondunun məbləği 500 000 (beş yüz min) manatdır.

5.2. Xidmətin əmlakı nizamnamə fondundan, təsisçinin verdiyi əmlakdan, həmçinin dövlət büdcəsindən ayrılan vəsaitdən, fəaliyyətindən əldə olunmuş gəlirdən, ianələrdən, qrantlardan, cəlb edilən investisiyalardan və qanunla qadağan edilməyən digər vəsaitdən formalaşır.

5.3. Xidmət öz əmlakından yalnız Nizamnaməsində müəyyən olunmuş məqsədlərə uyğun istifadə edir. Xidmət balansında olan dövlət əmlakına münasibətdə səlahiyyətlərini "Dövlət əmlakının qorunub saxlanılması və səmərəli istifadə edilməsinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanı ilə müəyyən edilmiş qaydada həyata keçirir.

5.4. Xidmət qanunla nəzərdə tutulmuş vergiləri və digər məcburi ödənişləri ödədikdən sonra Xidmətin, onun idarə, filial, nümayəndəliklərinin və təsərrüfat cəmiyyətlərinin, habelə tabeliyindəki digər qurumların fəaliyyətindən əldə edilmiş vəsait üzərində müstəqil sərəncam vermək hüququna malikdir.

5.5. Xidmətin mənfəəti bu Nizamnamədə nəzərdə tutulmayan məqsədlər üçün yalnız Azərbaycan Respublikası Prezidentinin qərarı ilə dövlət büdcəsinə köçürülə bilər.

5.6. Xidmətin Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) siyahısında nəzərdə tutulmuş mallarının (işlərinin, xidmətlərinin) qiymətləri tənzimlənən qiymətlərə aiddir.

**6. Xidmətin fəaliyyətinə nəzarətin forması və əhatə dairəsi**

6.1. Xidmətin fəaliyyətinə nəzarəti Azərbaycan Respublikasının Prezidenti, həmçinin bu Nizamnamə ilə müəyyən edilmiş qaydada Xidmətin idarəetmə orqanları həyata keçirirlər.

6.2. Xidmətin fəaliyyətinə dair illik hesabat Azərbaycan Respublikasının Prezidentinə təqdim edilir.

**7. Xidmətdə uçot və hesabat**

7.1. Xidmət "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə publik hüquqi şəxslər üçün müəyyən edilmiş qaydada mühasibat uçotu aparır, maliyyə hesabatlarını tərtib, təqdim və dərc edir.

7.2. Xidmət "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq statistik hesabatları tərtib və təqdim edir.

7.3. Xidmət idarə, filial, nümayəndəlik və təsərrüfat cəmiyyətlərinin, habelə tabeliyindəki digər qurumların maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılmasını təmin edir.

7.4. Xidmət öz fəaliyyətinin müstəqil surətdə yoxlanılması üçün kənar auditor cəlb edir.

**8. Xidmətin ləğvi və yenidən təşkili**

Xidmətin ləğvini və yenidən təşkilini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

# Uğurlar sosial-iqtisadi inkişafı daha da sürətləndirir

## Ötən il ÜDM 133, 8 milyard manat olub



**Keçən il ilk dəfə olaraq ölkəmizdə ümumi daxili məhsulun (ÜDM) həcmi 100 milyard manatı ötərək 133,8 milyard manat təşkil edib. Bu dövrdə 13,9 faiz orta illik inflyasiya qeydə alınıb. Azərbaycanda inflyasiya ilə mübarizə sahəsində atılan addımlar onun mənfi təsirlərinin azalmasına imkan yaradıb. Hesabat dövründə dövlət büdcəsinin gəlirləri proqnozdan 1 milyard 481 milyon manat artıq icra edilib, xərcləri isə 32 milyard 64,6 milyon manat olub.**

### Ekspert rəyi

**Vüqar BAYRAMOV,**
**Milli Məclisin deputatı,**
**iqtisadçı-ekspert**



Milli Məclisdə 2022-ci ilin büdcə ilə bağlı qanun layihəsi müzakirə edilərək plenar iclasa tövsiyə olunub. Burada, təbii ki, əsas məqsəd Müzakirələrdə ötən il büdcənin icrası vəziyyəti diqqətdə saxlanılıb, həmçinin bu istiqamətdə həyata keçirilən işlər nəzərdən keçirilib.

Keçən ilin büdcəsinin icrası ilə bağlı hesabat da təsdiq edir ki, hesabat dövründə fiskal hədəflərə çatmaq reallaşıb və dövlət büdcəsinin gəlirlərində artımlar nəzərə çarpıb. Belə ki, vergiyə daxilolmalardan əldə edilən vəsait proqnoza nisbətən 32 faiz çox olub.

Dövlət Gömrük Komitəsi proqnozlarla müqayisədə təxminən 31 faiz daha çox vəsaitin büdcəyə cəlb edilməsinə nail ola bilib. Ona görə yalnız neft sektorunda deyil, eyni zamanda, neftdən kənar sektorlarda büdcəyə daxilolmalarda artımlar müşahidə olunub. Bu da 2022-ci ildə büdcənin icrası ilə bağlı böyük öhdəliklərə və eləcə də proqnozlara əməl edilməsindən xəbər verir. Eyni zamanda, keçən ilin hesabatından göründüyü kimi, makroiqtisadi yekunlar da uğurlu olub. Çünki ümumi daxili məhsul proqnozlaşdırılandan daha çox artıb və ÜDM-dəki artımlar da yalnız neft deyil, qeyri-neft sektoru hesabına baş verib.

Artıq Azərbaycanda ümumi daxili məhsul 130 milyard manatdan çoxdur. Kifayətedici bir rəqəmdir. Bu baxımdan 2022-ci ilin makroiqtisadi yekunları büdcə icrası ilə bağlı nəticələri pozitivdir. Bu, eyni zamanda, məhz bu istiqamətdə daxilolmaların artması, həm də 2023-cü ilin dövlət büdcəsinə yenidən baxılması və dürüstləşmənin aparılmasına zəmin yaradır.

Yaxın vaxtlarda dürüstləşmə ilə bağlı layihə də deputatlara təqdim olunacaq. Gözlənti ondan ibarətdir ki, cari ilin dövlət büdcəsinin gəlirlərində və xərclərində artımlar olacaq. Xüsusən də periodik istiqamətlərə daha çox vəsaitin ayrılması nəzərdə tutulur.

Onu da bildirim ki, layihə təqdim olunduqdan sonra ilk istiqamətlərlə bağlı məlumatların bölüşdürülməsi mümkün olacaq. Amma 2022-ci ilin, eləcə də cari ilin ilk dörd ayının geridə qalan nəticələri bir daha təsdiq edir ki, həm fiskal, həm makroiqtisadi sahədə hədəflərə nail olunması praktik olaraq 2023-cü ilin dövlət büdcəsinə dəyişiklərin edilməsi və dürüstləşmənin aparılmasına imkan yaradır.

Bu rəqəmlər Milli Məclisdə 2022-ci ilin dövlət büdcəsinin icrasının müzakirəsində səsləndirilib və həmin göstəricilərin qarşıdakı dövrdə sosial-iqtisadi inkişafın daha da sürətlənməsinə zəmin yaratdığı bildirilib.

Yeri gəlmişkən, iclasda diqqətə çatdırılan uğurları ifadə edən göstəriciləri aşağıdakı kimi vurğulamaq olar:

– hesabat dövründə əsas kapitala yönəldilən vəsaitin məbləği 18,3 milyard manat təşkil edib. Əsas kapitala yönəldilən investisiyaların 80,6 faizi daxili mənbələr hesabına formalaşıb. İnvestisiyaların 5,4 milyard manatı neft, 12,9 milyard manatı isə qeyri-neft sektoruna xərclənib;

– bu dövrdə qeyri-neft sektoruna yönəldilmiş vəsaitin həcmində 13,6 faiz artım qeydə alınıb;

– ötən il xarici ticarət üzrə əməliyyatların həcmi 56,2 milyard ABŞ dolları olub. Bunun 41,7 milyard dolları ixrac, 14,5 milyard dolları isə idxal əməliyyatlarının payına düşüb. Cari əməliyyatlar hesabında 23,5 milyard ABŞ dolları həcmində və ya əvvəlki illə müqayisədə 2,8 dəfə çox profisit qeydə alınıb.

– hesabat dövründə dövlət büdcəsinin gəlirləri 29 milyard 197,8 milyon manat proqnoza qarşı 30 milyard 679,6 milyon manat olub. Dövlət büdcəsi gəlirlərinin ÜDM-də xüsusi çəkisi 22,9 faiz təşkil edib. Büdcə gəlirlərinin 50,7 faizi Dövlət Vergi Xidmətinin, 18,4 faizi Dövlət Gömrük Komitəsinin xətti ilə daxilolmaların, 25,8 faizi Dövlət Neft Fondundan transfertin, 5,1 faizi digər gəlirlər üzrə daxilolmaların payına düşüb.

Yeri gəlmişkən, 2022-ci ilin büdcə gəlirlərinin tərkibində qeyri-neft sektoru üzrə daxilolmalar 15 milyard 350 milyon manat təşkil edib. Qeyri-neft sektoru üzrə dövlət büdcəsinə daxilolmaların 53 faizi vergi, 36,8 faizi gömrük orqanlarının xətti ilə, 10,2 faizi isə digər mənbələrdən daxilolmaların payına düşüb.

Azərbaycanın qeyri-neft-qaz sektorunun dinamik inkişafını bildirən rəqəmlər əldə edilməsi iqtisadiyyatın bütün sahələrində ötən illərdəki artım dinamikasının qorunub saxlanılmasının məntiqi nəticəsidir. Başqa sözlə, belə bir uğur makroiqtisadi sabitliyin möhkəmləndirilməsi, iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı və ölkəmizin dünya iqtisadiyyatına inteqrasiyası istiqamətində nəzərdə tutulan tədbirlərin ardıcıl həyata keçirilməsi ilə şərtlənir.

Hesabat dövründə ÜDM istehsalının böyük bir hissəsinin sənayenin payına düşməsi isə ölkəmizdə uğurlu sənayeləşmə siyasəti sayəsində mümkün olub. Sənaye parklarının mövcud sahədəki fəaliyyəti, həmin zonalarda yeni sənaye sahələrinin yaradılması, rəqabətqabiliyyətli və ixracyönümlü yeni məhsul istehsalının təşkili, bu işə investorların cəlb olunması kimi məsələlər hökumətin daim diqqət mərkəzində saxlanılıb və bu, müsbət göstəricilərlə müşahidə edilib. Məhz bunun nəticəsidir ki, İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) idarəçiliyində olan Sumqayıt Kimya Sənaye Parkında rezidentlərinin sayı 35-ə çatdırılıb. Hacıqabul Sənaye Məhəlləsində isə ümumi investisiya həcmi 51 milyon manatdan artıq olan 13 sahibkarlıq subyekti rezident kimi qeydiyyata alınıb və onlardan 8-i fəaliyyətə başlayıb.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında da bərpa prosesi indiyədək sənayeləşmə siyasəti ilə paralel aparılıb. “Ağdam” və “Araz Vadisi İqtisadi Zonası” sənaye parklarında ümumilikdə 18 sənaye müəssisəsi qeydiyyata alınıb. Düşməndən təmizlənən ərazilərdə kənd təsərrüfatının inkişaf məqsədləri üçün 940 fermer təsərrüfatının yaradılması nəzərdə tutulub.

Azərbaycanda lazım olan bütün istehsalat sahələrinin yaradılması, yeni investisiyalar cəlb edilməsi üçün gözəl biznes mühiti, siyasi sabitlik, xalq-iqtidar birliyi, təhlükəsizlik təmin edilib, əlverişli coğrafi yerləşmə, infrastruktur, hazırlıqlı peşəkar kadrlar, ixrac bazarları, qonşu ölkələrlə yaxşı işgüzar münasibətlər var.

Sənaye zonaları və aqroparkların təşəkkülü də belə demək mümkünsə, bax, bu cür əlverişli mühitin məhsuludur. Bu müəssisələrdə sahibkarlar üçün stimullaşdırıcı biznes və investisiya mühiti yaratmaq üçün dövlət tərəfindən müxtəlif dəstək tədbirləri mövcuddur. Belə ki, sahibkarlara təşkilati dəstəklə yanaşı, vergi və gömrük güzəştləri, eləcə də hazır infrastrukturla təminat təklif edilir.

Sənaye parklarının rezidentləri qeydiyyata alındıqları tarixdən 10 il müddətinə əmlak, torpaq, gəlir və ya mənfəət vergilərindən, istehsal məqsədilə idxal etdikləri texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və 10 il müddətinə gömrük rüsumlarından azad olunurlar.

Büdcə gəlirlərində neft sektoru üzrə daxilolmalar 15 milyard 329,6 milyon manat təşkil edib. Neft sektoru üzrə büdcə gəlirlərinin 51,7 faizini Dövlət Neft Fondundan transfert, 48,3 faizini isə vergi orqanlarının xətti ilə dövlət büdcəsinə təmin edilən neft sektorundan daxilolmalar təşkil edib.

Bildirilib ki, işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün 2022-ci ilin dövlət büdcəsindən ümumilikdə 4 milyard 311 milyon manat vəsait ayrılıb. Bu vəsaitin 61,8 faizi işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası ilə bağlı nəzərdə tutulmuş məqsədli xərclərin, 25,1 faizi dövlət büdcəsinin ehtiyat fondunun, 10,8 faizi dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) xərclərinin, 2,3 faizi dövlət büdcəsində nəzərdə tutulmuş məqsədli xərclər hesabına ayrılmış vəsaitlərin payına düşür. Həmin vəsaitin 4 milyard 70,9 milyon manatı infrastruktur təyinatlı layihələrin tikintisinə, yenidən qurulmasına, 24,8 milyon manatı isə digər tədbirlər üzrə xərclərə yönəldilib.

***Vaqif BİNYATOĞLU,***
***“Xalq qəzeti”***

# “Heydər Əliyev və iqtisadi islahatlar”

**Ulu öndər Heydər Əliyevin 100 illiyi münasibəti ilə İqtisadiyyat Nazirliyi tərəfindən KİV nümayəndələri üçün “Heydər Əliyev və iqtisadi islahatlar” mövzusunda seminar keçirilib.**



Seminarda iştirakçılar ümummilli liderin həyata keçirdiyi iqtisadi siyasət və bunun Azərbaycanın müstəqil dövlət kimi güclənməsində həlledici rolu barədə məlumatlandırılıblar. Ənənəvi və “onlayn” media təmsilçilərinin iştirak etdikləri tədbirdə nazirliyin iqtisadi siyasət şöbəsinin əməkdaşı Fəridə Əhmədova və nazirliyin tabeliyindəki İqtisadi Elmi-Tədqiqat İnstitutunun aparıcı elmi işçisi Şükür Quliyev mövzu ilə bağlı çıxış edərək ümummilli liderin ölkəyə rəhbərlik etdiyi dövrdə həyata keçirdiyi iqtisadi siyasətin müxtəlif aspektləri, aparılan nəticəyönümlü islahatlar və bunun Azərbaycanın müstəqil dövlət kimi güclənməsində, qüdrətinin artmasında həlledici rolu barədə iştirakçıları məlumat veriblər.

Vurğulanıb ki, milli iqtisadiyyatın formalaşmasında, bazar iqtisadiyyatının ölkəmizdə bərqərar olmasında Heydər Əliyevin misilsiz xidmətləri olub. İqtisadi məsələlərin mahiyyətini dərindən dərk edən ulu öndər bu sahədə qabaqcıl dünya təcrübəsinin Azərbaycanda tətbiqinə böyük əhəmiyyət verirdi. Dahi şəxsiyyət neft strategiyasının uğurla həyata keçirilməsindən əlavə, sənayenin müxtəlif sahələrini, xüsusilə qabaqcıl texnika və texnologiyalar əsasında müxtəlif sektorların inkişafını diqqət mərkəzində saxlayırdı.

Özəlləşdirmənin, torpaq islahatlarının həyata keçirilməsində, sahibkarlığın inkişafında və milli sahibkarlar təbəqəsinin formalaşmasında ümummilli liderin islahatları əsaslı zəmin yaradıb.

Bu gün ulu öndərin inkişaf strategiyasını uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çevik və qətiyyətli, uzaqgörən iqtisadi siyasəti sayəsində qazanılan uğurlar daha da möhkəmləndirilir. Dövlət başçısının rəhbərliyi ilə dayanıqlı və davamlı inkişaf edən, dünyada mövqeyi möhkəmlənən, regionun siyasi, iqtisadi və mədəni mərkəzinə çevrilən ölkəmiz daha böyük uğurlara doğru inamla irəliləyir. Özünəməxsus milli inkişaf modeli ilə tanınan Azərbaycan hazırda inkişafının keyfiyyətcə yeni və yüksək inkişaf mərhələsini yaşayır. Ulu öndərin memarı olduğu müasir Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun getdikcə artması, kosmosa rabitə peyki çıxaran dövlətlər sırasına daxil olması, ölkəmizin xaricə investisiya yatıran dövlətə çevrilməsi son illərdə qazanılan uğurların yalnız bir hissəsidir.

Beləliklə, siyasi və iqtisadi baxımdan sabit, davamlı və dayanıqlı tərəqqi yolu ilə irəliləyən Azərbaycanın bugünkü uğurları Heydər Əliyev siyasətinin, bu siyasətin Prezident İlham Əliyev tərəfindən qətiyyətlə davam etdirilməsinin məntiqi nəticəsidir. Bu inkişaf kursu isə Azərbaycanı daha böyük zəfərlərə, möhtəşəm qələbələrə aparır.

Seminarda media nümayəndələrinin sualları cavablandırılıb, həmçinin, dahi şəxsiyyətin həyat və fəaliyyətinə həsr edilən film nümayiş etdirilib.

***“Xalq qəzeti”***

# İçməli sudan qanunsuz istifadə ilə bağlı tədbirlər gücləndirilir



**Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi “Azərsu” ASC-də içməli sudan səmərəli və qənaətlə istifadə, sudan qanunsuz istifadə hallarının aradan qaldırılması, bu sahədə qanunvericiliyin tələbləri və maarifləndirmə tədbirlərinə həsr olunmuş brifinq keçirilib.**

“Azərsu” ASC-nin İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi Anar Cəbrayıllı bildirib ki, qlobal iqlim dəyişiklikləri və quraqlıq səbəbindən son illər dünyada su ehtiyatlarının azalması tendensiyası Azərbaycanda da müşahidə olunur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı sərəncamla “Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair Tədbirlər Planı” təsdiq edilib. Tədbirlər Planına uyğun olaraq su itkilərinin və israfçılığın qarşısının alınması istiqamətində mühüm tədbirlər həyata keçirilir.

Su təsərrüfatı və meliorasiya sahələrində idarəetməni təkmilləşdirmək, su ehtiyatlarından səmərəli istifadə etmək, torpaqların meliorasiyası və irriqasiyası işlərinin təşkilini yaxşılaşdırmaq məqsədilə yaradılmış Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi (ADSEA) tərəfindən su itkilərinin, israfçılığın aradan qaldırılması istiqamətində ciddi tədbirlər həyata keçirilir. ADSEA sədrinin əmrinə əsasən, Bakı şəhərinin rayonları, Sumqayıt şəhəri, Abşeron rayonu və Bağlar massivi üzrə işçi qrupları yaradılıb və yerli icra hakimiyyəti orqanları ilə birgə iş aparılır. İçməli su təchizatı sisteminə qanunsuz və nəzarətdənkənar qoşulmaların aradan qaldırılması məqsədilə Fəaliyyət Planı təsdiq edilib və may ayının 1-dən işlərə başlanılıb. İlk növbədə, sənaye müəssisələri, ictimai-iaşə obyektləri, yaşıllıqlar, parklar, avtoyuyucu məntəqələr, bir sözlə, iri su istehlakçılarının su sərfi təhlil olunur.

Elektron idarəetmə və müştəri xidmətləri departamentinin rəis müavini Cabbar Cabbarlı qeyri-qanuni qoşulmalar barədə məlumat verərək bildirib ki, bəzi vətəndaşlar və obyekt sahibləri texniki şərt almadan özbaşına su xətti çəkirlər, müəyyən hallarda isə abonent sayğacından əlavə qeyri-qanuni xətt çəkərək sudan istifadə edir. Belə hallara daha çox Bakıətrafı qəsəbələrdə, xüsusilə Binəqədi, Abşeron, Sabunçu, Suraxanı və Xəzər rayonlarında rast gəlinir.

Cari ilin may ayından başlayaraq sudan qanunsuz istifadə hallarına qarşı tədbirlər gücləndirilib. May ayının ötən dövrü ərzində 1500-ə yaxın iri su istehlakçısında yoxlama aparılıb və onların 23 faizində nöqsanlar aşkarlanaraq 180 min kubmetrə yaxın sərfiyyat bərpa edilib. Eyni zamanda, 1865 əhali abonentinə sudan qanunsuz istifadə etdiyi üçün 431 min manat dəymiş ziyan hesablanıb və artıq həmin məbləğin 140 min manatı ödənilib.

“Azərsu” ASC-nin Hüquq departamentinin rəis müavini Nofəl Bağırzadə su təchizatı sahəsində qanunvericiliyin tələbləri və onun pozulması halları barədə məlumat verib. Bildirib ki, su təchizatı və kanalizasiya müəssisəsinin razılığı olmadan su təchizatı və kanalizasiya sisteminə qoşulmaq qanunsuz hesab edilir. Belə hallar aşkar edildikdə, su təchizatı müəssisəsi qanunsuz xətti dərhal su təchizatı sistemindən ayırmaqla suyun verilməsini dayandırmalı və dəymiş zərərin ödənilməsini həmin şəxsdən tələb etməlidir.

Suyun israfçılıqla istifadə edilməsi və qanunsuz qoşulmaqla suyun talanması ilə bağlı İnzibati Xətalar və Cinayət Məcəlləsi ilə məsuliyyət nəzərdə tutulub. Sudan istifadə qaydalarına əsasən, su təchizatı sisteminə qanunsuz qoşulma halları aşkar edildikdə, qanunsuz xətti ləğv etməklə dərhal su təchizatı dayandırılmalı və dəymiş zərərin ödənilməsi tələb edilməlidir. Sudan qanunsuz və israfçılıqla istifadə edənlər bəzi hallarda bu tədbirlərin görülməsinə maneə yaratmağa cəhd edirlər. Bu kimi hallara yol verən şəxslərə qarşı İnzibati Xətalar Məcəlləsində müəyyən cərimələr nəzərdə tutulub. Eyni zamanda, sudan qanunsuz istifadə ilə bağlı Cinayət Məcəlləsində də məsuliyyət nəzərdə tutulub. Məcəlləyə əsasən talanmış suyun dəyərindən asılı olaraq bu hallara yol vermiş şəxslər inzibati qaydada cərimə olunmaqla yanaşı, islah işləri, azadlığın məhdudlaşdırılması, hətta xüsusi ilə külli miqdarda ziyan vurduqda azadlıqdan məhrumetmə ilə cəzalandırılır. Xidmət haqqını ödəməməklə və sudan qanunsuz istifadə etməklə bir sıra şəxslər bununla davamlı su təchizatının təmin edilməsinə maneə yaradırlar.

Sonda media nümayəndələrinin sualları cavablandırılıb.

***M. YAQUBZADƏ, “Xalq qəzeti”***

# “ƏDV geri al” layihəsi alıcılara 425,1 milyon manat qazandırıb

**Ölkədə “ƏDV geri al” layihəsi uğurla tətbiq edilir və bunun nəticəsində iqtisadiyyatın şəffaflaşdırılması istiqamətində mühüm nəticələr əldə olunur.**

Dövlət Vergi Xidmətinin məlumatına əsasən, layihənin icrasına başlanan vaxtdan cari ilin may ayınadək portalda qeydiyyatdan keçən istehlakçılara, ümumilikdə, 425,1 milyon manatdan çox ƏDV məbləği geri qaytarılıb.

“ƏDV geri al” nağdsız ödəmələrin genişlənməsinə mühüm təkan verən layihələrdən biridir. Məlum olduğu kimi, alınan mallara və əldə edilən xidmətlərə görə ödəniş nağdsız qaydada olduqda ödənilən ƏDV-nin 17,5 faizi, nağd qaydada isə 5 faizi istehlakçılara geri qaytarılır. Vətəndaşları pərakəndə ticarət, ictimai iaşə və tibb xidmətləri sahəsində nağdsız ödəmələrə cəlb etmək məqsədi daşıyan stimullaşdırıcı “ƏDV geri al” layihəsinin reallaşdırılması sözügedən sektorlarda nağdsız ödəmələrin xüsusi çəkisinin əhəmiyyətli dərəcədə yüksəlməsinə səbəb olur.

Dövlət Vergi Xidməti tərəfindən ölkədə yeni nəsil nəzarət-kassa aparatlarının (NKA) tətbiqi istiqamətində də işlər davam etdirilir. Hazırda ölkə üzrə tətbiq olunan onlayn NKA-ların sayı 88 mindən çoxdur.



Cari ilin 4 ayı ərzində yeni nəsil kassalar vasitəsilə qeydə alınan dövriyyə 6,7 milyard manat olub ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 20,1 faiz çoxdur.

***“Xalq qəzeti”***

# Ötən il ərzaq məhsulları istehsalına 540,1 milyon manat sərf olunub

**Ölkəmizin işğaldan azad olunmuş ərazilərdən yeni torpaqların əkin dövriyyəsinə cəlb edilməsi ilə bağlı tələb olunan əlavə xərclər də nəzərə alınmaqla, kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət tərəfindən maliyyə dəstəyi olaraq Azərbaycan Respublikasında ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlı tədbirlərin maliyyələşdirilməsi üçün 540,1 milyon manat vəsait sərf edilib.**

Bu barədə Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsinin icrasına dair illik hesabatda bildirilir.

Qeyd edək ki, bu göstəricinin həcmi 2021-ci illə müqayisədə 82,7 milyon manat və ya 18,1 faiz çoxdur.

***“Xalq qəzeti”***



# Azərbaycan – Gürcüstan: müstəqilliyin əkiz qardaşları

*Bu gün strateji tərəfdaşlıq əlaqələrimiz, demək olar ki, müttəfiqlik səviyyəsinə qalxıb. Çünki bir çox sahələr üzrə biz fəal əməkdaşlıq edirik. Həm beynəlxalq təşkilatlar çərçivəsində daim bir-birimizi dəstəkləyirik, eyni zamanda, ikitərəfli formatda. Bir çox önəmli layihələr təkcə ölkələrimiz üçün deyil, bölgə üçün, bütövlükdə, Avropa üçün xüsusi əhəmiyyət daşıyır.*

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti,*
*Gürcüstanın Mçxeta rayonu,*
*24 oktyabr 2022-ci il*

*Uzun illər ərzində biz müxtəlif sahələrdə tarixi layihələr həyata keçirmişik. Həmin layihələr xalqlarımızı, ölkələrimizi daha sıx birləşdirdi. Biz yaxşı mənada bir-birimizdən asılıyıq və əminəm ki, bundan sonrakı uzun illər boyu da belə olacaq.*

*İrakli QARİBAŞVİLİ,*
*Gürcüstan Respublikasının Baş naziri*
*Azərbaycanın Qəbələ şəhəri,*
*7 aprel 2023-cü il*



**(əvvəli 1-ci səhifədə)**

Gürcüstanla bizi təkcə qonşuluq münasibətləri, yəni, coğrafi əsaslar bağlamır, bizi həm də tarixi, mədəni və sosial məsələlər də bir-birimizə yaxınlaşdırır. Ötən əsrin 70-ci illərində Kür suyunun Bakıya gətirilməsi zamanı gürcü yazıçılarından biri xatırlatmışdı ki, indi artıq Azərbaycan paytaxtı da Gürcüstan paytaxtı kimi Kür suyunu içir və bu fakt bizi daha da yaxınlaşdıracaq.

Tarixi-siyasi baxımdan isə Azərbaycanla Gürcüstanı həm ötən əsrin əvvəllərində, həm də sonlarında yaşadıqları eyni talelər yaxınlaşdırır. Elə ondan əvvəlki əsrdə – eyni dövlətin tərkibində olduğumuz dövrdə də tarixi, mədəni, sosial yaxınlıqlarımız region üçün nümunə olmuşdur.

... Bu gün Gürcüstanda Müstəqillik Günü qeyd edilir. Belə ki, 105 il əvvəl – 1918-ci il mayın 26-da Milli Şuranın qərarı ilə müstəqil dövlət qurulub və Gürcüstan Respublikası elan olunub. Noe Jordaniyanın başçılıq etdiyi ilk demokratik respublika sovet işğalınadək mövcud olub. Gürcüstan dövlət müstəqilliyini 70 ildən sonra bərpa edib.

Gürcüstan həmişə bu günü təntənəli şəkildə qeyd edir. Ölkə daxilində konsertlər, sərgilər, müxtəlif maarifləndirici idman və mədəni tədbirlər keçirilir. Dəfələrlə qeyd edilib ki, 26 may Gürcüstanın hər bir vətəndaşı üçün olduqca vacib tarixdir.

Xatırladaq ki, Gürcüstan Azərbaycanın müstəqilliyini 1991-ci ildə tanımışdır. İki ölkə arasında diplomatik münasibətlər 1992-ci il noyabrın 18-də qurulmuşdur. Azərbaycanın Gürcüstandakı səfirliyi 1996-cı ilin mart ayından etibarən fəaliyyət göstərir.

Azərbaycan Respublikası Prezidentinin 17 noyabr 2009-cu il tarixli sərəncamı ilə Gürcüstanın Batumi şəhərində Azərbaycan Respublikasının Baş Konsulluğu təsis edilmiş və 3 dekabr 2010-cu il tarixdən Baş Konsulluq rəsmi fəaliyyətə başlamışdır. Gürcüstanın Azərbaycandakı səfirliyi 1995-ci ilin fevral ayından etibarən fəaliyyət göstərir. Gəncə şəhərində Gürcüstanın Baş konsulluğu 2013-cü il dekabrın 12-də rəsmi fəaliyyətə başlamışdır. Ölkələrimizin parlamentləri arasındakı əlaqələr də günün tələbləri səviyyəsindədir. Azərbaycan Respublikasının Milli Məclisində Azərbaycan–Gürcüstan parlamentlərarası əlaqələr üzrə işçi qrupu fəaliyyət göstərir.

Bakı və Tbilisi arasındakı hərtərəfli əməkdaşlığı dövlət və hökumət rəhbərlərinin qarşılıqlı səfərləri daha da genişləndirir və tərəflərin maraqları yüksək səviyyədə təmin edilir. Elə bu sətirləri də dövlət başçımızın Gürcüstana son səfəri zamanı səsləndirdiyi fikirlərlə zənginləşdirmək istəyirik.

Cənab Prezident ötən il oktyabrın 24-də Mçxeta rayonundakı Muxrani sarayında "Qarabağ xanlığının irsi" sərgisi ilə tanış olduqdan sonra mətbuata verdiyi bəyanatda qeyd etmişdi ki, bu gün strateji tərəfdaşlıq əlaqələrimiz, demək olar ki, müttəfiqlik səviyyəsinə qalxıbdır. Çünki bir çox sahələr üzrə biz fəal əməkdaşlıq edirik: "Həm beynəlxalq təşkilatlar çərçivəsində daim bir-birimizi dəstəkləyirik, eyni zamanda, ikitərəfli formatda... İkinci Qarabağ müharibəsindən sonra yaranmış vəziyyətlə və Ermənistanla Azərbaycan arasında sülh danışıqlarının gedişatı ilə bağlı mən Baş naziri məlumatlandırdım. Biz hesab edirik ki, Qarabağ münaqişəsi başa çatandan sonra vaxt gəlib çatıb ki, Azərbaycan və Ermənistan sülh müqaviləsi imzalasınlar... Ümid edirəm ki, Ermənistan tərəfi də siyasi iradə göstərərək beynəlxalq birlik tərəfindən tanınan bu əsas təməl prinsiplər əsasında Azərbaycanla sülh müqaviləsini imzalayacaqdır. Əgər belə olarsa, Cənubi Qafqaza sülh gələcək".

Xatırladaq ki, Gürcüstanla Azərbaycan arasında yükdaşımaların həcmi durmadan artır. Azərbaycan Bakı–Tbilisi–Qars dəmir yolunun ötürmə qabiliyyətini 5 milyon tona çatdırmaq fikrindədir. Bu məqsədlə Azərbaycan tərəfindən əlavə sərmayə qoyulacaq. Çünki dünyada Xəzər üzərindən Azərbaycan, Gürcüstan və qonşu ölkələrlə keçən nəqliyyat yollarına böyük ehtiyac var. Yeni nəqliyyat yolları həm geosiyasi vəziyyətlə bağlı önəmlidir, həm də bütövlükdə, yol boyunca yerləşən bütün ölkələr üçün xüsusi əhəmiyyət kəsb edir.

*İttifaq MİRZƏBƏYLİ,*
*"Xalq qəzeti"*

# Əlaqələr getdikcə dərinləşir

**Serbiya Respublikasında rəsmi səfərdə olan Milli Məclisin Sədri Sahibə Qafarova Baş nazir Ana Brnabiç ilə görüşüb.**



Milli Məclisin mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən redaksiyamıza verilən məlumata görə, parlamentin rəhbərini səmimiyyətlə salamlayan Baş nazir deyib ki, dost ölkələrimiz arasında əlaqələr uğurla inkişaf edir. O, Azərbaycanın Serbiya üçün çox böyük əhəmiyyətə malik ölkə olduğunu bildirib. Ana Brnabiç vurğulayıb ki, müsbət siyasi dialoq və qarşılıqlı səfərlər bu əlaqələrin daha da dərinləşməsinə imkan verir.

Baş nazir Azərbaycan Prezidenti İlham Əliyevin Serbiyaya ötən il baş tutan səfərini və dövlət başçısı ilə görüşünü məmnunluqla xatırlayaraq nəticələrin uğurlu olduğunu diqqətə çatdırıb. O, ölkələrimiz arasında iqtisadi sahədə mövcud olan münasibətlərin, o cümlədən enerji sektorunda əməkdaşlığın önəmini qeyd edib. Deyib ki, enerji təhlükəsizliyi məsələsi milli təhlükəsizlik baxımından olduqca vacibdir. Bununla yanaşı, Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın mühüm rolunu vurğulayıb. A.Brnabiç Azərbaycan və Serbiyanın bir çox sahələrdə, o cümlədən suverenlik və ərazi bütövlüyü məsələlərində həmrəyliyini və bir-birinə qarşılıqlı dəstək verdiyini qeyd edib.

Göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirən Milli Məclisin Sədri Sahibə Qafarova diqqəti dost və strateji tərəfdaş olan ölkələrimiz arasında ali və yüksək səviyyəli qarşılıqlı səfərlərin mühüm roluna yönəldib. O, bu kontekstdə xüsusilə, Prezident İlham Əliyevin 2022-ci ilin noyabrında Serbiyaya rəsmi, həmçinin Prezident Aleksandr Vuçiçin 2018-ci ilin mayında Azərbaycana rəsmi və 2022-ci ilin dekabrında işgüzar səfərlərinin önəmini vurğulayıb.

S.Qafarova deyib ki, Azərbaycan və Serbiya arasında ikitərəfli və çoxtərəfli münasibətlərdə müsbət amillərdən biri də qanunverici orqanlar arasında əlaqələrdir. Bu səfərin Azərbaycan Milli Məclisinin Sədri qismində Serbiyaya ilk səfər olduğunu deyən Sahibə Qafarova bir neçə gün əvvəl Serbiya Milli Assambleyasının Sədri Vladimir Orliçin parlamentin Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş xüsusi iclasında iştirak etmək üçün ölkəmizə səfər etdiyini məmnunluqla xatırladıb. S.Qafarova parlamentlərimiz arasında bir sıra beynəlxalq təşkilatlar çərçivəsində sıx əməkdaşlığı daha da inkişaf etdirmək üçün yaxşı imkanlar olduğunu da diqqətə çatdırıb. Həmçinin Azərbaycan və Serbiya parlamentləri arasında imzalanan anlaşma memorandumunun münasibətlərin daha da genişlənməsinə xidmət edəcəyinə inamını bildirib.

Görüşdə, həmçinin regionda mövcud olan vəziyyət, Azərbaycanın işğaldan azad olunmuş ərazilərində həyata keçirilən genişmiqyaslı quruculuq və bərpa işləri barədə də məlumat verilib. Eyni zamanda, qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

***

Serbiya Respublikasında rəsmi səfərdə olan Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti Belqradda Azərbaycanın Serbiyadakı səfirliyi tərəfindən keçirilən 28 May - Müstəqillik Gününə həsr olunmuş tədbirdə iştirak edib. Tədbir iştirakçılarını salamlayan parlamentin rəhbəri Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç, Serbiya Respublikasının Baş naziri Ana Brnabiç, Serbiya Respublikası Milli Assambleyasının Sədri Vladimir Orliç ilə keçirdiyi görüşlərdən söz açıb.

Sədr 105 il əvvəl –28 May 1918-ci ildə Azərbaycan xalqının öz çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək müsəlman Şərqində ilk demokratik parlament respublikasını təsis etməsindən danışıb. O diqqətə çatdırıb ki, həmin dövrdə ilk parlament və hökumət, dövlət atributları yaradıldı, ölkənin sərhədləri müəyyən edildi, dövlət quruculuğu, respublikanın beynəlxalq münasibətlər sisteminin subyekti kimi tanınması sahəsində mühüm işlər görüldü. Parlamentin qəbul etdiyi qanunlar milli müstəqilliyin möhkəmləndirilməsində, ölkənin siyasi, iqtisadi və mədəni inkişafının təmin olunmasında mühüm rol oynayıb.

S.Qafarova vurğulayıb ki, Azərbaycan hələ 1918-ci ildə Şərqdə ilk dəfə və bəzi Avropa ölkələrindən də xeyli əvvəl qadınlara səsvermə hüququ verib. Bu, ilk Demokratik Azərbaycan Respublikasının uğurlarından biri idi.

Ötən il Azərbaycan və Serbiya arasında diplomatik münasibətlərin qurulmasının 25 ilinin tamam olduğunu deyən parlamentin Sədri bu illər ərzində Azərbaycanla Serbiya arasında münasibətlərin dinamik inkişaf etdiyni diqqətə çatdırıb.

Hazırda regionda mövcud vəziyyət barədə məlumat verən S.Qafarova Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizini Ermənistanın 30 illik işğalından azad edərək, orada həyata keçirilən yenidənqurma, tikinti–quruculuq işlərindən söhbət açıb.

Sahibə Qafarova müharibədə qalib gəlməsinə baxmayaraq, məhz Azərbaycanın sülh sazişini təklif etdiyini diqqətə çatdırıb. Deyib ki, Azərbaycan və Ermənistan arasında sülh sazişi imzalansa, Qafqazda uzunmüddətli sülh bərqərar olacaq.

*Əliqismət BƏDƏLOV,*
*"Xalq qəzeti"*

# "Bir millət, iki dövlət, bir yumruq"

## Qars və İğdır sakinləri də bu şüar ətrafında birləşiblər




**Milli Məclis Sədrinin müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Türkiyənin İğdır və Qars vilayətlərinə səfərdən qayıdıb. Nümayəndə heyətinin tərkibinə Milli Məclisin deputatları, şəhid atası və Vətən müharibəsi qazisi daxil idi. İctimaiyyət nümayəndələri ilə birlikdə İğdır vilayətində Soyqırımı abidəsi və muzeyi ziyarət edildikdən sonra görüşlər başlanıb.**

İlk olaraq, vali Hüseyn Engin Sarıibrahimlə keçirilən görüşdə ölkələrimiz arasında çoxillik münasibətlərdən, tarixi dostluqdan söhbət açılıb. Türkiyə və Azərbaycanın dostluq və qardaşlığının həm tarixən, həm də müasir dövrdə qürurverici hadisələrlə zəngin olması, Nuru paşanın rəhbərliyi ilə Qafqaz İslam Ordusunun 1918-ci ildə Azərbaycana gəlişi və yenicə müstəqillik qazanmış Azərbaycan Xalq Cümhuriyyətinin taleyində misilsiz rolu qeyd edilib.

Sonra nümayəndə heyəti hakim Ədalət və İnkişaf Partiyasının İğdır başqanlığında olub. Orada mövcud vəziyyət, ölkələrimiz arasında qarşılıqlı dostluq və mütəffiqlik müzakirə edilib. İki ölkə prezidentləri arasında olan dostluq və qardaşlıq münasibətlərinin əməkdaşlığın daha da möhkəmləndirilməsinə xüsusi önəm verdiyi qeyd edilib.

A.Əliyev 2020-ci ildə 44 günlük Vətən müharibəsi zamanı ilk andan Prezident Rəcəb Tayyib Ərdoğanın Türkiyənin Azərbaycana siyasi dəstəyini ifadə edərək ölkəmizin yanında olmasını qardaşlığımızın əyani təcəssümü kimi dəyərləndirib. Prezident İlham Əliyevin bəyan etdiyi kimi, məhz Türkiyə Prezidentinin bu mesajı bir çox ölkələrin Azərbaycanla Ermənistan arasındakı müharibəyə xaricdən müdaxilə cəhdlərinin qarşısını alıb.

Qardaş ölkə Prezidentinin işğaldan azad edilmiş torpaqlarımıza və Şuşa şəhərinə səfərindən söhbət açan sədr müavini deyib ki, 2021-ci il iyunun 15-də iki ölkə prezidentlərinin iştirakı ilə Azərbaycan və Türkiyə arasında müttəfiqlik münasibətlərinə dair Şuşa Bəyannaməsini imzalanması faktiki müttəfiqliyimizi rəsmiləşdirdi və münasibətlərimizdə yeni eranın əsasını qoydu. Bu, həm də Türkiyə–Azərbaycan qardaşlığının daha da möhkəmlənməsi deməkdir.

A.Əliyev səfər təəssüratları barədə qəzetimizə verdiyi açıqlamada bildirib ki, belə səfərlər ölkələrimiz arasında münasibətlərin inkişafında təkcə siyasi sfera ilə məhdudlaşmır, eyni zamanda, iqtisad, sosial, mədəni əlaqələrimizin daha da dərinləşməsi və müştərək layihələrimizin uğurla icra olunmasında mühüm əhəmiyyət kəsb edir: "Qarsda, İğdırda yaşayan Azərbaycan kökənli türk vətəndaşları da Azərbaycan və Türkiyə arasında bu münasibətlərdən məmnundurlar və əməkdaşlığın daha da möhkəmləndirilməsinə yardımçı olacaqlar. Prezident İlham Əliyevin dediyi kimi, xalqlarımız "Bir millət, iki dövlət, bir yumruq" şüarı ətrafında sıx birləşiblər.

*Ə.BƏDƏLOV,*
*"Xalq qəzeti"*



# Naxçıvan təbii məhsullarını dünyaya uğurla təqdim edir

**Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Bakıda keçirilən 16-cı Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı və 28-ci Azərbaycan Beynəlxalq Qida Sənayesi sərgilərində iştirak etmiş naxçıvanlılarla görüşüb.**

Fuad Nəcəfli muxtar respublikanın kənd təsərrüfatı və iqtisadiyyat nazirliklərinin əməkdaşlarına, sahibkarlara və ailə təsərrüfatçılarına beynəlxalq sərgilərdə fəal iştiraka və "Orqanik Naxçıvan" brendini uğurla təbliğ etdiklərinə görə təşəkkür edib, Prezident İlham Əliyevin və birinci vitse-prezident Mehriban xanım Əliyevanın Naxçıvan stendinə xüsusi maraq göstərməsini qürurverici hal kimi dəyərləndirib.

Görüşdə bildirilib ki, 31 ölkədən 479 şirkətin iştirak etdiyi, 9 ölkənin isə milli stendlərlə təmsil olunduğu sərgilərdə ilk dəfə Naxçıvan Muxtar Respublikasının da ayrıca pavilyonu yaradılıb və Naxçıvanın təbii məhsulları böyük maraqla qarşılanıb. Bu uğurun qazanılmasında Naxçıvanda kənd təsərrüfatı və istehsal sahələrində prioritetlərin müəyyənləşdirilməsinin və ilkin islahatların aparılmasının önəmi vurğulanıb.

Qeyd edilib ki, aqrar sahədə gerçəkləşdirilmiş tədbirlərin davamı olaraq tezliklə institutlaşdırma işləri aparılacaq. Bundan əlavə, Naxçıvanın qida və xammal məhsullarının sertifikatlaşdırılması, xarici bazarda yer tutması üçün ciddi marketinq işləri aparılacaq və ixrac dəstəklənəcək.

Görüşdə sahibkarların və ailə təsərrüfatçılarının təklifləri dinlənilib, onlar "Orqanik Naxçıvan" brendi ilə kooperativ iştiraka dəvət edilib.

*S.HƏSƏNOV,*
*"Xalq qəzeti"nin bölgə müxbiri*

# Londonun şöhrətli muzeyində Heydər Əliyev təntənəsi





**Böyük Britaniyanın tarixi, memarlıq və mədəniyyət ocağı, dünyanın nüfuzlu muzeylərindən olan Viktoriya və Albert Muzeyinin "Rafael" qalereyasında ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.**



Qeyd edək ki, ümummilli lider Heydər Əliyev 1998-ci ildə Böyük Britaniyaya səfəri zamanı tədbirin təşkil olunduğu bu məkanda konsertdə iştirak etmiş və çıxış etmişdi. Ümummilli lider bu tarixi salonda Azərbaycan musiqisi və incəsənətinin təqdim edilməsinin vacibliyini vurğulamışdı. Həmin əlamətdar tarixi məqam mayın 25-də Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan tədbirə daha bir özəllik verirdi.



Heydər Əliyev Fondunun dəstəyi ilə keçirilən tədbirdə Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolson, Azərbaycan Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov, Böyük Britaniya Parlamentinin İcmalar palatasının deputatları, lordlar, Milli Məclisin Azərbaycan-Böyük Britaniya parlamentlərarası əlaqələr üzrə İşçi Qrupunun sədri, bu ölkədə akkreditasiya olunmuş diplomatik korpusun üzvləri, özəl sektorun nümayəndələri, tanınmış ictimai xadimlər, Böyük Britaniyadakı Azərbaycan icmasının üzvləri iştirak ediblər.

Tədbirdə ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş sərgi və konsert proqramı təqdim edilib. Sərgidə ulu öndərin həyatı və siyasi fəaliyyətinə dair, Azərbaycan tarixinin əsas hadisələri, Azərbaycan–Böyük Britaniya ikitərəfli münasibətləri haqqında foto və məlumatlar yer almışdı.

Azərbaycanın Böyük Britaniyadakı səfiri Elin Süleymanov çıxış edərək ümummilli lider Heydər Əliyevin Azərbaycanın dünyada mövqeyinin möhkəmləndirilməsi, dövlətlərarası əlaqələrin genişləndirilməsi istiqamətindəki müstəsna xidmətlərindən danışıb.

Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolson çıxışında Heydər Əliyevi müasir Azərbaycanın qurucusu və çiçəklənməsinin səbəbkarı adlandırıb.

Konsert proqramında Böyük Britaniyada yaşayan Azərbaycan skripkaçısı Nəzrin Rəşidovanın yaratdığı, 25 ölkənin nümayəndələrinin cəmləşdiyi "FeMusa" kamera orkestri, Əməkdar artist, tarzən Sahib Paşazadə, Londonda yaşayan həmyerlimiz, skripka ifaçısı Səbinə Rakçeyeva çıxış edib.

***"Xalq qəzeti"***

## Mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən 2023-cü ilin iyun ayında şəhər və rayonlarda keçiriləcək vətəndaşların qəbulu cədvəli

| S/n | Qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanı və idarəetmə qurumunun rəhbəri | Qəbulun keçirildiyi şəhər, rayon | Əhatə olunan şəhər və rayonlar | Qəbulun keçirildiyi gün |
|---|---|---|---|---|
| 1. | **Ədliyyə naziri** Fikrət Məmmədov | Qazax | Qazax, Ağstafa, Tovuz | 02 |
| 2. | **Baş prokuror** Kamran Əliyev | Astara | Astara, Lənkəran, Lerik, Masallı, Yardımlı | 02 |
| 3. | **Rəqəmsal inkişaf və nəqliyyat naziri** Rəşad Nəbiyev | Qusar | Qusar, Quba, Xaçmaz | 05 |
| 4. | **"Azəriqaz" İstehsalat Birliyinin baş direktoru** Ruslan Əliyev | Cəlilabad | Cəlilabad, Biləsuvar, Cəbrayıl | 05 |
| 5. | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** Mübariz Qurbanlı | Lənkəran | Lənkəran, Astara, Lerik | 08 |
| 6. | **Baş prokuror1** Kamran Əliyev | Hacıqabul | Hacıqabul, Şirvan, Salyan | 09 |
| 7. | **Fövqəladə hallar naziri** Kəmaləddin Heydərov | Qobustan | Qobustan, Şamaxı | 09 |
| 8. | **Mədəniyyət naziri** Adil Kərimli | Gəncə | Gəncə, Naftalan, Goranboy, Samux, Kəlbəcər, Xocalı | 09 |
| 9. | **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri** Bahar Muradova | Şəmkir | Şəmkir, Gədəbəy, Daşkəsən, Göygöl | 09 |
| 10. | **Gənclər və idman naziri** Fərid Qayıbov | İmişli | İmişli, Saatlı, Sabirabad | 12 |
| 11. | **Daxili işlər naziri** Vilayət Eyvazov | İsmayıllı | İsmayıllı, Ağsu, Göyçay, Şamaxı, Qobustan | 13 |
| 12. | **Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri** Rövşən Rzayev | Xaçmaz | Xaçmaz, Quba, Qusar, Şabran, Siyəzən | 14 |
| 13. | **Dövlət Gömrük Komitəsinin sədri** Şahin Bağırov | **Quba** | Quba, Qusar | 16 |
| 14. | **Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri** Anar Quliyev | Salyan | Salyan, Neftçala | 20 |
| 15. | **"Azərişıq" ASC-nin sədri** Vüqar Əhmədov | **Samux** | Samux, Göygöl | 22 |
| 16. | **"Azəristiliktəchizat" ASC-nin sədrinin vəzifəsini müvəqqəti icra edən** İlham Mirzəliyev | Tərtər | Tərtər, Ağdam | 22 |
| 17. | **Ekologiya və təbii sərvətlər naziri** Muxtar Babayev | Göyçay | Göyçay, Ağdaş | 23 |
| 18. | **Elm və təhsil naziri** Emin Əmrullayev | Qazax | Qazax, Ağstafa, Tovuz, Şəmkir, Gədəbəy | 23 |
| 19. | **Energetika naziri** Pərviz Şahbazov | Qusar | Qusar, Quba, Xaçmaz, Şabran, Siyəzən | 23 |
| 20. | **İqtisadiyyat naziri** Mikayıl Cabbarov | Şamaxı | Şamaxı, Qobustan | 23 |
| 21. | **Kənd təsərrüfatı naziri** Məcnun Məmmədov | Göygöl | Göygöl, Daşkəsən | 23 |
| 22. | **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi** Mürsəl İbrahimov | Şəmkir | Şəmkir, Gəncə, Goranboy, Samux, Göygöl, Daşkəsən, Kəlbəcər | 23 |
| 23. | **Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri** Saleh Məmmədov | Şabran | Şabran, Xaçmaz | 23 |
| 24. | **Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri** Zaur Mikayılov | Sumqayıt | Sumqayıt, Qubadlı | 23 |
| 25. | **İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri** Zaur Əliyev | Gəncə | Gəncə, Samux, Kəlbəcər | 23 |
| 26. | **Qida Təhlükəsizliyi Agentliyinin sədri** Qoşqar Təhməzli | Xaçmaz | Xaçmaz, Quba, Qusar, Şabran, Siyəzən | 23 |
| 27. | **Əmək və əhalinin sosial müdafiəsi naziri** Sahil Babayev | Salyan | Salyan, Neftçala | 25 |

**Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat 10:00-da başlayır.**

# Azərbaycan beynəlxalq Kazan forumunda

**Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayevin rəhbərlik etdiyi nümayəndə heyəti Kazanda keçirilən "Rusiya – İslam dünyası: Kazan Forumu" adlı 14-cü beynəlxalq iqtisadi forumda ölkəmizi təmsil edib.**




AZƏRTAC xəbər verir ki, Şahin Mustafayev forum çərçivəsində "İqtisadi etibarlılıq. Rusiya və İslam Əməkdaşlıq Təşkilatı (İƏT) ölkələri arasında əməkdaşlıq" sərlövhəsi altında keçirilən plenar iclasda çıxış edib. Baş nazirin müavini İslam dünyası ilə əlaqələrin Azərbaycanın xarici siyasətində xüsusi yer tutduğunu, ölkəmizin müstəqilliyin bərpasından sonra İƏT-ə üzv olan ilk postsovet ölkəsi olduğunu vurğulayıb. Bildirib ki, ötən 30 ildən artıq dövrdə təşkilata üzv dövlətlərlə iqtisadi-siyasi əlaqələr artan istiqamətdə davam edib. Belə ki, ötən il Azərbaycanın İslam Əməkdaşlıq Təşkilatı ölkələri ilə ticarət dövriyyəsi 42 faiz artaraq 9,3 milyard ABŞ dollarına çatıb. Təşkilata üzv ölkələrin Azərbaycanın xarici ticarət dövriyyəsindəki payı 18 faiz təşkil edir. İqtisadi əlaqələrdə müsbət dinamika bu ilin geridə qalan dövründə də davam edib.

Şahin Mustafayev çıxışında ölkəmizin beynəlxalq nəqliyyat marşrutları üçün əhəmiyyətli və həlledici rolundan da danışıb. Zəngəzur dəhlizinin işə düşməsi ilə "Şimal-Cənub", "Şərq Qərb" nəqliyyat istiqamətlərinin, region ölkələri üçün böyük imkanlar yaradacağı vurğulanıb. Azərbaycanın inkişaf etmiş nəqliyyat, tranzit infrastrukturu ilə nəhəng layihələrin icrasına hazır olduğu bildirilib və bu xüsusda Bakı Beynəlxalq Dəniz Limanının əhəmiyyəti xüsusi vurğulanıb.

Baş nazirin müavini İƏT üzvlərinin Qarabağ münaqişəsi zamanı ədalətli mövqe sərgiləməsinin ölkəmizdə yüksək qiymətləndirildiyini bildirib. Qeyd edib ki, münaqişə artıq tarixdə qalıb. Azərbaycan Ermənistanla münasibətlərin normallaşmasının, regionda sülhün, sabitliyin və iqtisadi çiçəklənmənin əsas təşəbbüskarı olaraq qalmaqdadır.

Kazan səfəri çərçivəsində Rusiya-Azərbaycan münasibətlərinə həsr edilmiş dəyirmi masa da təşkil edilib. Müzakirələr zamanı Rusiya və Azərbaycan arasında iqtisadi-siyasi əlaqələrin çoxşaxəli, zəngin tarixi keçmişə malik olduğu vurğulanıb. Azərbaycan Prezidenti İlham Əliyevin və Rusiya Prezidenti Vladimir Putinin siyasi iradəsi və birgə səyləri ilə ikitərəfli əlaqələrin strateji səviyyəyə çatdığı və demək olar ki, bütün mümkün sahələri əhatə etdiyi qeyd olunub. Qarşılıqlı maraqlara xidmət edən ikitərəfli münasibətlərin imzalanmış 250-dən artıq sənədin, o cümlədən müttəfiqlik bəyannaməsinin yaratdığı möhkəm hüquqi bazaya əsaslandığı diqqətə çatdırılıb.

Şahin Mustafayev ötən il ticarət dövriyyəsinin 24 faiz artaraq 3,7 milyard ABŞ dollarına çatdığını qeyd edib. Bildirib ki, 2023-cü ilin ilk kvartalında ticarət əlaqələrinin 67 faiz artması bu il ikitərəfli iqtisadi əlaqələrdə yeni, daha yüksək göstəricilərin əldə ediləcəyinə əsaslı inam yaradır.

İki ölkənin hökumətləri arasında da aktiv işin aparıldığını diqqətə çatdıran Baş nazirin müavini bu xüsusda "2024-cü ilə qədər ikitərəfli əməkdaşlığın əsas istiqamətlərinin inkişaf etdirilməsi ilə bağlı hərəkət planı"nın böyük əhəmiyyətə malik olduğunu qeyd edib. Bundan başqa, qarşıya qoyulan əsas vəzifələrdən birinin iki ölkənin regionları arasında əlaqələrin inkişafı olduğu bildirilib. Bu istiqamətdə 2022-ci ildə Bakıda Azərbaycan-Rusiya regionlararası forumunun keçirilməsi, mütəmadi əsasda təşkil edilən biznes forumların, eləcə də Azərbaycanın və Rusiyanın vilayətləri arasında biznes-missiyaların icrasının xüsusi əhəmiyyətə malik olduğu vurğulanıb.

Baş nazirin müavini Rusiya və Azərbaycan prezidentlərinin regionlararası əlaqələrin inkişafına dair tapşırıqlarının aktiv şəkildə icra edildiyini diqqətə çatdırıb. Bu istiqamətdə ötən ilin sonunda və cari ilin əvvəlində Dağıstan, Tatarıstan və Həştərxan vilayəti ilə yüksək səviyyəli qarşılıqlı səfərlərin həyata keçirildiyi vurğulanıb.

Şahin Mustafayev fürsətdən istifadə edərək, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr edilmiş tədbirlərin yüksək səviyyədə təşkilinə görə Həştərxan vilayəti hökumətinə təşəkkürünü bildirib.

"Rusiya – İslam dünyası: Kazan Forumu" çərçivəsində Tatarıstanın paytaxtında "Russia Halal Expo" sərgisi keçirilib. Azərbaycan sərgidə vahid ölkə stendi ilə təmsil olunub. Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Agentliyi (AZPROMO), Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) birgə dəstəyi ilə Azərbaycan məhsulları - müxtəlif ət və ət məhsulları, narşərab, kompot, mürəbbə, çay və digər məhsul və xidmətlər təqdim edilib. Azərbaycan stendində, eyni zamanda, işğaldan azad edilmiş ərazilərin iqtisadi potensialı, investisiya imkanları nümayiş olunub.

Ölkəmizi "Rusiya – İslam dünyası: Kazan Forumu" adlı 14-cü beynəlxalq iqtisadi forumda təmsil edən nümayəndə heyəti Azərbaycan stendi ilə tanış olub.

Kazan şəhərinə səfər çərçivəsində Baş nazirin müavini Şahin Mustafayev Rusiya Prezidentinin köməkçisi İqor Levitin, Rusiya Hökuməti sədrinin birinci müavini Andrey Belousov, eləcə də hökumət sədrinin müavini Aleksey Overçuk ilə görüşüb.

Görüşlərdə Azərbaycan-Rusiya iqtisadi əlaqələrinin perspektivləri, nəqliyyat-logistika imkanlarının genişləndirilməsi yolları müzakirə edilib.

Ölkəmizi təmsil edən nümayəndə heyətinin Rusiya Hökuməti sədrinin müavini Marat Xusnullin və Tatarıstan Respublikasının rəhbəri Rüstəm Minnixanov ilə görüşündə isə əsasən, Azərbaycanın və Rusiyanın regional subyektləri arasında əlaqələrin inkişaf potensialı müzakirə edilib. Bu xüsusda ölkəmizin Tatarıstanla çoxşaxəli iqtisadi, təhsil, turizm münasibətlərinin yaxşı nümunə ola biləcəyi vurğulanıb.

# MSK 2023-cü ilin daimi seçicilər siyahısına yekun vurub

**Azərbaycan Respublikası Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq, cari il yanvarın əvvəllərindən etibarən ölkə üzrə vahid seçicilər siyahısının tərtib edilərək dəqiqləşdirilməsinə başlanılıb. Təqribən beş ay ərzində ardıcıl və sistemli şəkildə həyata keçirilən əhatəli prosesdən sonra 2023-cü il üzrə daimi seçici siyahılarının hazırlanmasına yekun vurulub.**

Qeyd edək ki, seçki qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada hər ilin əvvəlindən daimi seçici siyahıları müvafiq icra hakimiyyəti orqanları və bələdiyyə qurumu başçılarının, hərbi hissə komandirlərinin aktiv seçki hüququna malik olan seçicilər haqqında təqdim etdikləri məlumatlar əsasında məntəqə və dairə seçki komissiyaları tərəfindən tərtib olunduqdan sonra MSK-ya təqdim edilməlidir. Bununla bağlı müvafiq işlər görüldükdən sonra seçici siyahıları mayın 30-dək müvafiq seçki komissiyaları tərəfindən təsdiqlənməli və dövlət avtomatlaşdırılmış informasiya sistemindən də istifadə olunmaqla ictimailəşdirilməlidir. Builki daimi seçici siyahılarının tərtib edilib dəqiqləşdirilməsi də Seçki Məcəlləsinin yuxarıda vurğulanan tələblərinə uyğun gerçəkləşdirilib.

Mayın 26-da MSK üzvləri tərəfindən media təmsilçilərinin də iştirakı ilə Komissiyanın inzibati binasında vahid seçicilər siyahısının yenidən tərtib edilmiş variantına baxış keçirilib və siyahıların saxlanma şəraiti ilə tanışlıq olub. Məlumat verilib ki, vahid seçici siyahılarının yenidən tərtib edilməsi, yoxlanılması və dəqiqləşdirilməsində fasiləsiz onlayn rejimdə fəaliyyət göstərən dövlət avtomatlaşdırılmış informasiya sisteminin yaratdığı imkanlardan geniş istifadə edilib. "Seçkilər" informasiya şəbəkəsi üzərindən həyata keçirilən interaktiv ani məlumat mübadiləsi seçici siyahıları ilə bağlı görülən işləri daha da sürətləndirib, seçici siyahılarına daxil edilən seçicilərin məlumatlarının orfoqrafik təftişi, təkrar və oxşar seçici məlumatlarının hərtərəfli təhlil edilərək müvafiq addımların atılması, nöqsanların aradan qaldırılması, o cümlədən seçici siyahılarının keyfiyyətlə hazırlanması və çap olunmasını təmin edib.

Seçici siyahılarının çapı və saxlanması şəraiti ilə tanışlıqdan sonra Məzahir Pənahovun sədrliyi ilə MSK-nın iclası keçirilib. İclasda 2023-cü ilin daimi seçici siyahılarının yenidən tərtib edilməsi, təsdiqi və ictimailəşdirilməsi məsələsinə baxılıb. Aparılan geniş müzakirələr zamanı Komissiya üzvləri bütün digər vasitələrlə bərabər, informasiya-kommunikasiya texnologiyalarının imkanlarından da faydalanmaqla siyahıların dəqiqləşdirilməsi prosesinin və görülən işlərin daha da təkmilləşdirildiyini, səmərəliliyin yüksəldiyini xüsusi qeyd ediblər.

Məlumat üçün qeyd edək ki, dəqiqləşdirmə prosesinin sonunda ölkə üzrə vahid seçicilər siyahısına 6 milyon 334 min 178 seçici daxil edilib. Onların 47,44 faizi kişi, 52,56 faizi isə qadınlardır.

Tədbirdə, həmçinin MSK-nın cari il aprelin 12-də keçirilmiş iclasının protokolu təsdiq olunub və bir sıra seçki dairələri üzrə dairə seçki komissiyalarının tərkibində dəyişikliklər edilib.

# Müsəlman Şərqinin ilk Cümhuriyyəti

(əvvəli 1-ci səhifədə)

***Azərbaycan xalqını təmsil edən Milli Şura tərəfindən 1918-ci il mayın 28-də müsəlman Şərqində ilk dəfə olaraq respublika formasında dövlət müstəqilliyi elan edildi. Cümhuriyyətin qurulmasına aparan yol necə olub, ona hansı amillər təsir edib? Azərbaycan hökumətinin daxili siyasəti necə həyata keçirilib və əhəmiyyəti nədən ibarət olub? Cümhuriyyətin xarici siyasət fəaliyyəti necə olub? Hansı amillər Cümhuriyyətin süqutuna gətirib? Cümhuriyyət dövrü tariximizdən nələr öyrənilməli və hansı ibrət dərsləri alınmalıdır?***

## Cümhuriyyətə gətirən yol

Cümhuriyyətin elanı göydəndüşmə deyil, bir sıra amillərin təsiri altında oldu. Məlumdur ki, şimal torpaqlarının xanlıqlar formasında çarizm tərəfindən işğalına qədərki dövrlərdə də Azərbaycan xalqının zəngin dövlətçilik ənənələri var idi. İşğaldan sonra tamamilə yeni bir şərait yarandı. Torpaqları iki yerə bölüşdürülsə də, Azərbaycan xalqı işğalla barışmadı. Müqavimət hərəkatı, üsyanlar baş verdi. Amansızlıqla yatırılan üsyanlardan sonra müstəqillik məfkurəsinin, onun daşıyıcılarının məhvinə başlandı. Müstəmləkəçiliyə qarşı çıxanları amansız Sibir sürgünləri və həbsxanalar gözləyirdi. Mənbələrdən aydın olur ki, Cümhuriyyət elan edilənədək Sibir sürgünündə təxminən 5 min nəfər azərbaycanlı var idi.

Çarizm orqanları hakimiyyət əleyhinə olan ən xırda təzahürləri qəddarlıqla məhv edirdi. Aparılan islahatlar başlıca olaraq ümumi müstəmləkəçilik mənafelərinə, milli ucqarları imperiya mərkəzinə daha möhkəm bağlamağa yönəlmişdi. Bunun vasitələrindən biri Azərbaycanda demoqrafik şəraiti dəyişdirmək idi. Həmin məqsədlə qeyri-azərbaycanlılar, xüsusən ermənilər azərbaycanlıların iri şəhərlərinə və müxtəlif yaşayış məntəqələrinə yerləşdirilirdilər. Yadellilərin gəlməsi, sadəcə, demoqrafik şəraiti dəyişdirmədi, onlar eyni zamanda, yerli əhaliyə məxsus münbit torpaqlara sahib oldular və varlandılar. Gəlmələr üçün əlverişli şərait yaradıldı. Bütün bunlar təkcə sosial deyil, etnik-milli ziddiyyətləri də kəskinləşdirirdi. Sonrakı dövrlərdə baş verən böhranlı anlarda məhz gəlmələr çarizmin müstəmləkəçilik siyasətinin yerlərdə dayaqlarına çevrildilər. Azərbaycanın qarşılaşdığı ərazi problemlərinin təməlləri çarizm tərəfindən süni şəkildə qoyuldu.

İmperiya maraqları naminə çarizm Azərbaycanda işlərin aparılmasında iştirak edən yerli etibarlı şəxslərdən ibarət məmurların hazırlanmasında maraqlı idi. Amma hansı məqsədlər güdməsindən asılı olmasına baxmayaraq, açılan yeni tipli məktəblər və mədəni-maarif müəssisələri Azərbaycan xalqının maariflənməsinə, dövrünün elm və mədəniyyət nailiyyətlərindən xəbər tutmasına xidmət edirdi. Ana dilində dərc edilən ilk qəzet xalqın oyanışında mühüm rol oynadı. İlk milli teatrın yaradılması cəhalət, xurafat və radikalizmə qarşı mübarizədə başlıca yerlərdən birini tutdu. Maarifçilik xalqda milli hisslərin oyanmasına, milli şüurun formalaşmasına, milli özünüdərkinə və nəhayət, milli hərəkatın yaranmasına gətirdi. Bu işlərin ağırlığını çiyinlərinə götürən Abbasqulu Ağa Bakıxanov, Mirzə Fətəli Axundov, Həsən bəy Zərdabi və digər ziyalılar xalqın maariflənməsində əvəzsiz xidmət göstərdilər. Azərbaycan xalqının millət olaraq formalaşmasında bu amillər, Rusiyada və dünyada gedən proseslər mühüm rol oynadı. İmperiya tərkibində olan Azərbaycanın şimalında xalqımızın ümmətçilikdən millətçiliyə keçməsi cənuba nisbətən sürətli oldu. "Azərbaycanlılar" ifadəsindən həmin vaxtlarda dərc edilən rus dilli qəzetlərdə istifadə edildi. Azərbaycanın şimalı Rusiya vasitəsi ilə Avropaya daha çox yaxınlaşdı. 1905-1907-ci illər inqilabı və ondan sonra baş verən proseslər Azərbaycana da yeniliklər gətirdi. Bu dövrdəki ictimai-siyasi hərəkatlarda iki böyük cərəyan – millətçilik, milli-azadlıq hərəkatı və sosial-demokratiya paralel gedirdi. Qarşıya qoyulan məqsədlərə çatmaq üçün Azərbaycan ziyalıları ictimai və siyasi təşkilatlar yaratdılar. Müxtəlif ictimai təşkilatlar, xeyriyyə cəmiyyətləri xalqın problemlərinin həllinə kömək göstərilməsində, humanitar əsasda birləşməsində müəyyən rol oynadı.

Millətin daxili enerjisindən yaranan millətçilik, milli-azadlıq hərəkatı son nəticədə imperiyanın dağılmasına, zülm altında inləyən xalqların azad olmasına, muxtariyyətinin və ya müstəqil dövlətlərinin yaradılması məqsədini güdürdüsə, sosial-demokratiya mahiyyətinə görə, monarxiya üsul-idarəsini, rejimi dəyişdirməklə xalqların imperiyada başqa ad altında yaşamasına yönəlmişdi. Azərbaycan xalqının istəklərinin ifadəçiləri, milli-azadlıq hərəkatının öncülləri Difai, Müsavat partiyaları, sosial-demokratiyanın təmsilçisi isə Hümmət oldu. İdeoloji prinsipləri və hədəfləri baxımından fərqli olmalarına, müxtəlif ictimai-siyasi cərəyanları təmsil etmələrinə baxmayaraq, partiyaların mövcudluğu Azərbaycan siyasi tarixinin, mədəniyyətinin zənginliyini, çoxtərəfliliyini və xalqın böyüklüyünü göstərir. Eyni zamanda millətin inkişafına dair ictimai-siyasi təşkilatların fərqli yollar axtarması da düşündürücü olub kənar təsirlərin səviyyəsinə və gücünə dair bir sıra suallar doğurur.

Çarizm Azərbaycanda türkçüləri, pantürkçüləri və panislamçıları, müstəqillik tərəfdarlarını amansızlıqla təqib edirdi. Birinci Dünya müharibəsi və ya o zaman deyildiyi kimi, Böyük müharibə xalqları özlərini qorumaq və gələcək həyatlarını necə qurmaq barədə düşündürürdü. İmperiyaların və müstəmləkə zülmü altında inləyən xalqların həyatlarının əvvəlki kimi olmayacağı, yeni dünya qaydasının yaranacağı artıq müharibənin əvvəllərindən aydın idi. Heç əbəs deyildir ki, müharibənin sonlarında dünyada və Rusiyada yaranmış mürəkkəb şəraitdə Azərbaycanın gələcəyini düşünən və taleyində müstəsna rol oynayan azərbaycanlı ziyalıları Əlibəy Hüseynzadə, Əhməd bəy Ağayev, Məhəmməd Əmin Rəsulzadə, Əlimərdan bəy Topçubaşov və b. ağır məsuliyyəti öz üzərlərinə götürərək müxtəlif yollar aramağa başladılar.

Fevral inqilabı nəticəsində Rusiyada çarizm devrildi və monarxiyaya son qoyuldu. Müvəqqəti hökumət quruldu. Ümumrusiya Müəssislər Məslisinə seçkilər keçirildi. Antanta ölkələrinin yardımı ilə Tiflisdə yeni hakimiyyət orqanı olan Transqafqaz Komissarlığı yaradıldı. Bu zaman Rusiyada faktiki olaraq üç hakimiyyət – Müvəqqəti hökumətin orqanları, sovetlər və milli ucqarlarda isə milli şuralar fəaliyyət göstərirdilər.

Xalqlar təlatümlü hadisələrin astanasında idilər. Əvvəlcə muxtariyyət istəyən azərbaycanlılar hadisələrin sürətli inkişafı nəticəsində müstəqillik yolunu tutdular.

Oktyabr ayında bolşeviklərin Müvəqqəti hökuməti devirib hakimiyyətə gəlməsi və Rusiyanın müharibədən çıxdığını elan etməsi tamamilə yeni bir şərait yaratdı. Noyabr ayının əvvəllərində Bakıda bolşeviklər hakimiyyəti ələ alaraq Bakı Sovetini yaratdılar. Rusiyanın müharibədən çıxdığını elan edən bolşevik hökuməti Almaniya və müttəfiqləri ilə barışıq imzaladı.

Cənubi Qafqazdan Ümumrusiya Müəssisələr Məclisinə seçilən deputatlar mərkəzdə fəaliyyətə başlaya bilmədilər. Müəssisələr Məclisi bolşeviklər tərəfindən qovulduqdan sonra onlar 1918-ci ilin fevralında Tiflisdə Transqafqaz Seymini yaratdılar. Seymdə Azərbaycan və ya o zaman deyildiyi kimi, müsəlman fraksiyası 44 nəfərdən ibarət idi. Aprel ayında Seym Cənubi Qafqazın müstəqilliyini elan edərək Zaqafqaziya Demokratik Federativ Respublikasını yaratdı.

Bolşevik Rusiyasının müharibədən çıxması, Cənubi Qafqazın müstəqilliyini elan etməsi Osmanlı dövlətinin region siyasətində əlverişli şərait yaratdı. Əhalisinin böyük əksəriyyəti türk, müsəlman olduğundan Osmanlı dövlətinin mövqeləri digər ölkələrdən üstün idi. Zəngin neft mənbələri olan və əlverişli coğrafi-siyasi mövqedə yerləşən Azərbaycan uğrunda böyük dövlətlərin mübarizəsi gücləndi.

Rus Qafqaz cəbhəsi dağıldı. Ordu hissələri ilə birlikdə geri dönən erməni silahlı bandaları Şərqi Anadoluda dinc türk, müsəlman əhaliyə qarşı törətdikləri kütləvi qırğınları Cənubi Qafqazda davam etdirdilər. Bu qırğınlar Cənubi Azərbaycanda, Cənubi Qafqazda Tiflis quberniyasının Borçalı qəzasında, İrəvan quberniyasında və indiki Azərbaycan Respublikasının müxtəlif yerlərində amansızlıqla törədildi. Qırğınların zirvə nöqtəsi Bakı Sovetinin və erməni-daşnak dəstələrinin 1918-ci ilin mart ayında Bakı şəhərində və Bakı quberniyasında azərbaycanlılara qarşı törətdiyi söyqırımı oldu. Soyqırımda başlıca məqsəd müstəqillik tərəfdarlarını məhv etmək, onun sosial dayaqlarını dağıtmaq, müharibənin son mərhələsində döyüşən dövlətlərin strategiyasında mühüm yer tutan Bakı neftinə sahib olmaq, Azərbaycanın Rusiyadan ayrılmasına imkan verməmək və Osmanlı ordusunun irəliləməsinin qarşısını almaq idi. Bakı Sovetinin rəhbəri Stepan Şaumyan sonralar deyirdi ki, azərbaycanlılar qələbə qazansaydılar şəhəri Azərbaycanın paytaxtı elan edəcəkdilər. Transqafqaz Seymi qırğınları dayandıra bilmədi. Azərbaycanlılar məğlub oldular. Bu məğlubiyyət həm də çarizm dövründə azərbaycanlıların hərbi xidmətə çağırılmamalarının acı nəticəsi idi. S. Şaumyan başda olmaqla Bakı Xalq Komissarları yaradıldı.



Ermənilərin əsassız iddiaları nəticəsində Seymdə daxili ziddiyyətlər kəskinləşdi. Xalqların ortaq dil tapa bilməmələri Seymin süqutunu yaxınlaşdırdı.

## Cümhuriyyətin yaranması

Almaniyaya arxalanan gürcülər mayın 26-da Seymdən çıxaraq dövlət müstəqilliklərini elan etdilər. Bir gün sonra, mayın 27-də Seymin Azərbaycan fraksiyası toplaşaraq dövlət müstəqilliyini elan etmək qərarına gəldi. Bu zaman Osmanlı ilə Transqafqaz Seymi arasında Batumda keçirilən danışıqlarında iştirak edən M.Ə.Rəsulzadə qiyabi olaraq Milli Şuranın sədri seçildi. Azərbaycan Milli Şurası xalqın istəyini yerinə yetirdi. Milli Şuranın mayın 28-də Tiflisdə keçirilən iclasında altı bənddən ibarət Azərbaycanın İstiqlal bəyannaməsi qəbul edildi.

Cümhuriyyətin ərazisi 113,9 min kv. km olub Cənub-Şərqi Zaqafqaziyanı əhatə edirdi. Onun 97,3 min kv. km mübahisəsiz, 16,6 min kv. km mübahisəli idi.

Bu zaman Cənubi Qafqazda 8 milyon 81 min 668 nəfər əhali yaşayırdı. Onun 4 milyon 617 min 671 nəfəri azərbaycanlı idi. Azərbaycan əhalisinin 75,4 faizini və ya 3 milyon 481 min 889 nəfərini azərbaycanlılar təşkil edirdi.

Digərləri müxtəlif dövrlərdə çarizmin köçürmə siyasəti nəticəsində Azərbaycana yerləşdirilən gəlmələr idi. Ölkə ərazisində yaşayan bütün xalqlar bərabər elan edildilər. Azərbaycanın idarə forması Xalq Cümhuriyyəti idi. Parlamentli respublika olan Azərbaycanın başında Milli Şura dayanırdı. Cümhuriyyətin elan edilməsi ilə Azərbaycan xalqı XX əsrdə ilk dəfə olaraq Dövlət Millətinə çevrildi. Əgər Azərbaycan Rusiya tərəfindən xanlıqlar formasında tək-tək işğal edilib imperiyanın tərkibinə qatılmışdısa, 1918-ci ildə tək millət, tək dövlət, tək vətən və tək bayraq olaraq ayrılıb müstəqil oldu.

Azərbaycanlıların tarixi torpaqlarında ermənilər üçün qurulan Ararat Respublikasının paytaxtı olmadığından Azərbaycan Milli Şurası Erməni Milli Şurasının müraciətinə baxaraq iki xalq arasında milli sülhün yaradılması, digər ərazilərə əsassız iddialar irəli sürməyəcəyi düşüncəsi ilə və xarici təzyiqlər altında İrəvanı paytaxt olaraq güzəştə getdi. Beləliklə, Cənubi Qafqazda gəlmə ermənilərə azərbaycanlı torpaqlarında dövlət yaradıldı və paytaxt şəhəri verildi. Lakin bununla kifayətlənməyən daşnak Ermənistanı azərbaycanlılara qarşı soyqırımları davam etdirdi və əsassız ərazi iddialarını genişləndirdi.

Cümhuriyyətin elanından sonra milli hökumət yaradıldı. Nazirliklər təşkil edildi. Azərbaycanda icraedici hakimiyyəti hökumət həyata keçirirdi. Hökumət bir müddət sonra Tiflisdən müvəqqəti paytaxt olan Gəncəyə köçdü.

Hökumətin qarşısında dayanan başlıca vəzifə Bakını yadelli qüvvələrdən xilas etmək idi. Milli ordu yaradıldı. Azərbaycan və Osmanlı hərbçilərindən ibarət Nuru Paşa komandanlığında qurulmuş Qafqaz İslam Ordusunun hücumları qarşısında tab gətirə bilməyən Bakı Xalq Komissarları Soveti süquta uğradı. Onun yerində xarici yardımlarla qurulan Sentrokaspi hökuməti də qaçmağa məcbur oldu. Sentyabrın 15-də Bakı şəhəri azad edildi. Hökumət paytaxta köçdü. "Azərbaycanlılar qalib gələrdisə Bakını paytaxt elan edəcəkdilər" deyənlərin arzuları puça çıxdı. Azərbaycan xalqı təbii, tarixi, mədəni, milli düşüncə mərkəzinə qovuşdu. Bakı şəhərinin yadellilərdən azad edilməsi Cümhuriyyətin elanından sonra ikinci böyük hadisə oldu. Qısa müddətdə şəhərdə qayda-qanun yaradıldı. Dükan-bazar işləməyə başladı. Millətindən asılı olmayaraq şəhərdə yaşayan bütün insanların mal və can güvənliyi qorundu.

Müharibədə Almaniya və müttəfiqləri məğlub olduqdan sonra Osmanlı qüvvələri Bakıdan çıxdı. Azərbaycan xalqı və hökuməti böyük hörmət və ehtiramla onları yola saldı. Noyabrın 17-də Bakıya ingilis generalı V.Tomson başda olmaqla müttəfiq qoşunları gəldi. Bundan əvvəl Azərbaycan Xalq Cümhuriyyətinin Osmanlı bayrağına bənzəyən bayrağı dəyişdirildi və üçrəngli bayraq qəbul edildi. Erməni və rus milli şuralarının anti-Azərbaycan fəaliyyətinə baxmayaraq, Tomson Bakıda vəziyyətlə tanış olduqdan sonra bildirdi ki, Azərbaycan hökumətinə və Baş nazirinə böyük hörmət bəsləyir, koalisiyalı hökumət yaradılana qədər onun hökuməti ölkədə yeganə qanuni hökumət olaraq qalır.

*(ardı var)*

***Musa QASIMLI,***
***Milli Məclisin deputatı, AMEA-nın müxbir üzvü, professor***

# Özbəkistanda qardaşlıq təntənəsi



**Özbəkistanda 28 May – Müstəqillik Günü münasibətilə rəsmi qəbul keçirilib. Tədbirdə Özbəkistan Baş nazirinin müavini Cəmşid Xocayev, Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov, dövlət və hökumət nümayəndələri, çoxsaylı səfirlər, beynəlxalq təşkilatların nümayəndələri, elm, mədəniyyət və incəsənət xadimləri, soydaşlarımız, jurnalistlər iştirak ediblər.**

Tədbirdə "Azad və çiçəklənən Azərbaycan" adlı foto sərgi təqdim olunub. Sərgidə müstəqil Azərbaycanın nailiyyətləri, ulu öndər Heydər Əliyev və ölkəmizin turizm imkanlarına dair fotoşəkillər yer alıb.

Hər iki ölkənin dövlət himnləri səsləndirildikdən sonra Azərbaycanın Özbəkistandakı səfiri Hüseyn Quliyev Azərbaycan Xalq Cümhuriyyətinin tarixindən, onun qısa müddətdə gördüyü işlərdən danışıb. Bildirib ki, çətin ictimai-siyasi şəraitdə Azərbaycan Xalq Cümhuriyyəti Avropa və Amerikanın 20-dən çox dövləti ilə diplomatik münasibətlər qurub, qısa zamanda xalqımızın tarixində silinməz iz buraxıb. Səfir Cümhuriyyət dövründə Azərbaycanın bayrağı və himninin qəbul edildiyini, ilk parlament və hökumət, dövlət aparatının təşkil edildiyini və Azərbaycan dilinin dövlət dili elan olunduğunu deyib.

Hüseyn Quliyev 1991-ci ildə ölkəmizin müstəqilliyini bərpa etdikdən sonra özünü 1918-ci ildə yaradılan Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğunu elan etdiyini söyləyib. O, müstəqil Azərbaycanın qazandığı uğurlardan, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən layihələrdən danışıb. Diplomat Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müstəsna xidmətləri nəticəsində ölkəmizin öz müstəqilliyini qoruyub saxladığını və inkişaf etdiyini bildirib.

Səfir Heydər Əliyev siyasi kursunu davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin apardığı islahatların öz uğurlu nəticəsini verdiyini və 44 günlük Vətən müharibəsində qazandığımız Zəfərlə Azərbaycanın 30 ilə yaxın işğal altında olan torpaqlarının şanlı Ordumuz tərəfindən azad edildiyini bildirib.

O, Azərbaycanla Özbəkistan arasındakı münasibətlərin yüksək səviyyədə olduğunu fəxrlə qeyd edib.

Fuad Muradov Özbəkistanı Azərbaycan üçün dost-qardaş ölkə kimi xarakterizə edərək, regionda və beynəlxalq arenada daim dövlətlərimizin bir-birini yaxından dəstəklədiklərini vurğulayıb. O, ölkə başçılarımızın səyləri nəticəsində dövlətlərimiz arasında münasibətlərin strateji müttəfiqlik səviyyəsinə yüksəldiyini bildirib.

F. Muradov Özbəkistanda qırx mindən çox soydaşımızın yaşadığını bildirib, soydaşlarımızın ölkənin ictimai-siyasi həyatında yaxından iştirak etdiklərini vurğulayıb.

Tədbirdə Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin rəqs ansamblının üzvləri rəqslərimizi ifa edib, Özbəkistanın Xalq artisti Fərrux Zakirov Azərbaycan və özbək dillərində mahnılar səsləndirib.

Sonra qonaqlara verilən ziyafətdə Azərbaycan milli mətbəxinin təamları təqdim olunub.

***Qulu KAZIMOV***
**Daşkənd**

# Dost Pakistanın Azərbaycan sevgisi

**Azərbaycanın Pakistandakı səfirliyi İslamabadda 28 May Müstəqillik Günü münasibətilə rəsmi qəbul keçirib. Mərasimdə Pakistanın təhsil və peşəkar təlim üzrə federal naziri Rana Tanver Hüseyn, Milli Assambleyasının vitse-spikeri Zahid Əkrəm Durani, xarici ölkələrin Pakistandakı səfirləri, digər diplomatlar, KİV təmsilçiləri, eləcə də Pakistanda yaşayan azərbaycanlılar iştirak ediblər.**



Səfir Xəzər Fərhadov Azərbaycan Xalq Cumhuriyyətinin (AXC) 1918-ci il mayın 28-də yaradıldığını bildirib və müsəlman Şərqində ilk demokratik respublika olduğunu diqqətə çatdırıb. Diplomat 1991-ci ildə Sovet İttifaqının süqutundan sonra Azərbaycan xalqının Azərbaycan Xalq Cümhuriyyətinin ənənələri əsasında müstəqil Azərbaycan Respublikası qurduğunu bildirib. Xəzər Fərhadov ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu müstəqil dövlət siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini və bu uğurların Azərbaycan xalqının həyatının bütün sahələrində öz əksini tapdığını qeyd edib.

Azərbaycan–Pakistan münasibətlərinə toxunan X.Fərhadov 1991-ci ildə Azərbaycanın müstəqilliyini bərpa etdikdən sonra Pakistanın ölkəmizin müstəqilliyini tanıyan ilk ölkələrdən biri olduğunu bildirib. Azərbaycan və Pakistanın əlaqələrinin möhkəm dostluq və qardaşlıq təməlləri üzərində qurulduğunu qeyd edən səfir hər iki ölkənin həm ikitərəfli, həm də beynəlxalq arenada bir-birini daim dəstəklədiyini deyib və ölkələrimiz arasındakı əlaqələrin bütün sahələr üzrə yüksələn xətt üzrə inkişaf etdiyini söyləyib.



28 Mayın Azərbaycanın dövlətçilik tarixində şanlı və mühüm günlərdən biri olduğunu bildirən nazir Rana Tanver Hüseyn Azərbaycan ilə Pakistan arasındakı əlaqələri qardaşlıq münasibətləri adlandırıb, 2023-cü ildə 100 illik yubileyi qeyd olunan dünya şöhrətli siyasi xadim, müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin həm də iki ölkə arasındakı əlaqələrin inkişafının banisi olduğunu söyləyib.

İştirakçılar ölkəmizin tarixini, mədəniyyətini, turizm potensialını əks etdirən fotoşəkillərdən ibarət sərgi ilə tanış olublar, videoçarxa baxıblar.

***Q.KƏNGƏRLİ***
**İslamabad**

# Ümummilli liderin yubileyi Rusiyada da ehtiramla qeyd edilir



**Ötən yazılarımızdan birində ulu öndər Heydər Əliyevin tanınmış şəxsiyyətlərimizin biri haqqında danışarkən dediyi fikirləri xatırlatmışdıq: "Xalq üçün, dövlət üçün, bəşəri dəyərlərin zənginləşdirilməsi üçün xidmət göstərmiş adamların xatirəsi ölkənin istənilən vəziyyətində əziz tutulmalı, ehtiramla yad edilməlidir". İndi haqqında söz açmaq istədiyimiz faktlar ümummilli liderimizin həmin tezislərinin təsdiqi kimi qəbul edilə bilər.**

Çünki söhbət Rusiyadan, daha doğrusu, bu şimal qonşumuzun paytaxtında və əyalətlərində ulu öndərimizin yüz illik yubileyinin genişmiqyaslı tədbirlərlə qeyd olunmasından gedir. Rusiya Ukraynada gedən xüsusi hərbi əməliyyata görə beynəlxalq aləm tərəfindən çoxsaylı sanksiyalara məruz qalıb. Ölkə iqtisadiyyatında vəziyyət kifayət qədər gəlizləşib, hərbi məsələlərdə problemlərin olduğu heç kəsə sirr deyil və s. Belə bir vaxtda bu ölkədə başqa bir xalqın böyük şəxsiyyətinin 100 illik yubileyinə geniş hazırlıqlar görülməsi, çoxsaylı tədbirlər keçirilməsi, sözün həqiqi mənasında, qədrbilənlik nümunəsidir. Bu zaman rus xalqının və Rusiya dövlətinin Heydər Əliyev şəxsiyyətinə münasibətini qeyd etməklə yanaşı, ümummilli liderimizin Azərbaycan və rus xalqları qarşısındakı tarixi xidmətlərini də yada salmağa ehtiyac duyulur.

Onu da əlavə etmək lazımdır ki, adı çəkilən yubiley tədbirləri paytaxt Moskva ilə yanaşı, Heydər Əliyevin daim xatırlandığı Kazanda, Həştərxanda, Dağıstanda, BAM-da, o cümlədən "Moskva – Tında" qatarının təntənəli yola salınması və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi BAM-ın tikintisinə kuratorluq edən Heydər Əliyevin adının verildiyi Anqoya stansiyasında da keçirilib. Həm də bu məlumatları hansısa xəbər agentliyindən yox, birbaşa dövlət başçısı Vladimir Putinin dilindən eşitdik .

Bundan başqa, təxminən on gün əvvəl postsovet məkanının əksər mətbuat vasitələri yazırdılar ki, Moskvada Heydər Əliyevin yubileyi münasibətilə rəsmi qəbul keçirilib və Azərbaycan Milli Məclisinin Sədri Sahibə Qafarova həmin tədbirdə iştirak edib. Azərbaycan parlamentinin spikeri Rusiyada belə tədbirlərin keçirilməsini xalqımızın böyük liderinin xatirəsinə, bütün azərbaycanlılara səmimi hörmətin təzahürü kimi dəyərləndirib.

Əlavə edək ki, həmin tədbiri Heydər Əliyev Fondu Rusiya Federasiyası Federal Məclisinin Dövlət Duması, Federasiya Şurası və TASS Agentliyi birlikdə təşkil etmişdilər. Elə Dövlət Dumasının sədr müavini Aleksey Qordeyevin tədbirdə çıxış edərək Heydər Əliyev dühasına region xalqlarının göstərdiyi ehtiramı yüksək qiymətləndirməsi də mühüm faktlardan idi.

Həmin gün Moskvada "Heydər Əliyev ili" münasibətilə başqa bir tədbir də keçirilmişdir. Belə ki, mayın 15-də TASS Agentliyinin Moskvadakı mənzil-qərargahının qarşısındakı meydanda Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş sərgi təşkil edilmişdi. Mətbuat yazır ki, sərgidə görkəmli siyasi və dövlət xadiminin həyat və siyasi fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən fotolar nümayiş etdirilirdi. Məsələn, ümummilli liderin SSRİ rəhbərliyində təmsil olunduğu illərdə ölkənin inkişafı üçün gördüyü işlərə və həyata keçirdiyi nəhəng layihələrə dair fotolar sərginin mühüm eksponatlarından idi.

Bundan başqa Heydər Əliyev ölkəmizdə hakimiyyətə qayıtdıqdan sonra Azərbaycan –Rusiya münasibətlərini əks etdirən fotolar da sərginin maraqlı eksponatlarından idi. TASS Agentliyinin baş direktoru Sergey Mixaylov və agentliyin əməkdaşları Heydər Əliyevin dahi şəxsiyyət kimi misilsiz fəaliyyətindən bəhs edib, onun Rusiya –Azərbaycan münasibətlərinin inkişafında oynadığı roldan, SSRİ rəhbərliyində təmsil olunduğu illərdə gördüyü böyük işlərdən danışıblar.

Prezident Vladimir Putinin Heydər Əliyevə münasibəti barədə çoxsaylı mətbuat vasitələrində müxtəlif yazılar verilmişdir. Ancaq bu sətirlərin sonunda həmin yazılardan birini, daha doğrusu, ən çox təkrar edilənini yada salmaq istəyirik. "Putin ömrü boyu bir dəfə – Heydər Əliyev qarşısında üzrxahlıq etmişdir"– sərlövhəsi ilə verilən həmin xəbərin məğzi belə idi ki, Rusiya Prezidenti dövlət başçısı seçiləndən sonra Azərbaycana ilk rəsmi səfəri zamanı Bakıdakı Şəhidlər xiyabanını və "Əbədi məşəl" Abidə Kompleksini ziyarət etməmişdi. Bu fakt Heydər Əliyevin nəzərindən qaçmamış, ulu öndər qonağın Bakı Slavyan Universitetində tələbə və müəllimlərlə görüşündə Rusiya Prezidentinin bu addımının çox yanlış siyasət, dövlət adamı üçün xəta olduğunu ustalıqla onun üzünə vurmuşdu. Bildirilir ki, bu kadrlar o vaxt Azərbaycanın rəsmi dövlət kanalı olan AzTV ilə də yayınlanmışdı. Ona görə də, Putin "Sizdən öyrənəcəyimiz hələ çox şeylər var" – deyərək, yanlış addımına görə, Heydər Əliyevdən üzrxahlıq etmiş və növbəti səfərində həm Şəhidlər xiyabanını ziyarət etmiş, həm də "Əbədi məşəl"in qarşısında əklil qoyaraq diz çökmüş və baş əymişdi.

... Rusiya Federasiyasında bütün azərbaycanlıların ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş tədbirlər davam edəcək.

***İ.QAÇAYEV, "Xalq qəzeti"***

# "Müstəqilliyə gedən yol da məhz Naxçıvandan başlamışdır"





**"Naxçıvan" Universitetinin təşkilatçılığı ilə ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Heydər Əliyev və milli dövlətçilik məsələləri" respublika elmi konfransı keçirilib.**

Elmi məclisdə çıxış edən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli müasir müstəqil Azərbaycanın qurucusu ulu öndər Heydər Əliyevin əziz xatirəsinin silsilə tədbirlərlə muxtar respublikada da yad edildiyini, elmi-praktik konfransların keçirildiyini, böyük rəhbərin irsinin dərindən öyrənildiyini deyib. O bildirib ki, ümummilli liderin həyat və fəaliyyəti hər zaman Azərbaycan xalqına və dövlətinə xidmət etmək olub.

1990–1993-cü illərdə Naxçıvan Muxtar Respublikasının ağır vəziyyətdə olmasından, mənfur qonşularımızın keçmiş Dağlıq Qarabağda olduğu kimi, Naxçıvana da hücumlar təşkil etməsindən danışan Fuad Nəcəfli bu vəziyyətdə Naxçıvan Muxtar Respublikasının xilaskarının məhz ulu öndər Heydər Əliyevin uzaqgörən siyasətinin olduğunu vurğulayıb.

"Dahi şəxsiyyətin siyasi fəaliyyətinin Naxçıvan dövrü müstəqil dövlətimizin əsas dayaqlarını təşkil edir", - deyən səlahiyyətli nümayəndə bu dövrdə Naxçıvanın işğal təhlükəsindən qurtulması, bir sıra mühüm qərarların qəbul olunmasından, ulu öndərin xalqın təkidli tələbi ilə ikinci dəfə siyasi hakimiyyətə qayıdışının xalqımıza, Azərbaycana uğurlar gətirməsindən geniş danışıb, bu ilin mayın 10-da Şuşadan xalqa müraciəti zamanı ölkə Prezidenti cənab İlham Əliyevin söylədiyi "Müstəqilliyə gedən yol da məhz Naxçıvandan başlamışdır" ifadəsini tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Qeyd olunub ki, bu gün Azərbaycanda aparılan siyasət də məhz ulu öndər Heydər Əliyev siyasətidir. Bu siyasət müzəffər Ali Baş Komandan tərəfindən uğurla davam və inkişaf etdirilir. Heydər Əliyev Fondunun, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə dünyanın müxtəlif bölgələrində, dövlətlərində ümumbəşəri irs sayılan abidələrə olduqca diqqət və qayğı göstərilməkdədir. Bu, əlavə olaraq Azərbaycana beynəlxalq arenada geniş imkanlar yaradır. Bundan yüz illər ötsə də, Azərbaycan xalqı ümummilli liderimizin irsini, fəaliyyətini, həyatını heç zaman unutmayacaq.

"ADA" Universitetinin rektoru, professor Hafiz Paşayev fenomenal şəxsiyyət Heydər Əliyevin xalqımız qarşısındakı misilsiz xidmətlərindən, uzaqgörən, praqmatik siyasətindən bəhs edib. Azərbaycanın bugünkü uğurlarının təməlində Heydər Əliyev ideyalarının və siyasətinin dayandığını bildirən Hafiz Paşayev diqqətə çatdırıb ki, əgər ulu öndər olmasaydı, biz firavan, azad, müstəqil Azərbaycanın bugünkü vəziyyətini görə bilməzdik.

Daha sonra "Naxçıvan" Universitetinin rektoru, dosent Anar Kazımov, Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradov, Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev, Azərbaycan Dövlət Pedaqoji Universitetinin beynəlxalq əlaqələr üzrə prorektoru, professor Mahirə Hüseynova, Naxçıvan Dövlət Universitetinin rektoru, dosent Elbrus İsayev, Mingəçevir Dövlət Universitetinin rektoru, dosent Şahin Bayramov və Naxçıvan Müəllimlər İnstitutunun rektoru, dosent Azad Novruzov ümummilli lider Heydər Əliyev çoxşaxəli fəaliyyətinin ayrı-ayrı istiqamətləri üzrə çıxış ediblər.

Konfrans "ADA" Universiteti və "Naxçıvan" Universitetinin təşkilatçılığı ilə Naxçıvan Dövlət Milli Dram Teatrında keçirilən konsert proqramı ilə yekunlaşıb.

***Səbuhi HƏSƏNOV, "Xalq qəzeti"***

# Ulu öndər Heydər Əliyevin irsi milli sərvətimizdir

**"Heydər Əliyev ili" münasibətilə keçirilən silsilə tədbirlər ölkəmizin hər yerində olduğu kimi, Ağsu rayonunda da davam etdirilir. Rayon icra hakimiyyətinin təşkilatçılığı ilə Mədəniyyət evində keçirilən "Ulu öndər Heydər Əliyevin irsi milli sərvətimizdir" adlı tədbir daha böyük auditoriyanı əhatə edirdi. Tədbirdə RİH aparatının, hüquq-mühafizə orqanlarının, müəssisə və təşkilatların rəhbərləri, Vətən müharibəsi şəhidlərinin ailələri, qazilər, müharibə iştirakçıları, rayon ağsaqqalları, ziyalılar və ictimaiyyət nümayəndələri iştirak etdilər.**



Əvvəlcə Ağsu şəhərindəki Heydər parkında ulu öndərin abidəsi önünə gül dəstələri düzüldü və xatirəsinə dərin ehtiram bildirildi. Mədəniyyət evində təşkil olunan yığıncaqda Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhidlik zirvəsinə ucalan Vətən oğullarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

RİH başçısı Rövşən Bağırov qeyd etdi ki, ümummilli lider Heydər Əliyev milli dövlətçilik ideyalarını hər şeydən üstün tutmuşdur. Ulu öndər öz parlaq siyasi zəkası və istedadı sayəsində yeni Azərbaycanı, onun bugünkü gerçəkliklərini yaratmış və gələcəyə aparan yolları müəyyən etmişdir. Azərbaycanda dövlətçilik ənənələrinin bərpa edilib zənginləşdirilməsi, müstəqilliyimizin möhkəmləndirilməsi, onun əbədi, dönməz xarakter alması, ölkəmizin dinamik iqtisadi inkişaf yolu ilə inamla irəliləməsi, beynəlxalq nüfuzunun sürətlə artması Heydər Əliyevin səmərəli fəaliyyəti sayəsində mümkün olmuşdur. Qürur və iftixar hissi ilə qeyd edə bilərik ki, ümummilli liderimizin siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla və inamla davam etdirilir. Bu gün güclü və nüfuzlu Azərbaycan yeni zirvələr fəth edir.

Digər natiqlər ulu öndərlə bağlı xatirələrini bölüşdülər. Qeyd olundu ki, müasir Azərbaycan dövlətinin memarı və qurucusu, azərbaycançılıq ideologiyasının banisi, xalqımızın və dövlətimizin xilaskarı Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısındakı tarixi xidmətləri misilsizdir. Ulu öndər həm SSRİ dönəmində, həm də müstəqillik illərində ölkəmizə rəhbərliyi dövründə xalqın rifah halının daha da yaxşılaşdırılması, respublikamızın tərəqqisinin təmin olunması və digər istiqamətlərdə tarixi əhəmiyyətə malik olan misilsiz işlər görülüb.

Qeyd olundu ki, hamımız Heydər Əliyevin əsasını qoyduğu siyasətin Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi ilə fəxr edirik.

***İlqar HƏSƏNOV, "Xalq qəzeti"nin bölgə müxbiri***

# Milli teatrın böyük himayədarı

**AYB Lənkəran Bölməsi və Lənkəran Dövlət Dram Teatrının birgə təşkilatçılığı ilə 22 may 2023-cü il tarixində Lənkəran Dövlət Dram Teatrında "Heydər Əliyev və Azərbaycan dramaturgiyası" mövzusunda yubiley mərasimi keçirilib.**



Tədbiri teatrın direktor əvəzi İntiqam Hacılı açıb. Azərbaycan himni ilə başlanan tədbirdə Heydər Əliyevin və şəhidlərimizin ruhu bir dəqiqəlik sükutla yad edilib. İ.Hacılı ulu öndərin 100 illik yubileyinə həsr olunan tədbirin məqsəd və məramını yazarlarla teatrın əlaqəsinin möhkəmlənməsi yolunda atılan addım kimi dəyərləndirib.

Respublikanın Xalq artisti Qabil Quliyev, AYB Lənkəran Bölməsinin sədri Qafar Cəfərli, bölmənin ədəbi məsləhətçisi Ağamir Cavad, teatrın baş inzibatçısı Namiq Ağayev, şair Ziyafət Yəhya, gənc rejissor Emil Əsgərov və teatrın baş rejissoru Anar Babalı çıxış edərək Heydər Əliyevin bütün sahələrdə olduğu kimi, mədəniyyət və incəsənətimizin inkişafı yolunda göstərdiyi xidmətlərdən danışıblar. Tədbirdə, həmçinin Azərbaycan dramaturgiyasında yaradılan Heydər Əliyev obrazından söz açılıb.

A.Babalı yerli müəllifləri daha çox dram əsərləri yazmağa, teatrla əlaqələri möhkəmləndirməyə çağırıb. Respublikanın Əməkdar artisti Sücəddin Mirzəyev, aktyorlardan Aynur Əhmədova, Əbülfəz Axundov, Əlibala Əsgərov, şair Xatirə Xatun və başqaları məruzələr ətrafında fikir və mülahizələrini bildiriblər.

***Ağaddin BABAYEV, Teatrşünas-publisist***


# LPO "Günay Bank" ASC-də qorunan əmanətlər üzrə kompensasiyaların verilməsi barədə məlumat

Bakı Apellyasiya Məhkəməsinin İnzibati Kollegiyasının 2-3(103)-42/2023 nömrəli 18 may 2023-cü il tarixli qərarı ilə "Günay Bank" ASC müflis elan edilmiş və Əmanətlərin Sığortalanması Fondu adıçəkilən Bankın ləğvedicisi təyin edilmişdir. Həmçinin, "Əmanətlərin sığortalanması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq "Günay Bank" ASC-də sığorta hadisəsi günü 18 may 2023-cü il müəyyən edilmişdir.



Məlumat üçün bildiririk ki, kompensasiyaların ödənilməsi 19 iyun 2023-cü il tarixdən başlayaraq həyata keçiriləcəkdir. "Əmanətlərin sığortalanması haqqında" Azərbaycan Respublikası Qanununun 28.3-cü maddəsinə əsasən Əmanətlərin Sığortalanması Fondu əmanətçilərin ərizələrini kompensasiya ödənişi haqqında bildirişin ilk dəfə dərc edildiyi gündən başlayaraq bir il ərzində qəbul edir. Kompensasiyaların ödənilməsi üçün sənəd qəbulunun yeri barədə əlavə məlumat veriləcəkdir.

Kompensasiyaların ödənilməsi prosesi haqqında ətraflı məlumatı Əmanətlərin Sığortalanması Fondunun saytından əldə edə bilərsiniz.

**www.adif.gov.az**

# "Montin Bazar" ASC səhmdarlarının nəzərinə!

29 iyun 2023-cü il saat 10.00-da "Montin Bazar" ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:
1. Cəmiyyətin ləğv edilməsi haqqında.
2. Ləğvetmə komissiyasının yaradılması haqqında.
3. Ləğvetmə komissiyasının səlahiyyətlərinin müəyyənləşdirilməsi haqqında.
4. Digər məsələlər.

Səhmdarlar gündəlikdəki məsələlərə aid sənədlərlə tanış olmaq üçün həftənin iş günləri saat 10.00-dan 13.00-dək cəmiyyətin rəhbərinə müraciət edə bilərlər.

Əlaqə telefonu- 0556863654.

Ünvan – Bakı şəhəri, Nərimanov rayonu, Mayakovski küçəsi 8/9.

# "Beyləqan Avtonəqliyyat" ASC səhmdarlarının nəzərinə!

11 iyul 2023-cü il saat 11.00- da "Beyləqan Avtonəqliyyat" ASC səhmdarlarının illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:
1. Cəmiyyətin 2022-ci il üzrə maliyyə-təsərrüfat fəaliyyətinin yekunlarının müzakirəsi və qarşıdakı vəzifələr barədə.
2. Digər məsələlər.

Ünvan- Beyləqan şəhəri, Magistral küçəsi.

*İdarə heyəti*

# Ağdama qayıdacağımız gün uzaqda deyil...

**Qarabağ həsrəti 44 günlük Vətən müharibəsindəki qələbəmiz sayəsində sona çatdı. Biz tarixi uğur qazanaraq düşməni öz doğma diyarımızdan qovduq, şəhərlərimizi, kəndlərimizi yağılardan təmizləyərək ədaləti, ölkəmizin ərazi bütövlüyünü bərpa etdik. Bundan sonra azad olunan ərazilərdə infrastrukturun qurulması, strateji obeyktlərin tikintisi həyata keçirilməyə başlandı, keçmiş məcburi köçkünlər öz doğma yurdlarına səfər etmək imkanı qazandılar. Onlardan biri də Xəzəngül Alışovadır. Xəzəngül xanım deyir: – Ağdama gedəcəyim günü səbirsizliklə gözləyirdim. Əvvəlcədən hazırlıq görmüşdüm. Şəhid həyat yoldaşımın məzarı üzərinə sərmək üçün bayraq və gül almış, şəklini böyütmüşdüm...**



Axşam çox narahat yatdım, tez-tez yuxudan ayılıb saata baxır, "birdən yatıb qalar, avtobusa geçikərəm", – deyə narahatlıq keçirdim.

...Artıq qaynım qapıdadır. Övladlarımı əzizləyib maşına əyləşirəm. Uşaqlar mənə çoxlu şəkil və video çəkməyi dönə-dönə tapşırırlar. "Mütləq çəkəcəyəm, narahat olmayın", – deyirəm... Əlimdə əlacım olsa, Ağdamın hər daşını, hər qarışını çəkib həkk edərdim telefonumun yaddaşına.

Avtobusla yol uzun, xatirələrsə çox... Gedirik illərlə həsrətini çəkdiyimiz doğma Ağdama. Qayıdırıq ağ atlı oğlanların, ağ duvaqlı qızların yurdu, illərdir adından ağ sözünü çıxarıb, "Qarabağın qara taleyi" adlandırdığımız Ağdama, bədxah addımlar köksündə yaralar açmış Vətənə.

...Yolumuzun üstündə olan dağıdılmış, viran qoyulmuş kəndlərə ürək ağrısı ilə tamaşa edirəm. "Bura Göytəpə kəndidir", – bələdçi deyir. Ayağa qalxıb pəncərədən boylanıram. –Nə kənd, kənd hanı! – deyə soruşuram... Kəndi xatırladacaq heç nə saxlanılmayıb. Erməni faşizmi bu yurd yerini, sözün əsl mənasında, yer üzündən silib.

Bələdçi daha sonra yaşayış məskənlərinin adlarını sadalamağa davam edir. Tərnöyüd adını çəkən zaman həmin kəndin sakini, bizimlə yol yoldaşı olan oğlan yerindən qəfil sıçrayaraq: "Baxın, o ev, bizim evimizdir!" – deyir. Çox həyəcanlıdır, sevincindən bir yerdə dura bilmir. Sonra bizimlə birlikdə səfər edən polisə, bələdçiyə və sürücüyə baxaraq "icazə verin yaxına gedim", – deyir. Amma təhlükəsizlik səbəbindən razılıq verilmir.

Avtobus Seyidlər məhəlləsinə yaxınlaşanda məni həyəcan bürüyür, yerimdə rahat otura bilmirəm, ətrafı diqqətlə nəzərdən keçirəm. Evimiz Cümə məscidindən cəmi 10 dəqiqəlik məsafədədir. Amma yerini tapa bilmirəm. Sonra həyat yoldaşımın maşın təmiri üçün qazdığı çuxuru axtarıram, bəlkə onun sayəsində evimizin yerini müəyyənləşdirə bildim. Bütün cəhdlərim nəticəsiz qalır...

...Ağdam Şəhidlər xiyabanını ziyarət etdik. Şəhid məzarları dağıdılmış, yerlərində çuxurlar qalmışdı. Bunları gördükcə adamın ürəyi parçalanır. Milli Qəhrəman Allahverdi Bağırovun məzarı da buradadır. Elə həmin məzarın səmti ilə bəzi qəbirlərin yeri tapılaraq bərpa olunub.

Təhlükəsizlik səbəbindən həyat yoldaşımın dəfn olunduğu "Uzundərə" qəbiristanlığına gedə bilmədik. Bu, necə də ağır hissdir, illərlə həsrətində olduğun şəhid məzarının lap yaxınlığında olasan, ancaq ziyarət edə bilməyəsən?! Bunu, bu hissi yaşayanlar yaxşı bilir. "Atamoğlan, qadan alım, bizi bağışla, səni ziyarət edə bilmədim. Gətirdiyim gülləri şəhid qəbirlərinin üzərinə düzüb dua etdim, onlara Allahdan rəhmət diləyib ruhları qarşısında baş əydim", – düşüncələrimlə buradan uzaqlaşdım.

...Həyat yoldaşımın məzarını ziyarət edə bilməməyim məni çox kədərləndirdi. Onun şəhid olduğu gün kino lenti kimi gözümün qarşısından keçdi. İyulun 21-i idi, səhər tezdən atışma düşdü. Bu hadisədən bir gün sonra bizim hərbçilər Əsgərana hücum edəcəkdilər. Bu məqsədlə Şirin Mirzəyevin taborundan Ərşadın dəstəsi Seyidli məktəbinin həyətinə toplaşmışdı. Düşmənin atdığı mərmi onların toplaşdığı yerə düşmüşdü, 24 nəfər şəhid olmuşdu. Yaralananlardan biri isə həyat yoldaşım idi... O, yaralı olsa da, döyüş yoldaşlarını "Villis" maşınında xəstəxanaya çatırıb, onların həyatını xilas edə bildi, özü isə şəhid oldu.

***Pünhan ƏFƏNDİYEV,***
***"Xalq qəzeti"nin***
***bölgə müxbiri***

# ÜST Azərbaycanla əməkdaşlıqdan razıdır

**Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) İsveçrənin Cenevrə şəhərində yerləşən mənzil qərargahında Ümumdünya Səhiyyə Assambleyasının 76-cı sessiyası öz işinə başlayıb. Bu barədə Səhiyyə Nazirliyinin mətbuat xidməti məlumat verib. Bildirilib ki, Azərbaycan Respublikası assambleyada səhiyyə naziri Teymur Musayevin başçılıq etdiyi nümayəndə heyəti ilə təmsil olunur.**



Assambleya çərçivəsində ÜST-nin Avropa üzrə regional direktoru Hans Henri Kluge ilə Azərbaycan nümayəndə heyəti arasında görüş keçirilib.

Görüşdə səhiyyə naziri ölkəmizin ÜST ilə əməkdaşlığa böyük önəm verdiyini vurğulayaraq deyib ki, Azərbaycan bu nüfuzlu səhiyyə təşkilatı ilə 1992-ci ildən sıx əməkdaşlıq edir. Ötən müddət ərzində regional və qlobal səviyyələrdə uğurlu layihələr həyata keçirilib. Nazir, eyni zamanda, COVID-19 ilə mübarizədə ölkə daxilində görülən işlər, habelə beynəlxalq müstəvidə Azərbaycanın göstərdiyi yardım və irəli sürdüyü təşəbbüsləri qeyd edib.

Hans Kluge ÜST-nin fəaliyyətini siyasiləşdirmədən bitərəf və qərəzsiz şəkildə bundan sonra da davam etdirəcəyinə əminliyini bildirib. Daha sonra o, ÜST-nin Azərbaycanla əməkdaşlığının çox uğurlu olduğunu vurğulayıb. Koronavirus infeksiyası mövzusuna toxunan regional direktor COVID-19 peyvəndlərinin digər ölkələrə göndərilməsi kimi humanist addıma görə Azərbaycan rəhbərliyinə təşəkkürünü ifadə edib. Həmçinin Qoşulmama Hərəkatına sədrliyi dövründə Azərbaycanın fəaliyyətini yüksək qiymətləndirib.

Görüşdə təşkilatla ölkəmiz arasında mövcud sıx əlaqələr və səhiyyə sahəsində əməkdaşlığın perspektivləri müzakirə olunub.

Qeyd edək ki, Ümumdünya Səhiyyə Assambleyası ÜST-nin siyasətini müəyyən edən ali qərarverici orqanıdır. 76-cı sessiya isə mayın 30-da yekunlaşacaq.

Sessiya çərçivəsində səhiyyə naziri Teymur Musayevin plenar iclasda çıxışı, təşkilatın üzv ölkələrinin səhiyyə nazirləri ilə ikitərəfli görüşləri və digər tədbirlərin keçirilməsi planlaşdırılır.

# Hepatitlər üzrə milli proqramlar təkmilləşdiriləcək

**Səhiyyə Nazirliyinin təşəbbüsü ilə Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) tərəfindən Azərbaycanda İİV/QİÇS və hepatitlər üzrə milli proqramların qiymətləndirməsi missiyası təşkil edilib. Missiya çərçivəsində ÜST-nin Avropa üzrə regional ofisinin və sözügedən sahələr üzrə əməkdaşlıq etdiyi mərkəzlərin nümayəndələrindən və beynəlxalq məsləhətçilərdən ibarət ekspert qrupu İİV/QİÇS və hepatitlər üzrə proqramların diaqnostika, müalicə, profilaktika tədbirləri daxil olmaqla, hərtərəfli qiymətləndirməsini həyata keçirib.**

Qeyd edək ki, qiymətləndirmə prosesinin birinci mərhələsində ekspert qrupu distant formatda hər iki sahə üzrə təqdim olunan sənəd, hesabat və protokolları nəzərdən keçirərək təhlil edib.

Ölkəyə səfəri zamanı missiyanı həyata keçirən ekspertlər Səhiyyə Nazirliyi, QİÇS-lə mübarizə üzrə Mərkəz, TƏBİB, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Azərbaycan Tibb Universitetinin müxtəlif kafedraları, Hepatit Komitəsi, Elmi-Tədqiqat Ağ Ciyər Xəstəlikləri və Mama-Ginekologiya institutları, Respublika Narkoloji Mərkəzi, Qan Bankı, Hemodializ Mərkəzi, Respublika Perinatal Mərkəzində görüşlər keçirib və müzakirələr aparıblar, Eyni zamanda, ekspertlər Ədliyyə Nazirliyinin penitensiar müəssisələrini ziyarət edib və Lənkəran rayonuna səfər ediblər.

Missiyanın səfərinin yekunu olaraq keçirilən debrifinqdə missiya qrupu İİV və hepatitlər üzrə dövlət proqramlarının qiymətləndirməsinin nəticələrini və tövsiyələrini bölüşüb. Ekspertlər milli proqramların İİV və hepatitlər üzrə Regional Fəaliyyət Planına uyğun olaraq təkmilləşdirilməsini tövsiyə ediblər. Onlar ölkədə QİÇS və hepatitlərin eliminasiyasına nail olmaq üçün bütün imkanların mövcudluğunu vurğulayıb və həmin missiyanın ÜST-nin bu sahədə texniki dəstəyinin bir hissəsi olduğunu bildiriblər.

***Zərifə HÜSEYNOVA,***
***"Xalq qəzeti"***

*Sabaha saxlamayaq*

# Taksi xidmətində narahatlıqlar

## *Nöqsanları qanunvericiliyi təkmilləşdirməklə aradan qaldırmaq mümkündür*

**Heç kimə sirr deyil ki, bu gün ölkənin taksi fəaliyyətində ciddi çatışmazlıqlar nəzərə çarpır. Bu, ən çox özünü xidmətin keyfiyyəti, daha konkret ifadə etsək, sərnişindaşımada yaşanan xaos, qanundankənar vəziyyətin hökm sürməsi, sərnişinlərlə sürücünün davranış münasibətləri, avtomobillərin texniki vəziyyəti, aşağı komfort səviyyəsi kimi məsələlərdə göstərir. Bütün bu nöqsanları isə, ilk növbədə, qanunvericiliyi təkmilləşdirməklə aradan qaldırmaq mümkündür.**




Sözügedən sahənin problemlərinə toxunmazdan əvvəl məsələ ilə bağlı bəzi statistik göstəriciləri xatırlatmaq istərdik. Belə ki, 2023-cü ilin yanvar-aprel aylarında Azərbaycanda nəqliyyatçılar tərəfindən 578,6 milyon sərnişinə xidmət göstərilib. Dövlət Statistika Komitəsinin məlumatına görə, sərnişinlərin 87,1 faizi avtomobil nəqliyyatı, 12,4 faizi metro, qalan hissəsi isə digər nəqliyyat növləri ilə daşınıb. Nəqliyyat sektorunda daşımaların həcmində xüsusi çəkisi ən böyük olan avtomobil nəqliyyatı ilə 504,1 milyon sərnişin daşınıb və əvvəlki ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 3,2 faiz və 20 faiz artım qeydə alınıb. Sərnişinlərin 95,5 faizi avtobus, 4,5 faizi isə minik taksilərinin xidmətlərindən istifadə edib.

Minik taksilərinin sərnişindaşımada payı az olsa da, nəqliyyatın bu növündən istifadəyə günün istənilən saatlarında ehtiyac yaranır. Evdən işə, işdən evə, eləcə də hər hansı bir tədbirə tələsənlər çıxış yolunu taksi sifariş verməkdə görürlər. Bu isə nəqliyyatın bu növünə tələbatı getdikcə artırır.

Hazırda ölkənin taksi bazarında 100-dək yerli və 5 xarici şirkət fəaliyyət göstərir. Bununla belə, "çörəkpulunu" taksi fəaliyyəti göstərməklə qazanacaqlarına ümid edənlərin də bu sahəyə üz tutmaqlarının səbəbidir ki, hazırda ölkədə sərnişindaşıma ilə məşğul olan avtomobilləri sayı həddindən artıq çoxdur. Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin baş mütəxəssisi Rauf Səfərov bu yaxınlarda Azərbaycan Memarlıq və İnşaat Universitetində "Nəqliyyat və logistika kompleksinin inkişafı" mövzusunda keçirilən konfransda bildirib ki, hazırda Azərbaycanda taksi kimi, fəaliyyət göstərən, təxminən, 40 min taksi var ki, bunun da 28 mini paytaxtın payına düşür. Həmin taksilərin isə 90 faizi "onlayn" platformalar üzərindən fəaliyyət göstərir.

Əslində, bazarda rəqabətin kəskin şəkildə artdığı, eləcə də qiymətlərin ucuz olduğu bir şəraitdə taksi fəaliyyətinin iqtisadi cəhətdən səmərəliliyi də sual altında qalır. Bunun nəticəsidir ki, son zamanlar şirkətlərlə sürücülər arasında müəyyən narazılıqlar müşahidə olunur. Məsələn, bir qədər əvvəl Bakıda taksi fəaliyyəti ilə məşğul olan "Bolt"un sürücüləri şirkətin ofisinin qarşısında etiraz aksiyası keçiriblər. Taksi sürücüləri hazırkı qiymətlərin digər ictimai nəqliyyat növləri, məsələn, avtobus və metro ilə, demək olar ki, eynilik təşkil etdiyini önə çəkərək onların qazanclarının "qəpik-quruş" olduğunu bildiriblər.

Digər tərəfdən, Bakıda taksilərin sayının çox, bu sahəyə diqqətin az olması, sürücülərin 14-16 saat işləməsi qəzaların artmasına gətirib çıxarır. Eyni zamanda, avtomobillərin çoxluğu paytaxt küçələrində müşahidə olunan tıxacları da bir qədər də artırır. Bütövlükdə isə, son illər ölkədə taksi fəaliyyəti ilə bağlı yaranmış problemlər həm sürücüləri, həm də sərnişinləri narahat edir. Taksi sürücüləri aqreqatorlardan və ağır iş şəraitindən, sərnişinlər isə bəzi sürücülərin kobud və nəzakətsiz davranışından, nəzarətsiz və ehtiyacdan artıq taksilərin paytaxt küçələrində yaratdığı uzun tıxaclar, eyni zamanda, xaosdan şikayətlənirlər.

Bu problemlərin əsas səbəbinin taksi fəaliyyətinin hüquqi tənzimlənməsinin və sözügedən sahəyə dövlət nəzarətininin lazımi səviyyədə olmaması ilə izah edən nəqliyyat üzrə ekspert Ərşad Hüseynli hesab edir ki, ölkədə taksi ilə sərnişindaşımada böyük bir xaos, eyni zamanda, qanundankənar vəziyyət mövcuddur. Onun fikrincə, taksi fəaliyyəti ilə məşğul olanların bir çoxunun sürücülük hazırlığının aşağı səviyyədə olması yollarda tıxacların yaranmasına gətirib çıxarır.

Taksi fəaliyyətində müşahidə olunan xaosu aradan qaldırmaq üçün, ilk növbədə, qanunvericilikdə taksi aqreqatorlarının statusu, onların taksi sürücüləri ilə qarşılıqlı münasibətləri, öhdəlikləri dəqiq müəyyən olunmalı, sürücülərin hansı tələblərə cavab verməli olduğu, eyni zamanda, avtomobilin necə olması ilə bağlı məsələlər də öz həllini tapmalıdır.

Bütövlükdə isə bu sahədə müxtəlif təkliflər səsləndirilsə də, çıxış yolları göstərilsə də, problemin həlli, sözün əsl mənasında, müşkülə çevrilib. Belə olduğu təqdirdə ümid yalnız və yalnız qanunvericiliyə ediləcək dəyişikliklərə və bu sahədə müəyyən yeniliklərə qalır.

Gözləntilər isə, deyəsən, özünü tədricən doğrultmaqdadır. Belə ki, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən taksi fəaliyyəti ilə bağlı müəyyən təkliflər işlənib hazırlanıb. Həmin təkliflər isə taksi fəaliyyətinin müvafiq icazə əsasında həyata keçirilməsi, sərnişindaşıma sahəsində sahibkarlıq mühitinin yaxşılaşdırılması və s. məsələləri əhatə edir.

Yeri gəlmişkən, mayın 17-də Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyində Azərbaycanda fəaliyyət göstərən taksi şirkətlərinin nümayəndələri ilə görüş keçirilib. Nazirliyin bununla bağlı yaydığı məlumata əsasən, görüşdə ölkə ərazisində sərnişindaşıma sisteminin təşkilini təkmilləşdirmək məqsədilə taksi xidməti kompleks şəkildə tədqiq olunub. Ötən müddətdə səmərəli idarəetmə sistemi yaratmaqla taksi xidmətinin keyfiyyətinin yüksəldilməsi imkanları araşdırılıb. Əsas məqsəd isə vətəndaşlara keyfiyyətli və təhlükəsiz xidmət göstərilməsi, sərnişinlərin və fərdi məlumatların təhlükəsizliyinin təmin edilməsi və ekoloji tələblərə riayət olunmasıdır. Həmçinin haqsız rəqabət və inhisarçılığın, qeyri-formal məşğulluğun qarşısının alınması, bu sahədə qanuni fəaliyyət göstərən bütün sahibkarların maraqlarının qorunmasıdır.

Nazirliyin məlumatına görə, hazırda ölkə ərazisində minik avtomobilləri ilə taksi xidməti göstərən, eyni zamanda, taksi xidmətlərinin təşkilini, sifarişlərin idarə olunmasını həyata keçirən əcnəbi şirkətlərin məlumat bazası xarici ölkələrdə yerləşir ki, bu da "Fərdi məlumatlar haqqında" Qanuna ziddir.

Xatırladaq ki, sözügedən qanuna əsasən, ölkəmizdə fərdi məlumatların informasiya sistemləri dövlət qeydiyyatından keçməlidir. Yalnız bundan sonra fərdi məlumatların toplanılmasına və işlənilməsinə icazə verilir.

***Mirbağır YAQUBZADƏ,***
***"Xalq qəzeti"***

*Ekspert rəyi*

**Eldəniz CƏFƏROV,**
**avtomobil nəqliyyatı üzrə ekspert**



Azərbaycanda taksi xidməti sırf bazar iqtisadiyyatı əsasında formalaşıb. Hazırda bu sahədə özünün qarajı, avtomobilləri və peşəkar sürücü heyətinə malik şirkətlər fəaliyyət göstərir. Bununla yanaşı, vətəndaşlar da fərdi qaydada taksi fəaliyyəti ilə məşğul olurlar.

Son illər bu sahədə müəyyən çatışmazlıqlar özünü qabarıq şəkildə büruzə verir. Taksi xidmətindən istifadə edən sərnişinlər keyfiyyətin çox aşağı olmasından şikayətlənirlər. Eyni zamanda, onların təhlükəsizliklə bağlı müəyyən problemi var. Yəni sərnişin taksi xidmətindən istifadə edərkən mənzil başına sağ-salamat çatmasından əmin deyil. Həmçinin taksi fəaliyyətində istifadə olunan avtomobillərin texniki göstəriciləri müasir tələblərə cavab vermir.

Bununla yanaşı, taksi sürücülərinin də narazı qaldıqları məqamlar var. Onların şikayətləri isə, əsasən, taksi şirkətlərinin sürücüləri istismar edərək sutkanın 12-14 saat işləməyə məcbur etməsi ilə bağlıdır. Digər narazılıq ondan ibarətdir ki, qeyri-nağd ödənişlərinin hesaba köçürülməsindən sonra taksi sürücüləri onlara çatacaq həmin məbləği nağdlaşdırmaqda çətinliklər yaşayırlar. Bu gün taksi fəaliyyəti sahəsində olan problemlər, əsasən, bunlardır. Amma, düşünürəm ki, bu problemlərin həlli o qədər də çətin deyil. Çünki Azərbaycanda taksi fəaliyyəti ilə bağlı qanunvericilik mövcuddur. Eyni zamanda, istehlakçıların hüquqlarının müdafiəsi ilə bağlı qanun da var. Taksi sürücülərinin də bir işçi kimi fəaliyyətini tənzimləyən, hüquqlarını qoruyan Əmək Məcəlləsi də mövcuddur.

Hazırda ölkədə taksi fəaliyyətini tənzimləyən iki qurum var. Onlardan biri paytaxtda taksi fəaliyyətinə nəzarət edən Bakı Nəqliyyat Agentliyi, digəri isə regionlarda bu işi həyata keçirən Azərbaycan Yerüstü Nəqliyyat Agentliyidir. Göründüyü kimi, bu sahədə qanunvericilik bazası lazımi səviyyədədir. Hətta Nazirlər Kabinetinin də taksi fəaliyyəti ilə bağlı 2019-cu ildə qəbul etdiyi qərar-reqlamenti də mövcuddur. Burada taksi fəaliyyəti ilə məşğul olan sürücülərə və taksi fəaliyyətində istifadə olunan avtomobillərə müəyyən tələblər qoyulub. Bütün bu tələblərə, qanunvericiliyə və nizamlayıcı qurumların mövcudluğuna baxmayaraq, taksi operator şirkətləri Azərbaycan qanunlarına hörmət etmir, Nazirlər Kabinetinin reqlamentini saymırlar.

Bu problemlərin həlli üçün resurslar isə kifayət qədərdir. Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi qaydaları pozan, Azərbaycan qanunlarına hörmət etməyən taksi operatorlarına qarşı müəyyən sanksiyalar tətbiq edə bilər. Amma sanksiyalardan əvvəl müəyyən sadə qaydalara əməl olunmasına nəzarət etməli qurumlarımız da bir qədər fəallıq göstərməlidirlər. Belə ki, hər bir qurum öhdəsinə düşən nəzarət mexanizmlərini gücləndirməli, Nazirlər Kabinetinin qaydalarına riayət olunmasını həm operator şirkətlərdən, həm də sürücülərdən tələb etməlidir. Burada isə, sadəcə, istək və məsuliyyət olmalıdır.

# Türkiyədə seçkilər: 28 maya 1 gün qalır

**Bu il 100-cü ildönümünü qeyd edən Türkiyə Cümhuriyyəti tarixinin ən gərgin və taleyüklü seçkisinin başlanmasına cəmi bir gün qalır. Qardaş ölkədə mayın 14-də keçirilən prezident seçkilərinin ikinci turuna ciddi hazırlıq görülür. 28 may səsverməsi öncəsi cəmiyyətdə mövcud siyasi mənzərə necədir və siyasi qüvvələr nisbəti hansı səviyyədədir? Azərbaycan vətəndaşları üçün də son dərəcə önəmli olan bu və digər suallara ətraflı cavab almaq üçün Ankaradakı nüfuzlu Bilkənd Universitetinin professoru, Türkiyə–Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunun Rəyasət və İdarə heyətlərinin üzvü, Dövlət mükafatı laureatı, Əməkdar elm xadimi Əmirulla Məmmədliyə müraciət etdik. Bu gün hörmətli alimin "Türkiyə Cümhuriyyətinin 100-cü ildönümü və ikinci tur prezident seçkiləri: reallıq və gözləntilər" adlı məqaləsini hörmətli oxuculara təqdim edirik.**



Hörmətli həmvətənlərim! Bu qeydləri məxsusi olaraq Azərbaycanda, eləcə də Türkiyədə kifayət qədər sanballı mətbu nəşr kimi qəbul olunan "Xalq qəzeti" üçün yazıram. Diqqətinizə, təklif və iradlarınıza görə əvvəlcədən sizə təşəkkür edirəm.

Mən 33 ildir Türkiyədə yaşayan azərbaycanlıyam və ölkədə bir çox seçkilərin, siyasi müzakirələrin şahidi və iştirakçısı olmuşam, amma səmimiyyətimə inanın, hələ indiki kimi gərgin seçki ili və ab-havasını xatırlamıram.

Biz, eyni zamanda, cümhuriyyətimizin gələcək 100 ilinin necə formalaşacağına dair planlar qurur və indiyə qədər heç vaxt yaşanmamış, qütbləşmiş siyasi mühitdə ölkənin taleyini həll edəcək seçki prosesinin şahidi oluruq.

Məlumdur ki, 14 mayda parlament seçkiləri ilə bərabər eyni vaxtda keçirilən prezident seçkilərində 4 namizəd iştirak etmək üçün müraciət edib. Səsvermənin birinci mərhələsinin nəticələrinə görə hazırkı Prezident Rəcəb Tayyib Ərdoğan və rəqibi, CHP-nin sədri Kamal Kılıçdaroğlu ikinci turda gərgin mübarizə aparırlar.

Qeyd etmək lazımdır ki, prezident seçkilərində seçici fəallığı kifayət qədər yüksək olub – 87,46 faiz. Səs verənlərin sayı isə 56 milyon 153 min 981 nəfər təşkil edib.

Türkiyədə səsvermə hüququ olan insanların fəal iştirakı onu göstərdi ki, vətəndaş hər bir seçicinin səsinin ölkənin gələcəyi üçün dəyərli olduğunu gördü, bunu dünyaya bəyan etdi və seçkilərin nə qədər demokratik ola biləcəyini göstərdi.

Seçkilərdə Türkiyə Böyük Millət Məclisinə seçilən millət vəkillərinin sayına nəzər saldıqda, "Cümhur İttifaqı"nın bu sınaqdan uğurla çıxdığını görə bilərik.

Prezident seçkilərində də müəyyən geriləmə var. Belə ki, 2023-cü ildə "Cümhur İttifaqı"nın prezidentliyinə vahid namizədinə verilən səslər 50 faizdən aşağı düşsə də, yenə də kifayət qədər yüksək rəqəmlərə çatıb. "Millət İttifaqı" isə öz mövqelərini müəyyən qədər qoruyub saxlasa da, məğlubiyyətə uğrayıb, siyasi arenada hələ də ayaqda qalmasına baxmayaraq böyük sıçrayış edə bilməyib.

Sual olunur: artıq 21 ildir ölkəni idarə edən AKP və onunla əməkdaşlıq edən MHP niyə hələ də hakimiyyətdədir? Bu fenomen nəyi göstərir? Cənab Prezident R.T.Ərdoğanın təbirincə desək, "metal yorğunluğu" yaşayan iqtidar və iqtidar kadrları niyə hələ də vəzifə başındadır? Son 3-4 ildə hər cür iqtisadi çətinliklərə, yüksək inflyasiyaya baxmayaraq, müxalifət niyə hakimiyyətə gələ bilmir? Bunun arxasındakı sirr nədir?

Bundan əlavə, 2023-cü ildə ölkənin 11 vilayətini əhatə edən dağıdıcı zəlzələnin sosial-iqtisadi təsirləri və insan itkiləri təzə olsa da, 2023-cü il mayın 14-də keçirilən seçkilər "Cümhur İttifaqı"na inamın yüksək səviyyədə olduğunu göstərdi.

Bu, izahı çətin olan bir fenomendir. Bunları anlamaq üçün son 20 ildə baş verənləri nəzərdən keçirmək lazımdır.

AKP 2002-ci ildə hakimiyyətə gələndə Türkiyə dövlətinin beynəlxalq təşkilatlara külli miqdarda valyuta borcu vardı, inflyasiya 100 faizi keçirdi, ölkə terror bəlasından xilas ola bilmirdi, bank sistemi iflas həddində idi, səhiyyə və sosial təminat sistemi isə çökmüşdü. Bütün bunları tezliklə aradan qaldırmaq vacib idi. Digər demokratik və iqtisadi problemlər də həllini gözləyirdi.

R.T.Ərdoğanın liderliyi ilə 2013-cü ilə qədər Türkiyədə, demək olar ki, bütün bu problemlər öz həllini tapdı və istər iqtisadiyyatda, istər səhiyyədə, istərsə də nəqliyyat-logistika və rabitə sistemində böyük irəliləyişlər əldə edildi.

Gəlin, onlardan bəzilərini sadalayaq. Avrasiya tuneli və Bosfor boğazı altından keçən Mərmərə dəmir yolu xətti, 3-cü Boğaziçi və Körfəz körpüləri, iri şəhərlərdə yüksək sürətli qatarlar və geniş yayılmış metro şəbəkələri, yüzlərlə magistral yollar, tunellər və hava limanları, müdafiə sənayesində və yerli milli müdafiə sistemlərində parlaq irəliləyişlər (raket sistemləri, İHA-lar və SİHA-lar, "Altay" tankı və "Hürjet" təyyarəsi, zirehli maşın və hücum helikopteri və s.). Əslində, seçkilərdə iqtidar tərəfindən səslənən şüarların başında "Nə ediriksə, qarşıdakı illərdə edəcəklərimizin zəmanətidir" fikri olub. Bütün bunlar seçicilərin hazırkı hökumətə etimadını yüksəldib.

Qarşı tərəf, yəni "Millət İttifaqı" və CHP sədri ancaq "Bizə güvənin", "Bizə səs verin", "Hər şey yaxşı olacaq" şüar və çağırışları ilə iqtidarı pisləyib, əsassız və boş vədlərdən başqa ortaya yeni baxış və ideyalar qoya bilməyib.

Ümumiyyətlə, Kamal Kılıçdaroğlu CHP başqanı olduqdan sonra iştirak etdiyi bütün seçkiləri, prezident seçkilərini və referendumları uduzdu. Amma hər seçkidən sonra "AKP və "Cümhur İttifaqı uduzdu" deməklə qalib gəldiyini söyləməkdən əl çəkmədi.

Seçicilərin bir qismi isə fərqli düşünür. Belə ki, onlar son 3-4 ildə butün dünya miqyasında pisləşən iqtisadiyyatın əsas səbəblərini hökumətin fəaliyyətsizliyində görürlər. Yaxud 16 iyul 2016-cı ildə dövlət çevrilişi cəhdinin qarşısının alınması, ABŞ-ın Suriya və İraqda birmənalı dəstəklədiyi İŞİD və PKK/YPG terror qruplaşmasının ölkə hüdudlarından kənara çıxarılması, dünyanı bürüyən COVID pandemiyasının uğurla dəf edilməsi R.T.Ərdoğan iqtidarının möhtəşəm uğurları, eyni zamanda Qərbin həzm edə bilmədiyi reallıqlardandır.

Türkiyə hakimiyyətinin xaricdən ona qarşı yönələn təhdidlərin qarşısını ala bilmək bacarığı Qərb dövlətlərini narahat edir. Bu kimi niyyətlərdən qaynaqlanan ABŞ və Avropa mediasında Türkiyəyə və onun Prezidenti R.T.Ərdoğan əleyhinə böhtan xarakterli məqalələrin



sayı azalmaq bilmir. Çünki bu həm də Türkiyənin müəyyən dərəcədə dünya arenasında müstəqil bir siyasət yürütməsinə qarşı sərgilənən mövqedir.

Bu, Türkiyənin hər hansı bir ölkənin diktəsi ilə hərəkət etməyəcəyini açıq göstərir. NATO-ya üzv ölkə bu təşkilatın öz milli maraqlarına uyğun gəlməyən qərarlarına tabe olmur və ayrıca öz dəst-xəttini irəli sürür, terrora dəstək verməməyi tələb edir. Hətta NATO-ya üzv olmaq istəyən dövlətlərə də öz şərtlərini ortaya qoyur. Finlandiya və İsveçlə bağlı hadisələr yaxın ayların hadisələridir.

Ölkəsini sevən, Türkiyənin parçalanmasına qarşı çıxan, unitar dövlət quruluşundan heç vaxt əl çəkməyən seçicilərin əksəriyyəti Qərbin Türkiyəyə qarşı olan ikiüzlülüyünü, qurduğu tələləri görür və ona uyğun hərəkət edir. Fikir verin, bu seçkilərdən əvvəl Qərbin total "Ərdoğan düşmənçiliyi" türk xalqının seçki qutusunda göstərdiyi demokratiya dərsi ilə üzləşmişdi.

Prezident Rəcəb Tayyib Ərdoğanın rəqibinə qarşı 2,5 milyon artıq səs topladığı seçkinin birinci turundan sonra Qərb yavaş-yavaş bu nəticəyə alışdı. Qərb "müttəfiqləri" başa düşdülər ki, ABŞ-ın, Avropanın, FETÖ-nün, PKK-nın, eləcə də "BBC Nyus", "Tayms", "Vaşington Post", "Finansial Tayms", "Ekonomisk", "Quardian", "Şpigel" kimi suyu bulandırmaq istəyən media qurumlarının seçkiyə kölgə salmaq cəhdləri uğursuzluğa məhkumdur.

Bir sözlə, Türkiyə xalqı üçün Vətən və dövlətçiliyin fövqündə heç bir şey yoxdur və ola da bilməz. Türkiyə böyük və qüdrətli dövlətdir. Türk xalqı hər zaman güclü, iradəli və yenilməzdir!

***Yazını təqdim etdi:***
***Məsaim ABDULLAYEV,***
***"Xalq qəzeti"***

# Ukraynada bütün cəbhə boyu döyüşlər şiddətlənib

**Dünən Rusiya Silahlı Qüvvələri cəbhənin təmas xəttinin bir çox istiqamətlərində Ukrayna hərbçilərinin mövqelərini ağır artilleriya və top atəşinə tutublar. UNİAN agentliyi yazır ki, rəqibin Donetsk və Xerson istiqamətlərində irəliləmək cəhdlərinin qarşısı alınıb.**



Ukrayna Prezidenti Volodimir Zelenski özünün "Teleqram" səhifəsində yazıb ki, Rusiya ordusu Ukraynanın Dnepr şəhərinə raket zərbələri endirib. Şəhərdəki klinikaya raket zərbələri nəticəsində 1 nəfər ölüb, 15 nəfər yaralanıb. Hadisə yerinə təcili tibbi yardım maşınları cəlb olunub.

Ukrayna ordusu ötən gecə Rusiyanın İran istehsalı olan 36 "Shahed" pilotsuz uçuş aparatını (PUA) məhv edib. Bu barədə Ukrayna Silahlı Qüvvələrinin Baş Qərargahı məlumat yayıb. Son sutkada həmçinin qarşı tərəfin 1 "Su-25" təyyarəsi vurulub.

"Bundan başqa düşmənin canlı qüvvəsinin cəmləşdiyi 2 ərazi, 1 sursat anbarı, 1 radiolokasiya stansiyası və 2 artilleriya diviziyası məhv edilib", -deyə Baş Qərargahdan bildirilib.

Qeyd edək ki, Rusiya ilə Ukrayna arasında genişmiqyaslı müharibə ötən il fevralın 24-də başlayıb. O vaxtdan Ukraynanın yüzlərlə şəhər və kəndi yerlə-yeksan edilib. Ukrayna tərəfi iddia edir ki, ağır döyüşlərin davam etdiyi 15 ay ərzində Rusiyanın iki yüz minə yaxın əsgər və döyüşçüsü qətlə yetirilib. Rusiya tərəfi isə bunun şişirdilmiş rəqəmlər olduğunu bildirir.

Qeyd etmək lazımdır ki, Rusiya-Ukrayna müharibəsi başlayan gündən Qərbin Ukraynaya hərbi dəstəyi artır ki, azalmır. Dünən Pentaqon rəhbəri Lloyd Ostin bildirib ki, ABŞ və Ukraynaya dəstək üzrə təmas qrupunun digər ölkələri Kiyevə ümumilikdə, 65 milyard ABŞ dolları dəyərində hərbi yardım göstərməyi öhdələrinə götürüblər.

Onun fikrincə, gələcəkdə Kiyevə hərbi yardımı davam etdirmək üçün daha çox səy göstərməli, silah istehsalı gücünü artırmaq üçün yaradıcı yollar axtarmalı olacaqlar. Eyni zamanda, Pentaqon rəhbəri ABŞ və tərəfdaşlarının hələ də Ukraynaya yardımı davam etdirməkdə qərarlı olduqlarını diqqətə çatdırıb

O, həmçinin ukraynalı pilotların "F-16" qırıcılarını idarə etmək üçün yaxın həftələrdə təlimə başlaya biləcəyinə ümid etdiyini bildirib.

Sonda bildirək ki, Rusiya-Ukrayna müharibəsinin dayandırılması və sülh danışıqlarının başlanılması ilə bağlı BMT, Türkiyə, Çin və sair dövlətlər təşəbbüs göstərirlər. Lakin bu səylər hələlik öz bəhrəsini vermir.

***M.HACIXANLI, "Xalq qəzeti"***

# Şoyqu: Belqorodda törədilən terrora sərt cavab davam edəcək

**Rusiyanın Müdafiə Nazirliyi Kiyevin Belqorod vilayətində törədilən terror aktına bənzər hərəkətlərinə operativ və son dərəcə sərt cavab verməyə davam edəcək. Bunu Rusiya müdafiə naziri Sergey Şoyqu bildirib.**



Rusiya MN başçısı Ukrayna müharibəsində iştirak edən hərbi qulluqçuların hüquqlarının təmin olunması haqqında da danışıb. Bildirib ki, Rusiyada xüsusi əməliyyatda iştirak edən hərbi qulluqçuların hüquqlarını əhəmiyyətli dərəcədə genişləndirən 63 normativ hüquqi akt qəbul edilib.

Onun sözlərinə görə, Rusiya xüsusi əməliyyatda iştirak edən hərbi qulluqçular və onların ailə üzvləri üçün sosial təminatların həyata keçirilməsi üzrə sistemli işi davam etdirəcək.

Şoyqu onu da qeyd edib ki, Rusiya Müdafiə Nazirliyinin təlim mərkəzləri yeni regionlarda formalaşan birləşmələr və hərbi hissələr üçün hərbçilər hazırlayır: "Xüsusi əməliyyat başlayandan indiyədək 120 mindən çox hərbi qulluqçu, qoşunların qruplaşdırılması və yeni birləşmələr üçün 21 mindən çox mütəxəssis hazırlanıb. Xüsusi əməliyyat başlayandan 5000-ə yaxın hərbi mütəxəssis yüksək texnologiyalı silahlardan istifadə etmək üçün təlim keçib".

# ABŞ və BƏƏ birgə hərbi təlim keçirir

**Birləşmiş Ərəb Əmirlikləri ABŞ ilə birlikdə "Dəmir Birliyi 19" adlı birgə hərbi təlimə başlayıb. Bu barədə "Reyters" agentliyi məlumat yayıb.**

Xəbərdə deyilir ki, hərbi təlimdə BƏƏ və ABŞ quru qüvvələrinin şəxsi heyəti iştirak edir. Birgə hərbi təlimin hər iki ölkənin qarşılıqlı müdafiə əlaqələrini gücləndirmək və müharibə vəziyyətlərində səmərəliliyi artırmaq üçün təcrübə mübadiləsi aparmaq məqsədi daşıdığı bildirilib.

Qeyd etmək lazımdır ki, BƏƏ və ABŞ arasında hərbi əlaqələri gücləndirmək üçün tez-tez təlimlər keçirilir. ABŞ-ın BƏƏ-də üç hərbi bazası var. Birləşmiş Ştatların hazırda əksər ərəb ölkələrində hərbi bazaları mövcuddur.

Sonda bildirək ki. ABŞ-ın keçmiş prezidenti Donald Trampdan fərqli olaraq,



Ağ evin hazırkı sahibi Co Baydenin administrasiyası yaxın-uzaq qitə və ölkələrdə fəal xarici siyasət kursu həyata keçirir. Son vaxtlar ABŞ hökumətinin Yaxın Şərq regionunda diplomatik fəallığı da müşahidə olunur.

# Sudanda yenidən ağır döyüşlər başlayıb

**Sudanın qərbində, Darfur regionunda ordu ilə çevik reaksiya qüvvələri (xüsusi təyinatlılar) arasında yenidən döyüşlər başlayıb.**

Sudan mətbuatı xəbər verir ki, hazırda Darfur regionunun bəzi rayonlarında yüngül silahlardan istifadə olunmaqla, döyüşlər gedir. Hər iki tərəf bir-birini vəziyyəti gərginləşdirməkdə və yerli tayfaların özünümüdafiə qüvvələrini münaqişəyə cəlb etmək cəhdlərində ittiham edir. Darfur çevik reaksiya qüvvələrinin əsas dayaq məntəqəsi hesab olunur.

Bir müddət öncə mayın 22-də Ciddədə ABŞ və Səudiyyə Ərəbistanının vasitəçiliyi ilə Sudan ordusu ilə çevik reaksiya qüvvələri arasında bir həftəlik atəşkəs rejimi barədə razılaşma əldə olunmuşdu.

Qeyd edək ki, aprelin 15-də Sudanda ordu birləşmələri və çevik reaksiya qüvvələri arasında başlayan silahlı münaqişə nəticəsində indiyə qədər minə yaxın insan həlak olub, milyondan çox insan isə qaçqın və məcburi köçkün vəziyyətinə düşüb.

***"Xalq qəzeti"***

# İlon Mask insan beyninə implant yeridəcək

**Dünyanın ən zəngin iş adamı, nəhayət, çoxdankı arzusuna çatıb və onun beyin çipləri istehsal edən Neuralink şirkəti insanlar üzərində kliniki təcrübələr aparmaq üçün FDA-dən icazə alıb. Əsası İlon Mask tərəfindən qoyulmuş Neuralink canlı insanlar üzərində kliniki təcrübələr keçirmək üçün FDA-nın (ABŞ qida məhsullarının və tibb preparatlarının keyfiyyətinə sanitar nəzarəti İdarəsi) icazəsini əldə edib.**



"Biz sevinc hissi ilə xəbər veririk ki, insanlar üzərində kiliniki tədqiatlara başlamaq üçün FDA-nın razılığını almışıq", – Neuralink şirkəti Twitter-də bildirib. Şirkət rəsmiləri hesab edirlər ki, aparılacaq təcrübə və tədqiqatların sayəsində çiplərlə bağlı texnologiya gələcəkdə bir çox insanların köməyinə çatacaq.

Hələlik təcrübələr üçün könüllülərinin axtarışına başlamadığını bildirən şirkət yetkililəri kliniki sınaqların "beyin interfeysi" adı altında aparılacağını açıqlayıb.

Xatırladaq ki, Neuralink insanın birbaşa beyin qablığının yaxınlığında yerləşdiriləcək implantların hazırlanması ilə məşğuldur. Bu əməliyyat iflic vəziyyətindəki xəstələrə nəzəri cəhətdən kompyuterin kursorunu "düşüncənin gücü" ilə idarə etmək imkanı yaradacaq. Əgər bu layihə həqiqətən özünü doğrultsa, onda çip texnologiyası tamamailə yeni bioniki protezlərin yaradılmasına yol açacaq, eləcə də danışıq qabiliyyətini itirmiş insanların ətraf aləmlə ünsiyyətinin bərpasına kömək edəcək .

Verilən məlumatda o da vurğulanır ki, implantlar artıq donuzların və meymunların üzərində sınaqdan çıxarılıb. İntəhası, bu təcrübənin insanlar üzərində aprılmasına uzun müddət icazə verilmirdi. Bunun səbəbi kimi heyvanlar üzərində aparılan təcrübələrdə bəzi problemlərin üzə çıxması göstərilirdi. Şirkətin hazırladığı məhsullara tam əminliyini göstərmək üçün İlon Mask həmin çipləri öz övladlarında testdən keçirməyə hazır olduğunu bildirib.

Onu da qeyd edək ki, 2021-ci ildə Neuralink implantlarının sınağında iştirak etmək üçün Maska müraciət edən xəstələrin sayı yüzlərlə idi.

***İ.HƏSƏNQALA,***
***"Xalq qəzeti"***

SON SƏHİFƏ
Xalqın qəzeti!
# Xalq qəzeti
№ 111 (30227) 27 may 2023-cü il, şənbə
veb-sayt: www.xalqqazeti.az

*İdman xəbərləri*

## Bakıda daha bir beynəlxalq turnir başlayır

**Bu gün Bakıda budo döyüş növləri üzrə beynəlxalq turnir başlayır. Yarışda Azərbaycanla yanaşı, Türkiyə, Pakistan, İraq, Tacikistan, Qırğızıstan, Özbəkistan və Türkmənistandan 300-dək idmançı medallar uğrunda mübarizə aparacaq.**



Yeniyetmə, gənc və böyüklər arasında təşkil olunacaq turnir "fri kontakt", "full kontakt" və "submission" qaydaları üzrə baş tutacaq.

Bakıda səfərdə olan Dünya Budo Döyüş Növləri Federasiyasının prezidenti Eyup Zafer Gökbilen də turnirdə fəxri qonaq kimi iştirak edəcək.

Yarış mayın 28-də başa çatacaq.

## Cüdoçularımızın gümüş və bürünc medalları



**Avstriyanın Linz şəhərində keçirilən Qran-Pri turnirində cüdoçularımız iki medal qazanıblar.**

Yarışda finala qədər uğurla irəliləyən Kamran Süleymanov (66 kq) həlledici mərhələdə ispaniyalı David Qarsiya Torneyə məğlub olub. Bununla da o, gümüş medala sahib olub.

Qadınların yarışında isə Gültac Məmmədəliyeva (52 kq) ispaniyalı Ariane Toro Solerə qalib gələrək bürünc medal alıb.

Mayın 27-dək davam edəcək turnirdə 72 ölkədən 450-dən artıq cüdoçu mübarizə aparır.

## Yelkənçilərimiz "Baku Sailing Regatta-2023"də



**Ulu öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü münasibətilə "Baku Sailing Regatta-2023" keçirilir.**

Dünən startı verilən və xarici idmançıların da qatıldığı yarışda, ümumilikdə, 39 yelkənçi altı sinif ("Optimist", "Optimist Qızlar", "Optimist Junior", "ILCA 4", "ILCA 6", "ILCA 7") üzrə mübarizə aparır.

"Xəzər bizi səsləyir" devizi ilə Bakı buxtasında (Yaxt klub ərazisində) təşkil olunan turnir mayın 28-dək davam edəcək.

Yarış Gənclər və İdman Nazirliyinin dəstəyi, Azərbaycan Yelkənli İdman Federasiyasının (SFA), "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) və "Xəzər" Yelkənli Qayıqlar İdman Klubunun təşkilatçılığı ilə keçirilir.

*Leyla QURBANOVA,*
*"Xalq qəzeti"*

*Texnologiya yenilikləri*



## "WhatsApp"da "istifadəçi adı" funksiyası

**Yaxın zamanlarda "söhbət kilidi" və "mesaj redaktə" funksiyalarını açıqlayan məşhur mesajlaşma proqramı "WhatsApp" istifadəçilərinə yeni təcrübə təqdim etməyə hazırlaşır. Belə ki, "Telegram", "İnstagram" və "Twitter"də olduğu kimi, "WhatsApp"da da istifadəçi adı əldə etmək mümkün olacaq. Xəbəri "wabetainfo.com" saytı verib.**

Məlumdur ki, "WhatsApp" tətbiqində istifadəçi adı yoxdur və proqramı işə salmaq üçün telefon nömrəsi ilə qeydiyyatdan keçmək lazımdır. Bu isə təhlükəsizlik məsələləri ilə bağlı problemlər yaradır. Yeni funksiya sayəsində istifadəçilər artıq bir-biri ilə telefon nömrələrini paylaşmağa ehtiyac duymayacaqlar. Çünki bir-birlərinin unikal istifadəçi adlarından istifadə edərək ünsiyyət qura biləcəklər.

Xatırladaq ki, funksiya inkişaf mərhələsində olduğu üçün ondan necə istifadə ediləcəyi ilə bağlı dəqiq məlumat yoxdur.

*Əfsanə ƏHƏDLİ,*
*"Xalq qəzeti"*

## Tətbiq yükləyən zaman ehtiyatlı olaq!

**"Google Play Store"də yeni "troyan" adlı virus aşkar edilib.**

Bu barədə Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin Kompüter İnsidentlərinə qarşı Mübarizə Mərkəzi (CERT) xəbər yayıb.




Məlumatda qeyd olunur ki, dünyada geniş yayılmış bu virus növü kompüter sistemini tədricən sıradan çıxarmaq qabiliyyətinə malikdir.

Virus, həmçinin smartfon ekranının videosunun çəkilməsi üçün nəzərdə tutulmuş "iRecorder-Screen Recorder" adlı tətbiq daxilində yerləşdirilib və həmin tətbiq 10 minlərlə yüklənmə sayına sahibdir.

Tətbiq "Google Play Store" platformasına 2021-ci ilin sentyabrında yerləşdirilib.

2022-ci ilin avqustunda isə tərtibatçılar bu tətbiq üçün yenilənmə təqdim ediblər.

Tətbiq ilk günlərdə zərərsiz görünsə də, sonradan ziyanlı tərəfləri üzə çıxmağa başlayıb.

*Fidan HÜQUQQIZI,*
*"Xalq qəzeti"*

*Sosial şəbəkələrdən seçmələr*

## Başa gedən yol

**Əziz oxucular, rubrikamızın növbəti materialını sosial şəbəkə fəalı, həkim-yazar Hümbət Həsənoğlunun "Facebook" səhifəsindən götürmüşük. Bir qədər əvvəl onun ibrətamiz yazısını təqdim etmişdik. Bu dəfə isə Hümbət Həsənoğlunun "Samovar və dəm çaydanı" adlı pritçası ilə tanış olun:**



"Samovar dəm çaydanına irad tutdu:

–Hər stəkana əyilmə, mənim kimi qürurlu ol, qoy, stəkanları sənin yanına gətirsinlər.

Caydan ona belə cavab verdi:

–Olanımla bölüşdüyümdən hər stəkana əyilməyimdən narahat deyiləm, əksinə məmnunam. Elə bu səxavətimə görə də məni insanlar həmişə sənin başının üstünə qoyurlar.

Samovar daha deməyə söz tapmadı".

*Ə.ƏLİYEV, "Xalq qəzeti"*

## Marsın 2 peyki Sviftə məlum imiş

**Conatan Svift 1726-cı ildə məşhur"Qulliverin səyahəti" romanını yazır. Məzəli, kəskin satirik şəkildə qələmə alınmış bu əsərdə yazıçı o dövr İngiltərə cəmiyyətinin sosial-siyasi mənzərəsini yaratmış, saray çəkişmələrini, dövlətlər, adlı-sanlı sülalələr arasındakı müharibələri, feodal özbaşınalıqlarını kəskin ifşa etmişdir. Roman oxucularının sevimli kitabı olur. Bir əsrdən sonra "Qulliverin səyahəti" siyasi romandan uşaq romanına çevrilir.**



Sviftin oxucuları arasında yayılmış şayiələrə görə, guya, yazıçı bir dəfə yad planetlilərlə görüşüb. Onlar çox yaxşı dost olublar. Yad planetdən gələn "qonaqlar" mehriban qəbula görə əsərin məzmununu ona söyləyib və xəbər veriblər ki, Marsın 2 peyki var. Əsərdə göstərilən Fobos və Deymos peykləri alimlər tərəfindən 150 il sonra kəşf edilir.

*P.ƏFƏNDİYEV,*
*"Xalq qəzeti"*

## İmplant iflic xəstəni ayağa qaldırdı



**İsveçrədə aparılan araşdırmalar nəticəsində iflic olan bir nəfər elektron beyin implantları sayəsində yeriyə bilib.**

O, bu barədə BBC-yə danışıb. Təxminən 12 il əvvəl velosiped qəzası nəticəsində iflic olan 40 yaşlı hollandiyalı Gert-Jan Oskam bu üsulun onun həyatını dəyişdiyini deyib.

2021-ci ilin iyulunda beyin əməliyyatı icra edən professor Blok beynin hərəkətini idarə edən nahiyələr üzərində kəllənin hər iki tərəfində 5 santimetr diametrli iki dəlik qazıb.

Sonra o, xəstənin başındakı dəbilqəyə bərkidilmiş sensora beyin siqnallarını naqilsiz ötürən disk formalı implant yerləşdirib.

Professor Blok həmin implantı yerimə ilə əlaqəli sinir ucları ilə mürəkkəb şəkildə əlaqələndirib.

*F.SALMANOVA,*
*"Xalq qəzeti"*

*Sağlamlıq guşəsi*

## Təzə kartofun faydası



**Təzə kartof C vitamini və böyük miqdarda kalium ilə zəngindir. Bu, yaşlı insanların ürək-damar sistemi üçün çox faydalıdır.**

Mütəxəssislər tibbi saytlara istinadla bildirirlər ki, hazırda təzə kartofun mövsümüdür. Bu qida məhsulu orta miqdarda hətta şəkərli diabeti olan yaşlı insanların rasionuna da daxil edilə bilər.

Təzə kartof qabığı ilə qəbul edildikdə daha faydalıdır, çünki o bağırsaq üçün faydalı olan lif və mineral maddələrlə zəngindir. Həmçinin onun qabıqla közdə, yaxud sobada bişmişi ürək qidalanması üçün xüsusilə faydalıdır.

*Z.HÜSEYNOVA,*
*"Xalq qəzeti"*

*Proqnoz*




Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən mayın 27-də Bakıda və Abşeron yarımadasında hava əsasən yağmursuz keçəcək. Mülayim şimal-qərb küləyi əsəcək. Gecə 15-19°, gündüz 25-29° isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 756 mm civə sütunu, nisbi rütubət gecə 70-80, gündüz 50-60 faiz olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Əsasən dağlıq və dağətəyi rayonlarda leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gündüz əksər rayonlarda yağışda fasilə olacaq. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 15-20°, gündüz 27-32°, dağlarda gecə 7-12°, gündüz 10-15°, bəzi yerlərdə 18-20° isti olacaq.

*Q. QASIMOV, "Xalq qəzeti"*

## Yeni videokartların stok problemi olmayacaq

**Bir neçə həftə əvvəl "Nvidia" şirkəti hər kəsin səbirsizliklə gözlədiyi yeni videokart ailəsi olan RTX 3000-i təqdim etmişdi. Lakin sifariş etmək üçün səbirsizlənən istifadəçiləri bir problem gözləyirdi: Videokart stokları.**



Belə ki, yeni nəsil videokartlar az sayda istehsal edildiyi üçün stok problemi yaşayırdı və istifadəçilər bir müddət daha gözləməli idi. Görünən odur ki, "Nvidia"nın videokart ekosistemindəki rəqibi AMD bu problemə qarşı tədbirlər görüb.

AMD rəsmilərindən olan Frank Azorun verdiyi məlumata görə, şirkətin yeni nəsil videokart ailəsi olan RX 6000 stok problemi yaşamayacaq.

*Z.BAYRAM, "Xalq qəzeti"*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 5182
SİFARİŞ 1323
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ

Çapa imzalanmışdır
00:00